Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 47 (6090) 6 dekabr 2024-cü il | Qiyməti 40 qəpik

# Ermənistanın sürətlə silahlanması sülhə əngəldir



**Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir.**

**Adalet.az xəbər verir ki, bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına müraciətində yer alıb.**

**Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır.**

**"Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir", - deyə Azərbaycan Prezidenti bildirib.**

## 2025-ci ilin Büdcə Zərfi qəbul edildi



**Milli Məclisdə 2025-ci il üçün dövlət büdcəsi zərfinin ikinci oxunuşda müzakirə edilib.**

Adalet.az xəbər verir ki, müzakirələrdən sonra dövlət büdcəsi zərfi ikinci oxunuşda qəbul edilib.

## Türkiyə Azərbaycana yeni səfir təyin etdi



**Türkiyə Azərbaycana yeni səfir təyin edib.**

Adalet.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Birol Akgün Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

O, bundan öncə Türkiyə Maarif Vəqfinin sədri olub.

*Elxan Şükürlü*

## Qüdsü xilas edən yeganə yol...

Bax:səh-4

## Əlahiddə Ümumqoşun Orduda komanda-qərargah təlimi keçirilib



**Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) 2024-cü il üçün hazırlıq planına uyğun olaraq, növbəti komanda-qərargah təlimi keçirilib.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Təlimə cəlb olunan bölmələr "Həyəcan" siqnalı ilə təlim rayonlarına çıxarılıb, onların manevr imkanları, komandirlərin və qərargahların əməliyyat şəraitində idarəetmə bacarıqları yoxlanılıb.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə raket və artilleriya bölmələri şərti düşmənin planlı və plandankənar hədəflərini atəşlə məhv ediblər.

Komanda-qərargah təlimində qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib.

## İsrail Ermənistanla bağlı xəbərdarlığı yenilədi



**İsrailin Milli Təhlükəsizlik Şurası üç ölkəyə səfər xəbərdarlığını yeniləyib.**

Maldiv adaları və Ermənistana səyahət xəbərdarlığının səviyyəsi yüksəldilib, Braziliya ilə bağlı xəbərdarlığın səviyyəsi isə azaldılıb.

Ermənistana səyahət xəbərdarlığı "İsrail vətəndaşları, yəhudilər üçün terrorçu elementlərin təhlükəsi fonunda" 1-ci səviyyədən 2-ci səviyyəyə qaldırılıb.

**Səyahət xəbərdarlığı ilə bağlı "Səviyyə 2" səfər edənlərə ehtiyatlı olmağı tövsiyə edir, bu, ölkəni tamamilə tərk etmək çağırışı kimi qiymətləndirilmir.**

## FRANSANIN GÜRCÜSTANDAKI SƏFİRİ



***xanım Zurabişvili Gürcüstanı Ukraynanın gününə salmaqdan ötəri Avropadan gələn əmrləri yerinə yetirmək üçün dəridən-qabıqdan çıxır. Dövlətin deyil, müxalifətin tərəfində dayanan bu üzdəniraq prezident yanğına benzin tökməklə məşğuldur.***

***Gürcü xalqı ona elə bir toy tutacaq ki, Makronun toyu yadına düşəcək.***

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## CIRIQ TUMANA YAMAQ OLMAYAN BMT



*Bilmirəm 78 il, ya 79 il bizim eradan əvvəl dünyanın dövlətləri yığışıb bir təşkilat yaradıblar: Birləşmiş Millətlər Təşkilatı. Ağlım kəsəndən bu Təşkilatın nəyəsə yaradığını nə görmüşəm, nə də oxumuşam. 200-ə yaxın dövləti birləşdirən bu Təşkilat bir qəpiyə dəyməz, amma hər il dövlətlər bu təşkilata, o cümlədən biz də, milyonlarla dollar pul ödəyir, üzvlük haqqı kimi. İçində də beş üzvü olan Təhlükəsizlik Komitəsi yaradıblar ki, əsas söz sahibi də bunlardı. Bunların da bir-biriylə arası yoxdu. Nə qərar çıxırsa mütləq biri veto qoyur və qərar da gedir cəhənnəmin dibinə.*

*Sayın Ərdoğan deyir:*

*- Dünya beşdən böyükdür.*

*Amma dünyada baş verən hadisələrə baxanda görürük ki, dünya beşdən böyük deyil. Və bu beş böyük dövlət digər dövlətləri barmaqlarına sarıyıblar. Və məcbur edirlər ki, özlərindən başqa həmin dövlətlər onların çaldığı havaya oynasınlar.*

*Bax: səh.3*

## GÜNÜN LƏTİFƏSİ



Gecə yarıdan ötüb. Qonaqlar deyəsən getməyə hazırlaşmırlar. Ev sahibi əsnəyib stolu taqqıldadır, xeyiri yoxdur. Birdən nə isə fikirləşib o biri otağa keçir və birazdan qayıdıb deyir:

**- Yanğın idarəsindən zəng vurmuşdular, hansınızınsa evi yanır. Amma telefonda xırıltı var idi, yaxşı eşidə bilmədim ki, kimin evidi...**

# Naxçıvan Sənaye Parkı yaradılır



**Naxçıvan Muxtar Respublikasında Naxçıvan Sənaye Parkı yaradılır.**

Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, Park sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

Parkın fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir.

Parkın fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Agentliyə ilkin olaraq 500 min manat ayrılıb.

İqtisadiyyat Nazirliyi dövlət başçısının Naxçıvandakı səlahiyyətli nümayəndəliyinin və muxtar respublikanın Nazirlər Kabinetinin təkliflərini nəzərə alınmaqla, Parkda istehsal və emal (təkrar emal) olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən etməli, kommunal xidmət (elektrik və istilik enerjisi, təbii qaz və su) qurumları ilə birlikdə Parkın ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə kömək etməli, fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

Naxçıvanın Nazirlər Kabineti Parkın fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Prezidentə məlumat verməli, fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Maliyyə Nazirliyi fərmanda göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

# Prezident Sərəncam imzaladı

**Azərbaycanın rabitə və informasiya texnologiyaları sahəsi işçiləri ”Tərəqqi” medalı ilə təltif ediliblər.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamla Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər ”Tərəqqi” medalı ilə təltif ediliblər:

**Abbasov Emil İsmayıl oğlu**
**Ağamirova İradə Rahil qızı**
**Ağasiyeva Sevinc Əlibaba qızı**
**Bədirxanov Dunay Rasim oğlu**
**Əliyev Müşfiq Cabir oğlu**
**Hüseynov Pərviz Firuz oğlu**
**İsmayılov Pərviz Nazim oğlu**
**Kərimov Vüsal Rəvan oğlu**
**Mərdanov Nail Teyyub oğlu**
**Nağıyev İbrahim Abdulla oğlu**
**Vəliyeva Sevinc Misirxan qızı.**

# *Sahibə Qafarova Mövlud Çavuşoğlu ilə görüşüb*

**Milli Məclisin sədri Sahibə Qafarova Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin üzvü və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən xəbərə görə, görüşdə dost və qardaş ölkələrimiz, o cümlədən, qanunverici orqanlarımız arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə edilib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin ”Bir millət, iki dövlət” şüarına əsaslanan və bütün sahələri əhatə edən münasibətlərimiz dövlət başçılarımızın siyasi iradəsi və birgə səyləri sayəsində bu gün özünün ən yüksək səviyyəsinə yüksəlib.



Tərəflər yüksək səviyyəli əməkdaşlıq əlaqələrinin parlamentlər müstəvisində də inkişaf etdirildiyini diqqətə çatdırıblar. Mövlud Çavuşoğlu Azərbaycanda növbədənkənar parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib. Parlament sədrləri, dostluq qrupları və deputatlar arasında təmasların münasibətlərimizə mühüm töhfələri qeyd edilib. Həmçinin qanunverici orqanlarımızın və deputatların bütün beynəlxalq parlament təşkilatlarında ortaq mövqedən çıxış etdikləri məmnunluqla diqqətə çatdırılıb. Qeyd olunub ki, ölkələrimizə qarşı bir sıra dairələr tərəfindən həyata keçirilən qarayaxma və təzyiq kampaniyalarına qarşı mübarizədə parlamentarilərimizin əməkdaşlığı olduqca vacibdir. Söhbət zamanı Azərbaycanın ev sahibliyi ilə COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı da fikirlər səsləndirilib. Bu tarixi zirvə toplantısının ölkəmizin qlobal proseslərə növbəti töhfəsi kimi dəyərləndirilib.

Görüşdə regionda mövcud olan vəziyyətlə bağlı da fikir mübadiləsi aparılıb. Həmçinin Qərbi Azərbaycan İcmasının ”Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi” mövzusunda beynəlxalq konfransının əhəmiyyəti barədə fikirlər səsləndirilib.

# *Deputat: “Qarabağa min erməni qayıdacaqsa, Qərbi Azərbaycana da min azərbaycanlı qayıtmalıdır”*

**”Ermənistanda azərbaycanlılarla, müsəlmanlarla bir yerdə yaşamağın yolverilməz olduğunu düşünən erməni vandalizmi ilə üz-üzəyik”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə ”Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış” mövzusunda ictimai dinləmədə çıxışı zamanı deputat Fazil Mustafa deyib.

”Bir məqama diqqət etməliyik ki, beynəlxalq platformada ermənilərin Azərbaycana hansısa formada qayıdışının alternativi olaraq azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı tezisini aktual şəkildə bütün beynəlxalq platformalarda gündəmdə saxlamalıyıq. Ermənilər guya yeni çıxmış görünürlər. Qarabağa hansısa formada geridönüşlə bağlı Azərbaycana təzyiqlərlə bunu eyniləşdirməyə bütün gücümüzlə çalışamlyıq. Min erməni qayıdırsa, min azərbaycanılının da qayıdışı təmin olunmalıdır. Bunu paralel aparmaq bizim gələcək siyasətimizin uğurlarından biri olacaq”, - deyə deputat bildirib.

# *“Qərbi azərbaycanlıların torpaqlarına qayıdışı üçün zəmin yaranıb”*

**”Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər nəinki ərazilərimizin 30 illik işğalına son qoydu, nəinki son 100 il ərzində xalqımıza qarşı törədilən etnik təmizləmə, deportasiya və soyqırımı siyasətini durdurdu, ümumiyyətlə ermənilərin və onların havadarlarının regionda addım-addım həyata keçirdikləri 200 illik strategiyanı darmadağın etdi. Bu 200 illik tarixdə ilk dəfə olaraq, Qərbi Azərbaycandan olan soydaşlarımızın öz tarixi torpaqlarına qayıdışı üçün zəmin yarandı”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə ”Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış” mövzusunda ictimai dinləmədə çıxışı zamanı Qərbi Azərbaycan İcmasının sədri, deputatı Əziz Ələkbərli deyib. ”Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəviyə çıxarılması, qaçqın soydaşlarımızın qayıdış hüququnun beynəlxalq miqyasda tanınması və təmin olunması istiqamətində fəaliyyətimizi daha da genişləndirməkdə qərarlıyıq. Son zamanlar bir sıra xarici qüvvələrin parlament müstəvisində və digər formatlarda Azərbaycanın Qarabağ bölgəsindən könüllü köçüb getmiş ermənilərin qayıdışı məsələsindən ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışdıqlarını da tez-tez müşahidə edirik. Bizim fikrimizcə, Qərbi Azərbaycana qayıdış məsələsi üzrə fəaliyyət özlüyündə haqq-ədalət məsələsi olmaqla yanaşı, bu cür qeyri-sağlam cəhdlərin qarşısını almaq üçün də vacib əhəmiyyət kəsb edir”.

**Nicat Novruzoğlu**

*Rüstəm Hacıyev*



# Trampın sülh planı ilə bağlı təklifləri...

***Amerikan parlamentinin The Hill qəzeti bu günlərdə, Trampın Ukrayna və Rusiya üzrə xüsusi elçisi Kit Kelloqun planını dərc edib.Trampın gələcək məsləhətçisi, münaqişənin həlli ilə bağlı ideyalarını ”Ən əsası Amerikadır” institutu üçün hazırladığı məqaləsində qeyd edib.***

***KELLOQ UKRAYNA MÜHARİBƏSİNİ NECƏ DAYANDIRMAQ İSTƏYİR?***

***Ağ Evin gələcək rəsmi nümayəndəsi, hazlrki prezident Co Baydenin ”Nə qədər lazımdırsa, o qədər Kiyevə kömək edəcəyik” yanaşmasını tənqid edərək, bu münasibətin yalnlz Ukrayna-Rusiya münaqişəsinin uzanmasına xidmət etdiyini bildirir. Kelloq, Vaşinqtinona regionda öz maraqlarını qorumaq baxımlndan Trampın tutduğu mövqeylə hərəkət etməyi məsləhət görür. Trampın tutduğu yeni siyasi mövqeyinə görə, ilk növbədə amerikan xalqının maraqları nəzərə alınmaqla, ABŞ-ın hərbi münaqişələrə xərclədiyi vəsait minimum həddə endirilməlidir, əsas diqqət daxili problemlərin həllinə yönəlməlidir.***



***Xüsusi elçi Rusiya və Ukraynanı danışıqlar masasına dəvət etmək üçün, ilk növbədə hər iki tərəfə şərtlərini açıqlayacaq. Bu şərtlərə, Rusiya tərəfinin işğal etdiyi Ukrayna ərazilərdən çıxarılması daxil deyil. Kelloqa, təklif edir ki, əgər Ukrayna RF-sı ilə danışıqlardan imtina edərsə, onda Kiyevə hərbi yardım göstərilməsi dayandırılsın. Bununla yanaşı o, bildirir ki, onsuzda Moskvanın işğal etdiyi əraziləri öz yurikdisiyasına salması Beynəlxalq səviyyədə tanınmayacaq.***

***Trampın xüsusi elçisi, Rusiyaya edəcəyi təkliflərdən biri də, antirusiya sanksiyalarının yumşaldılması və tədricən ABŞ -Rusiya münasibətlərinin normallaşdırılmasıdır. Normal atmosferin yaradılmasl üçün, edilən təkliflərdən biri də, Qərbin prezident Vladimir Putunə qarşı sərt mövqe tutmasına və onu təqib etməsinə son qoyulmasından ibarətdır. Kelloqa əmindir ki, bu danışıqlar prossesinə kömək edə bilər.***

***Kelloqanın Moskvanı da, danışıqlar masasına oturmağa məcbur etmək üçün planları var. Bunlardan biri, Rusiyanın xaricə satdığlı enerji daşıyıcılarından əldə etdiyi gəlirlərə yeni sanksiyalar tədbiq olumaqla, bir hissəsinin Ukraynanın bərpasına yönəldiləcəyi ilə bağlı təhdidlərdir.***

***SÜLH PLANINDA NATO-nun ROLU NƏDƏN İBARƏT OLMALIDIR?***

***Trampın xüsusi elçisinin fikirincə, Putini sülh danışıqlarına inandırmaq üçün, ”Ukraynanın NATO-ya qəbul olunması məsələsi, üzv dövlət liderlərinin liderlərinin də razılığı ilə uzun müddətə dayandırılmalıdır”.***

***UKRAYNA VƏ RUSİYA TƏKLİFLƏRƏ CİDDİ YANAŞMIRLAR***

***Daha əvvəldə qeyd etmişdik ki, ABŞ-ın yeni seçilmiş prezidentinin təklif edəcəyi sülh proqramını münaqişə tərəflərini qane etməyəcək. Ukrayna bu təklifləri qəbul etsə, ərazilərinin böyük hissəsini itirməklə faktiki olaraq məğlub duruma düşəcək. Moskva isə, əslində qalib görünsə də, yenə də bu planla razılaşmayaraq daha çoxunu - işğal etdikləri ərazilərin beynəlxalq hüquqla Rusiya ərsziləri kimi tanınmasını, Ukraynanın ümumiyyətlə NATO-dan imtuna etməsini istəyəcək.***

***Görünən odur ki, münaqişə tərəfləri hələ ki, Trampın sülh təkliflərini ciddiyə almırlar, yumşaq desək soyuq münasibət göstərirlər. Ukrayna prezidenti Volodimir Zelenski, Bayden administrasiyasının son 650 milyon dollarlıq hərbi dəstək verəcəyi vədlərindən ”qaza gələrək” müharibəni sona qədər davam etdirəcəyini bəyan edir.***

***Rusiya tərəfi isə, hələlik ictimai palatanın komitə sədri Vladimir Poqovun sözləri ilə reaksiya verir. Komitə sədri, xüsusi elçi, general Kelloqaya ”ciddi hərbiçi kimi” Vyetnam müharibəsini xatırladıb və Rusiya-Ukrayna münaqişəsinə də, o vaxtkı taktika ilə yanaşmağı məsləhət görüb.***

***Beləliklə, general Kelloqanın sülh planının danışıqlara başlanması üçün kifayət etməyəcəyi aydın görünür. Daha əvvəllər də dediyimiz kimi, Tramp administrasiyası sülh danışıqlarına başlanması üçün ”B” planı hazırlamalı və hətta ”C”, ”D” planları hazırlamaq üzərundə də işlər aparmalıdır.***

# MEDİA jurnalistlər üçün yeni təlimlərə başladı

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə media nümayəndələri üçün ”Storytelling”: müasir publisistikanın yeni narrativləri və aktual trendləri” mövzusunda təlimlərə başlanılıb.**



Adalet.az xəbər verir ki, təlimçi qismində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini, əməkdar jurnalist, yazıçı Natiq Məmmədli bildirib ki, ”storytelling” çağdaş jurnalistikada insanların düşüncələrinə təsir göstərən, ideyanın müasir formada ifadəsini təmin edən yeni metodlardan biridir və bu yanaşma jurnalistin yaradıcı şəxsiyyət kimi fərdi üslubunu formalaşdırmaqla müasir publisistikanın önəmli elementi sayılır. O, ənənəvi yazı tərzi ilə yeni məzmunun ifadə olunmasının, publisistik üslubun hipermətnə çevrilməsinin və köşə yazarlığının cəlbediciliyinin artırılmasının jurnalistikanın çağırışlarından olduğunu vurğulayıb.

Diqqətə çatdırılıb ki, ”storytelling”in beynəlxalq standartlarını və müasir narratologiya nəzəriyyələrini mənimsəmək fikrin anlaşılan olması və ictimai təsir gücünün effektivliyi baxımından böyük əhəmiyyət daşıyır.

**3-4 dekabr tarixlərini əhatə edən təlimlər iki fərqli qrup üçün dörd sessiyadan: ”Publisistik üslubun xüsusiyyətləri: Bədii publisistikanın janrları”, ”Storytelling”: mediada istifadə formaları, ənənəvi və yeni yazı üsulları”, ”Narrativ nəzəriyyəsi: prinsipləri və istiqamətləri (mühazirə və simulyasiya)”, ”Vörkşop: nəzəri biliklərin möhkəmləndirilməsi”ndən ibarətdir.**

# Vüqar Bayramov: “Artımlar bütün növ əmək pensiyalarını əhatə edəcək”

**”Pensiya islahatlarının genişləndirilməsi və pensiya maliyyə təminatının dayanıqlığının gücləndirilməsi sosial siyasətin əsas hədəflərindədir”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən plenar iclasında deputat Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, son illər əmək pensiyaların ödənilməsinə fond vasitəsi ilə ayrılan vəsaitlərin həcminin dinamik artımı sosial sahədə dayanıqlı və inkluziv təminat sisteminin möhkəmləndiyindən xəbər verir:

”Əmək pensiyaları üçün ödənişlər 2021-ci ildə 4 milyard 880 milyon manat idisə, 2022-ci ildə 4 milyard 951 milyon manat, 2023-cü ildə 6 milyard 77 milyon manat, 2024-cü ildə 6 milyard 525 milyon manat və nəhayət, 2025-ci ildə 7 milyard 408 milyon manat proqnozlaşdırılır.

Göründüyü kimi, 2021-ci il ilə müqayisədə pensiyaların verilməsinə illik olaraq 2 milyard 528 milyon manat daha çox vəsait ayırılıb”.

Digər məqamın əmək pensiyalarının 2025-ci ildə indeksləşdirilərək artırılması ilə əlaqədar olduğunu deyən deputat vurğulayıb ki, bu məsələ ilə bağlı sosial mediada da bəzi istifadəçilər tərəfindən spekulyativ yanaşmalar var:

”Əvvəlla, bütün növ əmək pensiyaları 2024-cü ildə nominal orta aylıq əmək haqqındakı artım faizinə indeksləşdirilərək artırılır. Yəni, bu il ölkə üzrə orta aylıq əmək haqqı neçə faiz artacaqsa ona uyğun gələn il əmək pensiyalar artırılacaq. Bu, bütün növ əmək pensiyalarını əhatə edəcək- yaşa görə, valdeyinlərini itirməyə görə və əlilliyə görə əmək pensiyalarını alanlar”.

V.Bayramov nəzərə çatdırıb ki, indeksiya faizini hansısa qurum müəyyənləşdirmir və bu rəsmi statistikaya uyğun olaraq orta aylıq əmək haqqındakı artım faizinə uyğunlaşmadır. Bu birmənalı şəkildə pensiyaçıların sosial təminatının daha da yaxşılaşdırılmasına yönəlik siyasətdir.



”Nəticədə, indeksləşdirmə imkan verir ki, hər il pensiya məbləğləri orta aylıq əmək haqqı artımına uyğunlaşdırıb artırmaq mümkün olsun. Vahid indeksləşdirmə mexanizminə keçid isə bütün əmək pensiyalarının indeksləşdirilməsinə imkan yaradır”.

Bildirib ki, əmək pensiyaçılarının sayını nəzərə alsaq indeksləşdirmə nəticəsində 1 milyon 100 min vətəndaşımızın gələn ildən pensiya məbləğlərində artım qeydə alınacaq:

”Son 5 ilə nəzərə salsaq nominal orta aylıq əmək haqqındakı artım faizin həmin müddət üzrə orta iflyasiya səviyyəsini üstələyib. Deməli, əmək haqqı artımına bağlılıq vətəndaşlarımızın pensiya məbləğinin daha çox artmasına imkan yaradır. Digər tərəfdən, DSMF-in büdcəsi əsasən məcburi sosial sığorta yığımları hesabına formalaşır. Sosial sığorta yığımları həcmi isə ölkə üzrə ümumi əmək haqqı fondunun məbləğinə bağlı dəyişir. Yəni, bu o deməkdir ki, əmək haqqı fondu nə qədər çox artırsa sosial ayırmalar o qədər artır. Bu həmçinin o deməkdir ki, əmək pensiyalarının indeksləşdirilməsinin orta aylıq əmək haqqındakı artıma indeksləşdirilməsi bir tərəfdən vətəndaşlarımız üçün daha çox pensiya artımı demək olmaqla yanaşı, həmçinin DSMF-in dayanıqlığının qorunub saxlanmasına imkan yaradır. Yəni, fond əmək haqqı fondundakı artımlar hesabına əldə edilən yığımlar hesabına pensiyaları indeksləşdirərək fiskal dayanıqlığını qoruyub saxlayır”.

**Nicat**

# Evinin çıxarışı olmayanlara şad xəbər

**Azərbaycanda fərdi yaşayış evlərinin çıxarışının olmaması bir çox sakinləri narahat edir. Bu məsələdə əsas problem torpağın təyinatından düzgün istifadə olunmamasıdır.**

Adalet.az xəbər verir ki, BAKU.WS-in məlumatına görə, qanunvericiliyə görə Azərbaycan Respublikasının torpaq fondu yeddi kateqoriyaya bölünür. Bunlardan yalnız birindi - yaşayış məntəqələri torpaqlarında fərdi evlərin tikilməsinə icazə var.

Lakin müxtəlif səbəblərdən vətəndaşlar digər təyinatlı torpaqlarda - kənd təsərrüfatı, meşə, sənayə və digər təyinatlı torpaqlarda evlər tikiblər. Həmin ərazilərdə inşa olunan fərdi yaşayış evləri məhz bu səbəbdən sənədləşdirilə bilmir. Eyi zamanda Xəzər dənizinin mühafizə zolağı, yüksək təzyiqli qaz xətləri və dəmir yollarının ərazilərində də həyət evlərinin tikilməsi halları baş verib. Bu evlərin də sənədləşdirilməsi vətəndaşlar üçün



problemə çevrilib.

Digər tərəfdən qanunsuz əldə olunan torpaqlarda inşa edilən evləri də göstərmək olar. Heç bir hüquqi sənədi olmadan şifahi razılaşma ilə əldə olunan torpaqlarda inşa edilmiş bu evlərin də sənədləşdirilməsi açıq problem olaraq qalır.

”Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri” publik hüquqi şəxsin İdarə Heyətinin sədr müavini Elşad Məmmədov mövzu ilə bağlı bildirib ki, hazırda sənədsiz evlərlə bağlı dövlət xidmətində müəyyən işlər gedir və normativ tənzimləmə işləri görülür:

**”Həyat və sağlamlıq üçün təhlükəli olmayan, vətəndaşların müvafiq icazələr almaqdan yayınaraq əksər inşa etdikləri evlərin müəyyən prosedurlardan keçərək sənədləşdirilməsi istiqamətində iş aparılır və bununla bağlı normativ sənəd hazırlanır. Ədliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və digər qurumlarla birgə işçi qrup yaradılıb. İşlər artıq tamamlanmaq üzrədir və qarşıdakı il vətəndaşlar daha dəqiq məlumatlar alacaqlar”.**

*Aqil ABBAS*

# CIRIQ TUMANA YAMAQ OLMAYAN BMT

*Bilmirəm 78 il, ya 79 il bizim eradan əvvəl dünyanın dövlətləri yığışıb bir təşkilat yaradıblar: Birləşmiş Millətlər Təşkilatı. Ağlım kəsəndən bu Təşkilatın nəyəsə yaradığını nə görmüşəm, nə də oxumuşam. 200-ə yaxın dövləti birləşdirən bu Təşkilat bir qəpiyə dəyməz, amma hər il dövlətlər bu təşkilata, o cümlədən biz də, milyonlarla dollar pul ödəyir, üzvlük haqqı kimi. İçində də beş üzvü olan Təhlükəsizlik Komitəsi yaradıblar ki, əsas söz sahibi də bunlardı. Bunların da bir-biriylə arası yoxdu. Nə qərar çıxırsa mütləq biri veto qoyur və qərar da gedir cəhənnəmin dibinə.*

*Sayın Ərdoğan deyir:*

*- Dünya beşdən böyükdür.*

*Amma dünyada baş verən hadisələrə baxanda görürük ki, dünya beşdən böyük deyil. Və bu beş böyük dövlət digər dövlətləri barmaqlarına sarıyıblar. Və məcbur edirlər ki, özlərindən başqa həmin dövlətlər onların çaldığı havaya oynasınlar.*





*Ağzı pendir kəsməyən bu Təşkilat 32 il bundan qabaq məlum bir qərar çıxartdılar ki, Ermənistan Silahlı Qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından qeydsiz-şərtsiz çıxarılmalıdır. Allahın üç milyonluq erməni dövləti bu təşkilatın, özü də Təhlükəsizlik Şurasıdı, Komitəsidi, üzvlərinin, səs verdiyi qərara burunlarını silib atdılar. Sonra da bu böyük beşliyin üç dövləti - ABŞ, Rusiya və Fransa ATƏT-in Minsk qrupunu yaratdılar, bu qrup da 30 ilə yaxın bir müddətdə başımızın altına yastıq qoydu. Axırda məcbur olub bu mənasız təşkilatın çıxartdığı mənalı qərarı özümüz 44 günə həyata keçirməyə məcbur olduq.*

*Bütün dünya qan içindədi. İraqı dağıtdılar, prezidentini də tutub asdılar. Liviyanı parçaladılar, prezidentini də biabırcasına küçədə öldürdülər. Suriyanı dağıtdılar. Qəzza dörd il bundan qabaqkı Ağdamın gününə salınıb. Afrikada xalqlar din ayrılığına görə bir-birini qırır. Ukrayna dağılır, Gürcüstan vətəndaş müharibəsi ərəfəsindədi. Belə misalları çox çəkə bilərəm. Elə isə bu təşkilat kimə və nəyə lazımdı?*

*Mən də indiyədək qəzetdə bu Təşkilatın adını Birləşmiş Millətlər Çayxanası yazıram.*

*70-80-ci illərdə Qala divarlarına bitişik bir məşhur çayxana vardı - Rəfaelin çayxanası. Sovet hökumətinin siyasətini bəyənməyən şairlər, yazıçılar, bir sözlə, ziyalılar yığışırdılar o çayxanaya, saatlarla hökumətin səhv siyasətini müzakirə edirdilər. Sonra da hərə dağılışıb gedirdi evinə.*

*O çayxananın heç olmazsa bir xeyiri oldu - Sovet hökuməti dağıldı, o çayxanaya yığışan ziyalılar Azərbaycanın müstəqilliyi uğrunda mübarizə apardılar və istəklərinə də nail oldular.*

*Amma Birləşmiş Millətlər Çayxanası Rəfaelin çayxanası qədər də yoxdu. Yığışıb boş-boş bəyanatlar verməklə məşğuldurlar. O bəyanatlar da mənim bu köşə yazım kimi bir qəpiyə dəyməz.*

*Biz tələbə olanda belə bir anekdot vardı. Dövlət imtahanıdı, bir tələbə də müəllimə pul verib ki, ona qiymət yazmaqda köməklik eləsin. Müəllim də komissiya üzvlərindən xahiş edir ki, filan tələbəyə asan suallar verin. Biletinə düşən suallara cavab verməyən tələbəni vəziyyətdən çıxarmaq üçün komissiyanın sədri soruşur:*

*- BMT-nin Baş katibi kimdir?*

*O zaman da BMT-nin Baş katibi U Tan idi. Tələbə susur, pul alan müəllim kömək etmək istəyir. Yavaş səslə deyir:*

*- U Tan! U Tan!*

*Tələbə də qayıdıb deyir:*

*- Mən niyə utanım, pulu sən almısan, sən utan.*

*İndi Birləşmiş Millətlər Çayxanasının Baş katibi, adını da deyə bilmirəm, qorxuram düz deməyəm, biədəb söz alınar, gör heç utanmır?!*

*Hətta o günə qalıb ki, İsrail onu persona non-qrant elan edib, yəni İsrailə gəlməyə qadağa qoyub.*



Səxavət Məmməd

# Böyük müharibə qaçılmazdır...

*İsraillə Livan arasındakı sülhün əldə olunması müsbət bir addım kimi görünsə də, düşünürəm ki, bu müharibələri səngitməyəcək. Əksinə, dünya bir müharibə hazırlığının içərisindədir.*

*Bəzən dövlətlər sülhdən danışır, pozitiv mesajlar yayımlayır. Ancaq dövlətlərin öz xalqlarına müharibəyə hazırlaşması barədə subliminal mesajlar verir. Son zamanlar, xüsusilə Qərb ölkələrində hərbi texnikaların, silah-sursatların açıq şəkildə bir yerdə başqa yerə daşınması müşahidə olunur. İllər əvvəl də bu hallar yaşanırdı, ancaq bu tip daşımalar zamanı texnikaların, silahların üstünə çadırlar çəkərək həyat keçirilirdi. Düşünmürəm ki, Qərb ölkələrində çadır çatışmazlığı var. Sadəcə olaraq bunun açıq şəkildə nümayiş etdirilməsi əhalini hazırlamaqları ilə bağlıdır.*

*Azərbaycanda dövlət qurumları əhaliyə ən çox xəbərdarlığı hərbi karvanların çəkilib sosial şəbəkələrdə paylaşılmaması ilə bağlı idi. Ancaq bunun heç bir əhəmiyyəti olmurdu.*

*Xəbərdarlıqlara baxmayaraq, yenə bu baş verirdi. İndi də avropalılar əlində telefon bunları çəkib paylaşmaqla məşğuldur. İnsanlara nə qədər xəbərdarlıq edirsən, et, hərbi texnikalara, onların çoxlu sayda bir yerdən başqa yerə daşınmasına maraq olub, olacaq da. Dövlətlər dildə sülh deyə bilər, ancaq subliminal mesaj olaraq, xalqa başqa şey verir. Bu, hazırlıq mərhələsinin ilkin variantıdır. Hesab edirəm ki, bir müddət sonra fərqli halların da şahidi olacağıq.*

*Ona görə də Rusiya-Ukrayna müharibəsinin, Yaxın Şərqdəki müharibənin son olacağını düşünmürəm. Misal üçün, Livanla İsrail arasında sülh əldə olunur, paralel isə Suriyada proseslər yenidən alovlanır. Artıq Suriyada hökumət qüvvələri ilə müxalif qüvvələr arasında ciddi toqquşmalara start verilib. Məsələ ondadır ki, yeri əhalini də bu prosesə cəlb edə biliblər. Son günlər Türkiyə və Rusiyanın Suriyadakı patrul xidmətləri yerli əhali tərəfindən daşa basılır. Bəlkə də bu əvvəl də var idi, ancaq son günlər bu proses media qurumlarının səhifələrini bəzəməyə başlayıb. Yəni müharibə lazımdırsa, yer qəhət deyil.*

*Ona görə də düşünmürəm ki, bütün müharibə ocaqları qaynar saxlanıldığı bir vaxtda Cənubi Qafqazda sülh müqaviləsi asan olsun. Hətta sülh müqaviləsi imzalansa belə, bunun daimi olacağına kimsə qarantiya verə bilməz.*

*Azərbaycan və Ermənistan hər nə qədər sülh barəsində pozitiv mesajlar versələr də, hər iki tərəfin hərbi gücünü artırdığını görə bilirik. Ermənistan tərəfi açıq şəkildə aldığı silahları nümayiş etdirir, Azərbaycan tərəfi də həmçinin.*

*Bundan əlavə, sülh müqaviləsi barədə danışılsa da, rəsmi olaraq da hərbi gücün artırılması yönündə həm bəyanatlar verilir, həm də fəaliyyət göstərilir. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev parlamentdəki çıxışı zamanı dövlətin qarşısında duran bir nömrəli hədəfin hərbi gücün artırılması olduğunu açıq şəkildə bəyan etdi. İlham Əliyevin bu çıxışı zərurətdən irəli gəlirdi. Çünki dünyada baş verən proseslər, region dövlətlərinə diktə edir ki, istəsən də, istəməsən də müharibəyə hazır olmalısan.*

*Ümumiyyətlə, böyük dövlətlərin belə iqtisadiyyatlarını müharibə iqtisadiyyatına çevirdiyinin şahidi oluruq. Hətta iddialar var ki, Rusiya Ukraynada müharibə aparaapara böyük bir müharibəyə hazırlığın içərisindədir. Ukraynaya silah və sursatın azalan templə verilməsi də buna işarədir.*

*Çünki Qərb ölkələri məcburdur ki, sursat anbarlarına əl gəzdirsinlər.*

*Cənubi Qafqazın katalizator dövləti də Ermənistandır. Ermənistan istər Rusiya, istər İran, istərsə də Qərb üçün həmişə istifadəyə hazır dövlətdir. Ermənistanın yanında olan ölkələr kimi ABŞ və Fransa daha çox gözə batır. Ancaq Almaniya, Yunanıstanı da gözdən kənara qoya bilmərik.*

*Polşa rəsmilərinin şərti sərhədə gəlməsi isə prosesin daha mürəkkəb olduğunu göstərir. Yeri gəlmişkən, Ermənistan ordusunun məhz Kərki istiqamətinə silah-sursat daşıması Ermənistan mediasında və sosial şəbəkələrdə yayılmağa başlayıb. Proseslər bir-birinin ardınca gəlir.*

*Polşa o qədər böyük dövlət, qlobal güc deyil ki, Cənubi Qafqazda hansısa maraqları olsun, yaxud diktə edə bilsin. Polşaya NATO gözü ilə baxdıqda, məsələ aydın ola bilir.*

*Müvəqqəti sülhləri, atəşkəsləri çox görəcəyik, ancaq böyük müharibə qaçılmazdır*

# Aqil Abbas: "Təki evimizə-eşiyimizə qayıdaq və orada adam balası kimi yaşayaq"



**"Ağdam 60 minlik şəhər idi, indi orda 100 minlik şəhər tikilir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında deputat Aqil Abbas deyib.

"Bizim qarşımızda çıxış edən nazirlər nə Norveçin, nə də Almaniyanın idi. Onlar böyük müharibədən çıxmış və hələ də müharibə təhlükəsiz qurtarmamış bir ölkənin nazirləri idi. Yəni dövlət büdcəsi üçün böyük əziyyət çəkiblər. Hamı dedi ki, kəndimizdə qaz yoxdur, su, yol, məktəb yoxdur. Bunu cari məsələyə çevirdilər. Bir müddət qazsız, susuz, məktəbsiz qala bilərik, əsas odur ki, müharibədən çıxmışıq, bilirik neçəyə başa gəlir.

İndi Qarabağ tikilir. Mən oradakı şəhərlərə İlham Əliyevin şəhərləri deyirəm. Ağdam 60 minlik şəhər idi, indi orda 100 minlik şəhər tikilir. 100 minlik şəhərə neçəyə başa gələcək Allah bilir. Ermənilər Qarabağa 800 milyard dollar ziyan vurub və onu qısa müddətdə həll etmək mümkün deyil. Xahiş edirəm növbəti müzakirəni cari məsələyə çevirməsinlər. Qaz da, su da olacaq. Qohum-əqrəbam deyir ki, mənim də kəndimdə qaz yoxdur. Görüşəndə deyirəm ki, 30 ildir qazsız yaşamısız, Ağdamın, Füzulinin, Kəlbəcərin xətrinə dözün də, qardaşlar. Təki evimizə-eşiyimizə qayıda və orada adam balası kimi yaşayaq", deyə deputat bildirib.

"Siz yaxşı dediniz ki, Qarabağ torpağında böyük şəhərlər, kəndlər tikilir. Həmin torpaqlar da qarabağlılara verilir", - deyə spiker Sahibə Qafarova vurğulayıb.

**Nicat**

## Türkiyədən daha bir Suriya açıqlaması

**Hələb bölgəsində müxalif qrupların başlatdığı fəaliyyətlər və bununla bağlı hadisələr Suriyanın ərazi bütövlüyü əsas götürülərək terrorla mübarizəyə verdiyimiz əhəmiyyət və prioritet çərçivəsində yaxından izlənilir.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin sözçüsü Zəki Aktürk deyib. "Bölgədə sabitliyin qorunması üçün qoşunlarımız tərəfindən bütün lazımi tədbirlər görülür. Prosesin əvvəlindən regiondakı həmkarlarımızla sıx əməkdaşlıq və koordinasiya davam edir", - Z.Aktürk bildirib.



Elxan Şükürlü

# Qüdsü xilas edən yeganə yol...

*Suriya! Suriya! Suriya! İslam tarixində ən böyük fitnələrdən birinin baş verdiyi və "Quran" ayələrinin nizələrə taxıldığı məşhur "Siffeyn savaşı" məhz indiki Suriya torpaqlarında yaşanmışdı...*

*Qədim rəvayət və hədislərdə İslam ümməti üçün ən böyük və ən son fitnənin də məhz indiki Suriya torpaqlarında çıxacağı, Zühurun və Qüdsün işğaldan azad edilməsi prosesinin isə bundan sonra baş verəcəyi vəd olunur...*



*Hazırda Suriya ərazisində yaşananlar bütün əlamətləriylə o böyük və son fitnə dövrünə qədəm qoyduğumuzu göstərir!*

*Hər kəs - dost da, düşmən də "İslamçı" libasındadır və "Allahu-əkbər" hayqırır!*

*Siffeyndə "Quran" ayələrini nizələrə taxaraq, ümməti parçlayanların nəvələri eynilə indi də cihadçı qruplaşmaların bayraqlarına bürünüblər!*

*İslam düşmənlərinin əsas məqsədi son illər sürətlə yaxınlaşan Türkiyə və İranı - Qəzza sınağından qismən üzüağ çıxa bilmiş bu iki müsəlman dövlətini Suriyada yenidən baş-başa gətirmək, toqquşdurmaq və beləcə, sünni-şiə ziddiyyətini körükləməklə İslam vəhdətinin qarşısını almağa, Qüds uğrunda mübarizəni zəiflətməyə və İsraili xilas etməyə nail olmaqdır!*

*Qərb də, İsrail də çox yaxşı bilir ki, Türkiyə və İranın Suriyada əməkdaşlığı İslamda vəhdətə aparan və Qüdsü xilas edən yeganə yoldur!*

*Ən böyük fitnənin fitilinin çəkildiyi və körükləndiyi belə bir zamanda daha təmkinli və ehtiyatlı davranmalı, sosial şəbəkələr üzərindən dartıldığımız məzhəb qarşıdurmasından yayınmağı, təfriqəçi informasiyaların tələsinə düşməməyi bacarmalıyıq, qardaşlar! Çünki budəfəki fitnə atəşinin yalnız Suriya və İraqı deyil, bütün İslam coğrafiyasını əhatə etməsi planlaşdırılır!*

*Allah İslam ümmətinin təəssübünü çəkən, vəhdət üçün çalışan həqiqi möminləri qorusun və bu imtahandan da üzüağ çıxarsın!*

# SOS:Qarabağdan oğurlanmış qədim sənət nümunələri "bərpa" adı ilə erməniləşdirilir

**Erməniərin işğal zamanı Qarabağdan Azərbaycana məxsus qədim incəsənət nümunələrini oğuradığı heç kimə gizli deyil. Albanlara və qədim türklərə məxsus bu nümunələr İrəvanda Mesrop Maştots adına Qədim Əlyazmalar Elmi-Tədqiqat İnstitutunda saxlanılır.**

Adalet.az xəbər verir ki, Ermənitandakı ABŞ səfirinin Mədəni Dəyərlərin Mühafizəsi Fondunun dəstəyi ilə Matenadaranda saxlanılan Dağlıq Qarabağda yaradılmış yazılı irsin bərpası və ictimailəşdirilməsinə yönəlmiş proqramın təqdimatı olub.

Tədbirdə Ermənistanın təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan, ABŞ-ın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Kristina Quinn, diplomatik missiyaların və beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət xadimləri iştirak ediblər.



Erməni meiasının yazdığından məlum olur ki, layihə çərçivəsində XIII-XVII əsrlərdə Qandzasar, Dadivank, əcədə, Qndevank, Xadavank, Gtçavank və digər orta əsr monastırlarında yazılmış və təsvir edilmiş əlyazmalar və nadir arxiv sənədləri seçilərək " erməni mədəni irsi"nə və "tarixi boşluqlara işıq salır".

Səfir Kristina Quinn də iştirakçıları salamlayaraq qeyd etdi: "Bu üçillik proqram çərçivəsində zəngin tarixi və mədəni dəyərləri ilə tanınan Dağlıq Qarabağın qədim erməni monastırlarında XIII əsrə aid əlyazma yazılarının qorunmasına 74 min dollar ayrılır.

Bu, ABŞ səfirinin Mədəni Dəyərlərin Qorunması Fondunun 15-ci proqramıdır və biz bu proqram vasitəsilə Ermənistanın unikal mədəni irsinin qorunub saxlanmasını dəstəkləyirik. Yaxın vaxtlarda yeni proqramların icrasını gözləyirik".

Xatırladaq ki, 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğal edilməsindən sonra Xudavəng monastır kompleksi dünyaya erməni abidəsi kimi təqdim olunub. Lakin buradakı kitabələrdə qeyd olunan Arzu xatun, Tursun, Seyti, Hasan, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz kimi adlar abidəni ucaldanların etnik mənsubiyyətinin - türklüyünün dəqiq göstəricilərindən biri sayılır. Qədim Alban sivilizasiyasının ən gözəl sübutlardan olan Dadivəng, yaxud Xutavəng kompleksi Arzu xatun kilsəsindən, Həsən kilsəsindən, Bazilika və 2 ibadətgahdan ibarətdir. Kafedral statusu daşıyan Arzu xatun kilsəsini 1214-cü ildə Yuxarı Xaçın knyazı Vaxtanqın həyat yoldaşı tikdirib. Azərbaycanın əzəli torpaqlarını - Qarabağı işğaldan azad etməsi ilə ermənilər də öz mənfur fəliyyətlərini həyata keçirdilər.

Belə ki, noyabrın 25-dək Kəlbəcəri təhvil verməli olan ermənilər buradakı evləri və meşəni yandırmaqla yanaşı, tarixi abidələrə də ziyan vurdular. Xudavəng monastrı da bu vandallığın qurbanıdır.

Monastırın zəngləri, xaç daşları və digər qiymətli əşyaları sökülür və qeyri-qanuni olaraq Ermənistana aparılıb.

**Qeyd edək ki, bu il Ermənistandakı ABŞ səfirliyinin Mədəni Dəyərlərin Qorunması üzrə fondu tərəfindən Ermənistandakı qədim abidələrin təmiri üçün 175.000 ABŞ dolları ayrılıb.**

**Əntiqə Rəşid**

# TARIN MƏCNUNU

## (Gözəl pedaqoq və tarzən Rövşən Zamanovun xatirəsinə)

**Biz qəribə camaatıq. Xüsusilə, sənətə, sənətkara münasibətdə paradoksal bir xalqıq. Skripka nə qədər iltalyanlara məxsusdursa, tar da bizə məxsusdur. Stradivaridən ( onun möcüzəvi skripkaları!) tutmuş Paqaniniyə, Cüzeppe Verdiyə... qədər dahiyanə bir skripka dövrü yaşanıb. Bizdə isə dahi Üzeyir bəyin hətta operaya əsas, aparıcı musiqi aləti kimi gətirdiyi tara, Mikayıl Müşfiqin şeirlərində qürurla və heyrətlə vəsf etdiyi tara, bir zamanlar ” Oxuma tar! ” deyənlər də tapılırdı.**

... Bu nadir, qeyri-adi, sərvət kimi incimizi hətta elektrogitara adlı sintetik musiqi alətinin ayağına da verdilər. Sanki, texniki yeniliklə böyük bir Şərq fəlsəfəsini üstələmək istəyən diletantlar başa düşmədilər ki əsl gitara adlı musiqi aləti bu deyil!

... Əsl gitara İqlesiasın möcüzələr yaratdığı gitaradı və digər başqaları da eləcə ...Heç olmasa şair, aktyor, müğənni Vısotskini xatırlayaq!

Burada elə gözəl, elə səmimi, elə intellekt bir insan və ifaçıdan , pedaqoqdan söhbət gedir ki, bu söylədiklərimdən yan keçmək olmur. Eləcə sənətini, bu dünyada ən yaxın sirdaşını, sevincini və kədərini bölüşdüyü dostunu, sona qədər öpüb oxşadığı TARın fədaisindən!.. Həm də bu sevgili tarla uzun illərə hesablanmış , fəqət qəfil qırılan , qeyb olan nakam sevgisindən!

Nə yaxşı ki, bu yarımmöcüzə musiqi alətimizi o sintetik alətin ayağına verən uğursuzlarla yanaşı, böyük ustadlarımız da bütün varlığı ilə tarın ecazkarlığını qoruyan, onu layiq olduğu zirvələrə ucaldan və əbədi birinciliyini təsdiq etməyi bacaran şərəfli sənətkarlarımız öz böyük xidmətlərini göstərdilər və göstərirlər.

Bir keçmişə dönüb Baba Salahovu, Həbib Bayramovu, dahi Əhsən Dadaşovu, qeyri-adi ifaçılıq məharətli Abdulla Qurbanini, ağayana Fikrət Verdiyevi və başqalarını xa-



tırlayaq. Virtuoz Ramiz Quliyevi düşünək! Vamiq Məmmədəliyevi və eləcə mərhum Rövşənin yaxın dostu, böyük sənətkar və böyük insan Möhlət Müslümovu!

Üç-dörd yaş fərqimiz olsa da mən Rövşəni hələ ilk gənclik illərindən tanıdım və sevdim. İşıqlı, sənətinin vurğunu, səliqəli geyim-keçimindən tutmuş, səmimiliyinə və dürüstlüyünə qədər çoxlarından yaxşı mənada fərqli gördüm, nümunəvi gördüm Rövşəni. Onun tara da münasibəti eləcə idi...

Təəssüf! Biz artıq onun haqqında keçmiş zamanda danışırıq. Bunca həyatsevər, bunca ustad tarzən, bunca gözəl bir insan, dost, göyçaylı... ailəsinə, balalarına və tarına sevdalı olmaq!!! O bir Vətən kimi, o bir sevgili kimi, o bir aşiq kimi tarın əbədi ovsunundа onun qol-budağına , simlərinə, pərdələrinə, səsinə qovuşub yaşayırdı!

Elə onun tarı da belə bir dostuyarı ilə necə xoşbəxt idi...

Rövşəni itirəndən təkcə onun ailəsi, bacı və qardaşları, məşhur ”İvan nəsli” , övladları, dostları yetim qalmadı ki!

Onun sevgili tarı da sanki simlərini, pərdələrini saç kimi qırıb -yolaraq tənhalığını,yetimliyini, onu əzizləyən sevgili əlləri, barmaqları bir daha duya bilməyəcəyindən yanıbyaxılaraq son dəfə dəlicəsinə üsyan etdi.

Rövşən onu tək buraxıb getdiyinə görə, bu vaxtsız ölümü ilə sanki ona xəyanət etdiyinə görə...

***P.S.** Mən Rövşəni bir tədbir sonunda sevgili tarını sanki başqaları görməsin deyə xəlvəti öpərək futlyara qoyanda yaman diksinmişdim.İçimdən qərib, anlaşılmaz bir gizilti keçmişdi.*

***Heç demə... vidalaşırmış!***

**Məzahir ƏHMƏDOĞLU**

# Erməni saxtakarlığına "soyqırım" deyən ABŞ-ın qanlı əməlləri: Send-Krik Qətliamı-160

**Bəzən dünyadakı yeni kəşflərin bəşəriyyətə xeyrindən çox ziyanı dəyir. Belə kəşflərdən biri də Şimali Amerikanın tapılmasıdır. İl 1492-ci il. Məşhur səyyah Xristofor Kolumb həmin il Amerikanı kəşf etdi. Bundan təqribən 100 il sonra Kolumbun kəşf etdiyi ”Yeni Dünya”ya Avropa axın etməyə başlandı.**

İşğalın, soyqırımın hər növündən istifadə emiş ”təcrübəli” avropalılar vərdişlərini və fürsətlərini fövtə vermədilər.

Başladılar okeanın o tayındakı ucsuz-bucaqsız torpaqları sürətlə işğal etməyə.

İşğal nəticəsində yüzlərlə hindu tayfaları - daha dəqiq yerli amerikalılar əsrlərlə yaşadıqları ərazilərdən qovuldu, tarixi torpaqlarından, meşələrindən, otlaqlarından, göllərindən, dədə-baba məskənlərindən məhrum oldular. Amma toplu-tüfəngli düşmənə qarşı mətinliklə döyüşürdülər, yay-oxla, qılıncla, ağac parçası ilə!

Adalet.az xəbər verir ki, avropalıların Amerika qitəsində təşkil etdiyi ən böyük qətliamlarından birindən 160 i ötür. Tarixə Send-Krik Qətliamı kimi düşən o faciə 1864-cü ilin bu günü baş tutdu.

Mənbələr o məşum hadisənin baş tutması ilə bağlı araşdırmalarında yazırlar ki, Avropadan gəlmiş ağdərililərin hakimiyyət orqanları 1858-ci ildə Kolorado dağlarında qızıl tapdıqdan sonra daha aqressiv mövqe sərgiləməyə başlayır. Qızıl axtaranlar hindulara məxsus qızıl yataqlarına axın edir. Belə bir axın hinduları qəzəbləndirir, ora gələnlərlə aralarında qarşıdurmalar yaradırdı.

Yerli qəbilələrin başçıları o dövrdəki ABŞ rəsmiləri ilə yeni bir müqavilə imzalaladı və bu müqavilə nəticəsində hindular öz ərazilərinin əksərindən məhrum odular. Yəni, hinduların ərazisi təxminən 13 dəfədən çox azaldıldı. Ağların nəzarəti altında yaşamayacaqlarını deyən hindularla ABŞın ağ dərili hakimiyyəti arasında qarşıdurmalar davam etdi.

Xüsusən, on qəbilədən ibarət şayenər bu haqsızlıqla barışmırdılar. Bu ABŞ hökümətinin əsəbləşdirirdi. Beləliklə, 1864-cü ildə Amerika qoşunları müharibə elan etmədən şayenlərin bütün yaşayış məntəqələrini dağıtmağa başladı.

Nəticədə məntəqələrin 10%-ni məhv etdilər. Leytenant Corc S. Ayranın rəhbəri olduğu bölmələr şayenlərin Kanzasdakı Smoki Hill çayı sahilindəki yay ov düşərgəsinə yaxınlaşdılar.

Hindu qəbilə başçıları sülh danışıqları aparmaq üçün gəlsələrdə, öldürüldülər. Bu hadisə, Kanzasdakı şayenlərin qisas müharibəsinə səbəb oldu.

1864-cü ildə Amerika qoşunları müharibə elan etmədən şayenlərin bütün yaşayış məntəqələrini dağıtmağa başladı. Nəticədə məntəqələrin 10%-ni məhv etdilər]. Leytenant Corc S.

Ayranın rəhbəri olduğu bölmələr şayenlərin Kanzasdakı Smoki Hill çayı sahilindəki yay ov düşərgəsinə yaxınlaşdılar. Hindu qəbilə başçıları Arıq Ayı və Ulduz sülh danışıqları aparmaq üçün gəlsələrdə, ancaq öldürüldülər. Bu hadisə, Kanzasdakı şayenlərin qisas müharibəsinə səbəb oldu.

Noyabrın 28-də Koloradonun 1-ci və 3-cü süvari alaylarının 700 ən çox döyüşçür polkovnik Çevinqtonun rəhbərliyi ilə dinc hinduların düşərgəsinə yaxınlaşdılar.

Noyabrın 29-na keçən gecə əsgərlər və könüllülər əvvəlcədən qələbələrini qeyd edərək içki məslisi qurdular. 1864-cü il noyabrın 29-u səhəri Çevinqton əsgərlərinə düşərgəyə hücum etməyi əmr etdi. Bu məqamda maraqlı bir nüansı diqqətinizə çatdırıram: Deməli, ABŞ hökümətinin düşmən olduğunu anlayan amma buna inanmayan qəbilələrin bir çoxu düşərgəyə ABŞ bayraqları sancmışdılar.Ancaq əsgərlər ilk atəşi onlara açır.

Bəli, öldürülən ilk insanlar amerikalılarla barışıq imzalamış şayen qəbilə başçısıları olur.

Yenə də mənbələrdə deyilir ki, Çevinqtonun əsgərləri çox vəhşilik törətdilər. Onlar öldürülmüş kişilərin başının dərisini soyub, qadınların döşlərini kəsdirdilər. Cəsədlər tanınmaz hala salınmışdı. Heç bir müqavimət göstərməyən qadınlar və uşaqlar öldürülür, yaralılar sağ qoyulmurdu. Qətliamı araşdıran Konqres komissiyasının sənədlərində







deyilir: Hinduların cəsədlərini gördüm, hissələrə bölünmüşdülər; təsəvvür etmək mümkün deyil çox sarsıdıcıdı; tanınmaz halda kiçik parçalara kəsilmiş qadınlar ... bıçaqlarla; baş dərisi, açıq kəllə sümüyü; iki aylıq körpələr... körpələrdən tutmuş döyüşçülərə qədər hər yaşda insanlar var idi...

Və bu vəhşiliyi kim etmişdir? əlbəttəki, ABŞ ordusu...

Barmaqlar və qulaqlar bəzək əşyaları ilə birlikdə bədənlərdən kəsilmişdi.

Kanyonun dibində qəlan aəbilə başçısı Ağ Antilopun cəsədinə xüsusi ”diqqət” yetirilmişdi. Əsgərlər onun baş dərisini soymaqdan əlavə, onun burnunu, qulaqlarını və yanaqlarını çanta düzəltmək üçün kəsmişdilər..

Hətta gedərkən də əsgərlər düşərgədə tapılan yaralıları qətlə yetirməyə davam edir, hind çadırlarını talan edir və atları qaçırırdılar. Qətliamdan sonra Çevinqtonun əsgərləri parçalanmış cəsədlərin, o cümlədən qurbanların cinsiyyət orqanlarını və hətta insan embrionlarını trofey şəklində götürürdülər. Onlar öz ”qənimətlər”ini Denver sakinlərinə göstərir, kişi və qadın cinsiyyət orqanlarını yalnız yəhərlərdən asmır, həm də şlyapalarını da ”bəzəyirdilər”( Bütün işğalçı imperatorların ən əsas dəsti xətti həmişə beə olubred-Ə.R.)

Çevinqton 500-600 hindu döyüşçüsünün öldürüldüyünü iddia edirdi.

Tarixçi Alan Brinkli 133 hindunun qətlə yetirildiyini, onlardan 105 nəfərinin qadın və uşaq olduğunu yazırdı. Tarixə Sand-Krik qırğını adı ilə düşən bu dəhşətli qətliam 1865-ci ilin qışında sona çatsa da, sonrakı illərdə də davam etdi. Bələki, 1870 - ii ilin yanvarında Marias çayında qırğın, Beyker qətliamı kimi yadda qalan soyqırımlar başladı. Bu soyqrımlarda 217 qəbilə üzvü öldü.

Qeyd edək ki, Avropadan gələn ağdərililərin yerli əhali olan qızıldərililərə qarşı ən böyük soyqırımı qızıldərililərin yaşadığı ərazilərdə yaydıqları yoluxucu xəstəliklərlə olmuşdu.

Avropalılarla ilk təmasdan sonra hindilərin 90-95%-i yoluxucu xəstəliklər nəticəsində ölmüşdü. Səbəb çox əhşətli idi... Texasdakı Hindi Soyqırımı Muzeyində qorunan sənədə görə su çiçəyi infeksiyasının bulaşdığı yorğanlar Lenape hindilərinə Texas-Hindi müharibələri ərəfəsində texaslı əsgərlər tərəfindən verilmişdi. 1520-1770-ci ilər arasında Su çiçəyinə bölgədəki bütün qəbilələr yoluxmuş, çox az hindi sağ qalmışdı.

1636-1698-ci illərdə Bostonda altı yoluxma hadisəsi qeydə alındı. 1721-ci ildəki yoluxma isə ən ağırı idi. Bu yoluxma zamanı şəhərdəki bütün əhali qaçmış və xəstəliyi on üç koloniyanın yoluxulmamış hissələrinə yaymışdılar.

ABŞ İstiqlaliyyət müharibəsi ərzində - 1770-ci illərin sonunda su çiçəyi yoluxması yenidən başlamış və 125000 insan ölmüşdü. Pir Kalm ”Şimali Amerika səyahəti” adlı əsərində hindi kəndlərinin cəsədlərlə dolu olduğunu və bu cəsədlərlə hələ sağ olan zəifləmiş hindilər üçün canavarların bayram etdiyini yazıbdı.

1832-ci ildə ABŞ federal hökuməti hindilər üçün su çiçəyi peyvəndi proqramı başlatdı. 1702-1703-cü illərdə indiki Kanada ərazisində yerləşən Kvebek şəhərinin əhalisinin dörddə biri su çiçəyi yoluxmasından öldü.

***P.S.** Bu da dünyaya demokratiya paylayan ”nümunəvi demokrat ölkə” kimi tanınan ABŞ...*

**Əntiqə Rəşid**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Bizim qağamız...

**İndi dünyada ağrımayan adam yoxdu. Çünki dünyanın mizan-tərəzisi pozulub. Böyük ölkələr atmosferi, ekologiyanı nüvə silahlarını sınaqdan keçirməklə elə yaman günə qoyublar ki, udduğumuz hava, içdiyimiz su, yediyimiz qidalar zəhər-zəhrimardı.**

**Belə də olanda insanlar çox asanlıqla müxtəlif xəstəliklərə düçar olurlar. 20-30 il bundan əvvəl indiki kimi xəstələr çox deyildi. Əvvəllər bizim kənddə bir-iki ürək, bir-iki də şəkər xəstəsi var idi. Amma bu gün kəndimizdə ürək və şəkər xəstələrinin sayı-hesabı yoxdu. Çoxlu adamın ya ürəyində açıq əməliyyat aparılıb, ya da stend qoyulub. Nə isə...**

**Bir aya yaxındır ki, təzyiqdən və ürək ağrısından əziyyət çəkirəm. Heç çox vaxt işə gedə də bilmirəm. 50 illik dostum və qardaşım Aqil Abbas məni yola verir. Allah balalarını və nəvələrini qorusun! Həkimə isə getmirəm və ağrılara birtəhər dözürəm. Bəzi adamlar əli yanında ağzına təpdiyi kimi, Əbülfət Mədətoğlu və mən çətin anlarımızda, təzyiqimiz kəllə-çarxa qalxanda dostumuz və qardaşımız, bütün kasıblara, kimsəsizlərə əl tutan, arxa duran, qorxma deyən kardioloq, tibb elmləri namizədi, oxşarı və bənzəri olmayan Rafiq Yusiflini axtarırıq.**



**Sözün düzü, mən Rafiq həkimdən başqa digər kardioloqa bir o qədər də inanmıram. Mobil nömrəsini yığdım o dəqiqə cavab verdi: "Qağa, Qalaaltındayam. Bir həftə burda dincələcəm. Bakıya gələn kimi görüşərik. Özün nə təhər sən, Əbülfət nə təhərdi" - dedi. "Biz də yaxşıyıq, Əbülfət müəllim də pis deyil. Amma məni bir az ürəyim narahat eləyir". Yenidən həkimin səsini eşitdim, "dediyim dərmanları qəbul elə, heç bir qorxusu yoxdu, mən də tezliklə gələrəm, görüşərik" - deyib telefonu bağladı...**

**Bir neçə gündən sonra Rafiq həkimlə görüşdük. Və aramızda səmimi söhbətlər oldu. Və bu söhbətlər bizi 70-ci illərə apardı. Füzuli Mərkəzi Xəstəxanasında partkom olduğu dövrdən, orda kardiologiya şöbəsinin açılması tarixindən danışdı. Dedi ki, səhiyyə naziri Füzuliyə gəlmişdi və mən də həmin yığıncaqda çıxış etdim. Nazir dedi ki, bu gənc həkimin çıxışı çox xoşuma gəldi, amma bizdən bir şey istəmədi. Payon Partiya Komitəsinin birinci katibi Əhməd Əhmədzadə dedi ki, həkim mənə lazım olanı deyib. Onlar istəyir ki, mərkəzi xəstəxanada kardiologiya şöbəsi açılsın.**

**Heç bir həftə keçmədi ki, nazir həmin şöbənin açılması ilə bağlı əmr imzaladı. Həmin illəri xatırladıqca Rafiq həkim kövrəlirdi. Çünki onun bir çox həkim dostları rəhmətə gedib. Rayon səhiyyə şöbəsinin müxtəlif dövlərdə müdirləri olmuş baş həkimlər, İsayevi, Qaraşovu, Behbudovu bir daha yada saldı və gözləri doldu.**

**Salyandan olan məşhur kardio-cərrah Fikrət İsmayıl oğlu Zərgərlini də xatırladı. Dedi ki, mən Fikrət müəllim kimi savadlı, yüksək mədəniyyət sahibi təmiz və gözütox insana çox az rast gəlmişəm.**

**Elə bu günlər Salyanda keçirilən tədbirdə həmin gözəl insan bir daha xatırlandı və mən də öz xatirələrimi danışdım.**

**O böyük insanla bir dəfə Füzulidə görüşmüşdüm və yaddaşımda silinməz izlər qoymuşdu. Düşünmüşdüm ki, belə ziyalı həkimlər insanlığın ən yüksək zirvəsidir...**

**Şirin söhbətlər bizə itirdiyimiz dostlara qədər apardı. Uzun illər prokurorluq orqanında islamiş, Yasamal və Səbail payonlarının prokuroru olmuş, hüquq elmləri doktoru Şirxan Adıgözəlovu xatırladıq. Rafiq həkim dedi ki, Şirxan kimi oğullar az-az olur və onu yerini heç kim əvəz edə bilmir. El-oba üçün çox qənimət adam idi, yeri Cənnət olsun!**

**Onunla söhbətimin hamısını yazsam gərək qəzetin bir nömrəsini zəbt edəm.**

**Ona görə də bütün dostlara ürəyinin işığını verən, kasıba-kusuba arxa duran, bir sözlə, bizə qağalıq eləyən Rafiq həkimə can sağlığı arzulayıram. Ki, onun canı sağ olsa, bizim də canımız ağrımaz...**

## Piyadalar diqqətli olmalıdır



**Bir neçə gündür ki, ölkəmizdə hava şəraiti qeyri-sabit keçir. Məmləkətimizə intensiv yağışlar yağır, hətta bəzi dağətəyi rayonlar qar düşüb. Adındır ki, belə hava şəraitində nəqliyyat vasitələrini idarə etmək bir qədər də çətinləşir.**

Düzdür, hava durumu ilə bağlı hidirometeoroloqlar öncədən hərəkət iştirakçılarnı məlumatlandırır. Bununla yanaşı, yol polisi də belə qeyri-sabit hava ilə bağlı sürücülərə və piyadalara öz tövsiyəsin verir.Sürücülər deyilənlərə az- çox əməl edir, düzdür, əməl etməyənlər də var. Ancaq piyadalarla müqayisədə onlar toya getməlidir.Yağışlı havada yollar sürüşkən olur, xüsusilə gecə saatlarında yağan yağış yolun yaxşı işıqlandırılmasına imkan vermir.

Daha doğrusu, yaş asfalt işığı " udur". Piyada da təyin olunmayan yerdən keçəndə sürücü onu görmür və yolu keçən adamı vurur.Bizim piyadalarsa, ən çox qara geyimdən istifadə edirlər. Belə geyim isə gecə saatlarında, yağışlı havada sürücüyə yolu yaxşı görməyə imkan vermir. Ona görə də qarlı, yağışlı havada piyadalar daha diqqətli olmalı, piyada zolaqlarından,yerüstü keçidlərdən istifadə etməlidirlər. Bu , yolu təhlükəsiz keçməyin ən yaxşı seçimidir. Hər iki tərəf-sürücülər və piyadalar qaydalara əməl etsə, piyadavurma hadisələri də çox olmaz!

## Bir qəzada...



**Respublikamızın avtomobil yollarında hər gün qəzalar baş verir.**

Bu zaman ölən və xəsarət alanlar olur. Təbii ki, qəzaların qarşısını almaq üçün Baş Dövlət Yol Polisi İdarəsi qabaqcıl tədbirlər görür. Amma buna baxmayaraq, yenə yol-nəqliyyat hadisələri qaçılmaz olur. Deməli, yol polisi ilə yanaşı sürücülər də öz üzərlərinə düşən vəzifələri yerinə yetirməlidirlər. Əgər bu vəzifələr yerinə yetirilsə, hər gün ağır qəzalar baş verməz! Tovuz rayonu ərazisinə iki maşın toqquşması nəticəsində olan qəza isə daha ağırdır. Bu, yol-nəqliyyat hadisəsi zamanı altı nəfər dünyasını dəyişib və onların beşi hərbiçidir. Qarşı- qarşıya gələn avtomobillər toqquşaraq bax, belə faciəli hadisə yaranıb. Bu, bir daha hər bir sürücüyə və hərəkət iştirakçısına dərs olmalıdır. Dərs olmalıdır ki, ötəmə əməliyyatını yerinə yetirərkən qarşıdan avtomobil gəlmədiyinə əmin olmalı, bu prosesi bir neçə saniyədə icra etməlisən. Əks- təqdirdə belə faciəli hadisələr qaçılmaz olur. Ona görə də sürücülər diqqətli olmalı, özlərinin və digər hərəkət iştirakçılarının həyatını təhlükə qarşısında qoymamalıdır!

## Hansı yağ təmizdir?



**Bu gün Bakıda market və mağazalarda müxtəlif adda kərə yağlar satılır.**

Qiyməti altı manatdan otuz manata qədir kərə yağlar var. Adam vitrinə baxır, gözləri qamaşır və bilmir ki, hansı yağdan alsın . Ukraynada, Rusiyada, Almaniyada, Fransada, Türkiyədə, Yeni Zelandiyada istehsal olunmuş yağlar. Xüsusilə də Yeni Zelandiyanın" Ankor" yağı daha dadlı və ləzzətlidir. Amma hansını alırsan görürsən ki, yox, əvvəlki dadıtamı vermir. O günü qonşum həmin yağı alıb, əridib, qapqara çıxıb! Bir başqa qohumum da səhər-səhər maqazadan aldığı kərə yağı yeyərkən qəribə tamı olduğunu deyir. Və deyir ki, o yağı yeyə bilmədim! Bəs onda Qida Təhlükəsizliyi Agentliyi nəyə nəzarət edir və hara baxır? Ölkənin bazarlarını və marketlərini saxta yağlar ağzına götürüb, ancaq bunun qarşısın alan yoxdu! Hətta camaat deyir ki, o yağlar xaricdən gətirilmir, saxta yolla Bakıda istehsal edilir və ona görə də belə keyfiyyətsizdir. Əlbəttə, od olmasa, tüstü çıxmaz! Amma bu , fikirlə razılaşmırıq.Görünən odur ki, kərə yağı adı altında marketlərdə satılan yağlar bir o qədər də keyfiyyətli deyil. Hər halda , qanunsuzluqlar varsa, onun qarşısı adiyyatı qurumlar tərəfindən vaxtında alınmalıdır ki, sonradan istelakçılar problem yaşamasınlar!

## Zirzəmiyə kanalizasiya suyu axır...

**Qəzalar həmişə olub, bu gün də var və sabah da olacaq. Amma əsas məsələ odur ki, o qəzaların qarşısı vaxtında alınsın.Belə qəzalardan biri də kanalzasiya sularının zirzəmilərə axmasıdır.**



Aydındır ki, çirkab suların zirzəmiyə axması orada həm üfunət yaradır, həm də binanın möhkəmliyini zəiflədir. Bakının Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin " D" massivindəki 13 nömrəli binanın zirzəmisi də belə bərbad gündədir.Neçə illərdir ki, kanalizasiya xəttindəki zədələnmə nəticəsində həmin binanın zirzəmisinə çirkab su axır. Mənzil Tikinti Kooperativin sədri bu barədə adiyyatı quruma məlumat versə də ya onlar gəlmir, ya da gec gəlirlər. Və gələndə də əsaslı təmir əvəzinə , başdangetdi işlər görür, bir neçə gündən onların təmir etdiyi xəttdən yenidən zirzəmiyə çirkab su axır. Zirzəmidə o qədər su yığılıb ki, üfunət uzaqdan hiss edilir.

MTK- sədri Fərman Kazımov məlum quruma müraciət etməkdən artıq təngə gəlib. Bu dəfə isə İdarə Heyətinin üzvü Hafiz müəllim yenə həmin quruma üz tutub, əməkdaşlar gəliblər, su axan yerə əl gəzdiriblər" hər şey düzələttik"- deyib. Və onlar gedəndən bir neçə saat sonra həmin yerdən zirzəmiyə su axıb. Binalara istiliyin verilməsi ilə əlaqədar olaraq , zirzəmiyə çirkab sular dolduğuna görə, " Azəristiliktəchizatın" əməkdaşları zirzəmiyə girib təmir işləri apara bilmir.

Noyabrın 29- da qazanxana çilingəri zirzəmi kanalizasiya suyu ilə dolu olduğuna görə ora girə bilmədi. Suraxanı rayon Su Kanal idarəsinin əməkdaşlarının məsuliyyətsizliyinə görə, çirkab sular günü bu gün , bu saatda 13 nömrəli binanın zirzəmisinə axır! Sabah o binada çökmə baş versə, bəs bunun məsuliyyətini kim boynuna alacaq???

## Ukrayna dairəsində tıxac...



**Bakıda elə gün olmur ki, səhər və axşam saatlarında tıxac olmasın.**

Artıq sürücülər və hərəkət iştirakçıları belə vəziyyətə öyrəşiblər. Təbii ki, paytaxtımızda tez - tez belə yaranan tıxaclar sürücülərin əsəblərinin posulmasına, ziyana düşməsinə, eləcə də vaxt itkisinə səbəb olur. Dünən isə " Ukrayna dairəsində" yaranmış tıxac insanların əsəblərin tarıma çəkilməsinə səbəb olur.

Tıxacda qalan sürücülər deyir ki, uzun müddət belə hərəkətsiz vəziyyətdə qalmağımız bizi bu dəfə daha çox əsəbləşdirdi.Aydındır ki, adını çəkdiyimiz ünvanda tıxaclar həmişə olur, amma dünənki kimi uzun vaxt aparan tıxac olmamışdı. Deyilənlərə görə, həmin dairənin yaxınlığında təmir işləri aparılır. Ona görə də tıxac uzun çəkib.

Adiyyatı qurumdan bildirilir ki, aparılan təmir işləri bir neçə günə başa çatacaq və bundan sonra bütün işlər yoluna qoyulacaq və bir daha belə tıxac olmayacaq. Hələ görünür təmir işləri tamamlana kimi, yenə tıxac olacaq! Ona görə də sürücülər səbrli olmalı və lazımi tövsiyələrə əməl etməlidir.

## Hər həkimə inanmayın



**Azərbaycanda savadlı və vicdanlı həkimlər kifayət qədərdir. Amma savadsız , dələduz həkimlər də az deyil. Və belə həkimlər bəzən televiziya kanallarında reklam da olunurlar. Ona görə də çalışıb belə həkimlərin toruna düşməməliyik. Amma onların toruna düşənlər var. Salyan rayonunda zəhmətkeş bir oğlan tanımadığı bir həkimin yanına gedib, o da onu özəl klinikalardan birində analiz verdirib və analizin nəticəsindən sonra deyib ki, sən xərçəng xəstəliyinə tutulmusan.**

Həkim ona resept yazıb , pasiyent də gedib bahalı dərmanlar alıb. Nə başınızı ağrıdaq, dələduz həkim bu kasıb adamın on bir min manatın əlindən alaraq mənimsəyib. Sonradan oğlan dövlət xəstəxanasında müayinə olunub və analiz verib. Məlum olub ki,o, xərçəng xəstəsi deyil. Özəl klinikadan da bildirirlər ki, bizdə elə həkim işləməyib, sadəcə olaraq həkim xəstənin tanışı olub və onu evində müalicə edib. İndi səhv diaqnoz qoyulmuş pasiyent həkimdən ona vurulmuş maddi və mənəvi zərərin ödənilməsini tələb edir. Bütün bu məsələlər isə məhkəm müstəvisində həll edilməlidir və deyilənlər hüquqi təsdiqini tapsa, həkim dələduzluq maddəsilə cinayət məsuliyyətinə cəlb edilməlidir!



EMİL FAİQOĞLU

# "Erməni dilinə pərəstiş edən Corc Bayron" yalanlarının "şərəf günü": Saxtakarlığın əsli

**2 dekabr ermənilər üçün az qala ”şərəf günü” kimi qeyd edilir.**

Hər xırda detaldan saxta və gülünc ” möhtəşəm erməni tarixi” yaratmağı genetik olaraq özünə hobbi edən ermənilər bu tarixi də xəyal ürünlərindən ibarət ”gerçeklik” kimi fəxrlə qeyd edirlər.

Deməli, bir ingilis romantik şairi var. İki əsr bundan öncə olduğu kimi bu gün də ingilis şairi Corc Qordon Bayronun yaradıcılığı, əsərlərinin dili və poetikası, ədəbiyyatda bayronizm ictimai əhvali-ruhiyyəsi dünya ədəbiyyatşünaslığının və dilçiliyinin diqqət mərkəzində qalır. 1788-ci ildə anadan olub, 1798-ci ildə babasının qardaşından 10 yaşlı Bayrona miras kimi lord titulu və Nottingemşir qraflığındakı Nyusted malikanəsi verilir. Cəmi 36 il yaşayıb, yəni 1824-cü ildə ölüb. Adının qarşısında Lord olması da onu Lordlar palatasının üzvü edir.

Professor Ramazan Siracoğlu araşdırmalarında yazır ki, ?Corc Bayron (1788- 1824) türklərə qarşı vuruşub türk qanı axıtmaq üçün könüllü olaraq yunanlar tərəfdən savaşa qatılmışdı.

Ermənilər uzun illərdir iddia edirlər ki, həmin bu lord 1816 - cı ildə erməni dilini öyrənmək və erməni ədəbiyyatı ilə tanış olmaq üçün Venesiyaya gəlib .

Yeri gəlmişkən, 2019-cu ildə Avstraliyanın məşhur jurnalı Venesiyanın məşhur Müqəddəs Lazar adası haqqında məqalə dərc edib .

Məqalədə bu kəndə xüsusi məhəbbət bəsləyən məşhur ingilis yazıçısı Corc Bayrondan bəhs edilir. Ermənilər bu faktdan da öz xeyirlərinə istifadə etməzlərmi? Erməni mediası həmin məqalədən dərhal sonra yazır ki, C.Bayron məhz burda -Venesiyadakı Müqəddəs Lazar adasının Mxitaryan erməni icması ilə əlaqələr qurur:”Bayron erməni dilini öyrənməyə başlayır və onun erməni müəllimi Harutyun Avgeryan da bunu xatırlayır”. Hətta guya Bayron 1816-cı ildə yazırmış ki, mən bacardığım qədər mənimsədiyim erməni dilini öyrənməyə başlamışam və öyrənməyə də davam edirəm:” Hər gün bir erməni monastırına gedirəm ki, alim bir rahibdən dərs alıram və bu barədə artıq unikal və faydalı məlumatlar əldə etmişəm. o şərq xalqının ədəbiyyatı və adət-ənənələri. Onların burada bir qurumu var: kilsə və doxsan rahibdən ibarət bir yığıncaq. Onların bəziləri çox alim və savadlı insanlardır. Onların həm də mətbəəsi var və öz millətlərini maarifləndirmək üçün böyük səylər göstərirlər”.

Ermənilərin havadan-sudan tarix quraşdıran araşdırmaçıları yazır: Bayron erməni xalqının faciəli tarixindən təsirlənmişdi, lakin erməni mədəniyyətinə və Mxitaryan yığıncağının elmi atalarına, xüsusən də Paskal adlandırdığı müəllimi Harutyun Aveqeryana heyran idi. Onlar birlikdə ingiliscə-ermənicə, erməni-ingiliscə qrammatik dərsliklər və ingilis-erməni lüğəti (”İngilis və erməni dillərində qrammatika” (1817), ”Ermənistan və ingiliscə qrammatika” (1819), ”İngilis və erməni dillərində lüğət” hazırlayıb nəşr etdirdilər. (1821)). Bundan əlavə, Bayron erməni biblioqrafiyasından bəzi tərcümələr etmişdir. İngilis-erməni qrammatikası dərsliyi şairin maliyyə dəstəyi ilə nəşr olunub. Əlaqələri ilə o, kitabın yayılması və satışına da kömək edir”.

Daha sonra erməni mediası yazır: ”Erməni-ingilis kitabı üçün isə Bayron Harutyun Avgeryanın xahişi ilə ön söz yazır və burada xüsusi olaraq deyir:” Bu insanlar varlı və nəcib bir xalqın, yəhudilər və yunanlar kimi sürgün edilmiş və əsarətə salınmış, birincinin özünü təcrid etmədən, ikincinin köləliyi olmayan bir xalqın dindar insanlarıdır.

Bu xalq zülm etmədən varlandı və müzakirəsiz qulluqda şərəfləndi. Amma onun yeri çoxdandır ki, son vaxtlar saysız-hesabsız məskənlərini çoxaldan ”əsir evi”dir. Fəzilətləri pasifizmin, pislikləri isə zülmün nəticəsi olan ermənilərdən daha nüfuzdan salan cinayətlərdən azad bir xalqın salnaməsini bəlkə də tapmaq çətin olardı. Amma onların taleyi nə olursa olsun, acı olub, gələcəkdə nə olursa olsun, onların ölkələri şübhəsiz ki, dünyanın ən maraqlı ölkələrindən biri olaraq qalacaq və bəlkə də dilləri daha cəlbedici olmaq üçün daha dərindən öyrənilməyi tələb edir. Güvəniriksə s. Kitaba görə, cənnət Ermənistanda idi, Ermənistan öz torpağının keçici münasibətinə görə onun tozundan yaranmış bir insanın xoşbəxtliyi üçün Adəm nəsilləri kimi baha qiymətə ödəmişdir. Məhz Ermənistanda sel öz yerini verməyə başladı və göyərçin endi. Amma o məmləkətin fəlakəti bitəndə cənnət hələ yox olmamışdı, çünki uzun müddət qüdrətli bir səltənət olmasına baxmayaraq, demək olar ki, müstəqil olmayıb, fars satrapları və türk paşaları da eyni şəkildə Allahın yaratdığı torpağı çeviriblər. insan öz surətində səhraya.




Lakin siyasi mülahizələrə görə şairi incidən və Mxitaryan yığıncağı ilə əməkdaşlığı dayandıran bu ön söz nəşr olunmadı. Kitabın çapı üçün vəd olunan pulu da vermir”.

Deməli, ermənilər quraşdırdıqları yalana elə inanırlar ki, başqalarını da inandırmağa məcbur edirlər . Deyirlər ki, əslən erməni olduğu deyiilən,(amma Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, ATU-nun İnsan anatomiyası kafedrasının müdiri Vaqif Şadlinski araşdırmasında milliyyətcə türk kimi qeyd edilən) məşhur rəssam İvan Ayvazovski Corc Bayronun Müqəddəs Lazara səfərləri mövzusuna da toxunub.

1899-cu ildə böyük dəniz rəssamı özünün məşhur ” Bayronun Müqəddəs Lazar adasında Mxitariyalılara səfəri ” adlı tablosunu yaradır , o, hazırda Ermənistanın Milli Qalereyasında saxlanılır.

Amma məşhur tarixçi, erməni əsilli tədqiqatçı Filip Ekozyans Lord Corc Bayronun ”erməni” uydurmasını 2021-ci ildə açıqlaması ilə darmadağın etdi. Ekozyans yaydığı videosüjetdə dünya şöhrətli britaniyalı lordun ”erməni dili” qrammatikasının müəllifi olmadığı, həmçinin bu dili normal öyrənə bilmədiyi barədə sübutlar və foto-faktlar gətirib.

”Ermənilərə öyrədiblər ki, guya həmin lord ”qədim erməni mədəniyyəti”nin vurğunu olub və guya erməni dilini mükəmməl öyrənərək, hətta bunların qrammatikalarının müəllifi də olubmuş. Qeyd edək ki, Bayron haqqında Vikipediyada da bu saxta məlumat yer aldıb.

Əslində o, cəmi 3 ay erməni dilini öyrənməyə cəhd edib və həmin vaxtlar yazdığı məktublarda bu işin onda heç də yaxşı alınmadığını qeyd edib.

Bayronun Tomas Mura yazdığı məktubdan (5 dekabr 1816-cı il):

”Mən erməni dilini əyləncə kimi oyrənmək istəyirdim...”

Lord üçün erməni dili çox çətin gəlirdi. Bayronun Con Hobhauza məktubundan (19 dekabr 1816):

”Bu müddət ərzində mən otuz səkkiz ilan-qurbağaya oxşayan erməni hərfindən 30-u ilə tanış oldum və bir hecadan ibarət bir neçə söz öyrəndim”.

İndi əziz erməni qardaşlarım, mənim bir sualıma cavab verin: Bayron erməni dilini bilə, erməni dilini tərcümə edə, erməni qrammatikasının müəllifi ola bilərmi? Mənim üçün cavab aydındır və bu cavab kəsinliklə YOX-dur”, - deyə Ekozyans bildirib.

Hazırda ermənilər ”yüksək elit xalq”, ”ağıllı xalq nağılları” quraşdıraraq dünyanı öz yalanlarına inandırmağa müyəssər olublar. Bu dəqiqələrdə erməni kilsələri Corc Bayronun ruhuna dualar oxuyurlar.

***P.S.** **Amma neynəsələrdə, Google (Qugl) axtarış sistemi erməniləri dünyanın ən alçaq xalqı kimi tanıyıb. sözügedən axtarış sisteminə rus dilində ”camıy podlıy narod v mire” yazdıqda erməni xalqı və Ermənistan barədə məlumat gəlirdi.***

**Əntiqə Aslan**

# Hələbdə ermənininin ölməsi, ABŞ-dakı "erməni ürəyi"ni hərəkətə keçirdi: EXC-nin bəyanatı

**Xəbər verdiyimiz kimi, Suriyada üsyançılar Əsəd rejiminin nəzarətində olan Hələb şəhərini ələ keçirib.Hələbdə nəzarəti tam ələ keçirən müxalif Suriya Milli Ordusu (SMO) ”Azadlıq Şəfəqi” əməliyyatınını davam etdirirlər.**



Hələbdə baş verənbu toqquşmalarda təsadüfən bir erməni də ölüb.

Erməni mediası yazır ki, ixtisasca həkim, 1958-ci il təvəllüdlü Yervand Arslanyan Hələbdən çıxarkən snayper gülləsindən ölüb.

O, Həma xəstəxanasına çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb.

Adalet.az xəbər verir ki, bu məlumatdan hədsiz təsirlənən ”Erməni Xaç Cəmiyyəti” adlandırılan (Ermənilərə Yardım Cəmiyyəti ) bəyanat verib. Bəyanatda bildirilir ki, Hələb ermənilərinə dəstək verməyə hazırıq:” EXC-nin böyük ailəsi adından biz Hələb ermənilərini dəstəkləməyə hazır olduğumuzu bildiririk, bütün erməni ictimaiyyətinin Hələbdəki erməni bacı və qardaşlarımızı dəstəkləmək üçün eyni istəyi nümayiş etdirəcəyinə qəti inanırıq. EXC-nin ürəyi Hələb ermənilərinə çatır”.

Qeyd edək ki, Ermənilərə Yardım Cəmiyyəti , müstəqil xeyriyyə təşkilatıdır. 1910-cu ildən fəaliyyət göstərir. Qərargahı ABŞ-dadır. Fransa , Yunanıstan , İraq , Misir , Bolqarıstan , İran , Rumıniya , Suriya , Livan filialları təşkilatın Amerika mərkəzi ətrafında birləşib . Təşkilatın vəsaiti ilə erməni məktəbləri, ruhani seminariyalar, səhiyyə ocaqları və s. İkinci Dünya Müharibəsi illərində ( 1939-45 ) filiallar beynəlxalq Qızıl Xaç Cəmiyyəti ilə əməkdaşlıq edirdi. 1946-cı ildə təşkilat Ermənilərə Yardım Cəmiyyəti adlandırıldı. 1960-cı illərdən başlayaraq diasporun sosial-iqtisadi özünütəsdiqi şəraitində Ermənilərə Yardım Cəmiyyətinin əsas vəzifəsi erməni ümumtəhsil və birgünlük məktəblərin yaradılmasıdır.

**1980-ci illərin ortalarında o, müxtəlif ölkələrdə 90-a yaxın erməni orta məktəbinin maliyyələşdirilməsində iştirak edib, 70-dən çox birgünlük məktəbə sponsorluq edib. Ermənilərə Yardım Cəmiyyəti hər il erməni tələbə və şagirdlərə 3000 təqaüd verir. Gerbində ”erməni ürəyinin canlandıran birliyin rəsmi qəzetinin ”Erməni ürəyi” dir . Ermənilərə Yardım Cəmiyyəti 1988-ci ilin dekabrında baş vermiş zəlzələdən zərər çəkmiş Ermənistana yardım göstərir. 1990-cı ildən?Ermənistanın müxtəlif şəhərlərində öz filiallarını təşkil edib .**

**Əntiqə Rəşid**

## *Psixoloq: “İstənilən qadağa emosiyaların kəskin şəkildə “boğulmasıdır”*




**”Uşaqların virtual aləmdə, sosial şəbəkələrdə ünsiyyətdə olması artıq bu günün vacib tələblərindən biridir. İnternet qlobal informasiya məkanıdır. Burada yaxşı elmi, sosial, psixoloji məlumatlar, eyni zamanda maraqlı, öz üzərində işləyən, elmi inkişaf etmiş insanlar da var. Həmçinin, dəyərlərə, həyat fəlsəfəsinə görə, sosial münasibətlərdə ziddiyyət yaradan və bunları müxtəlif yollarla təbliğ edən insan və qruplar da var. Bizim bir yetkin nəsil olaraq bunları nəzərə almağınız vacibdir”.**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan ”Sağlam radio”da psixoloq Elnarə Baxışlı açıqlayıb.

Onun sözlərinə görə, ilk olaraq internetdə həm özümüzün, həm də ailə üzvlərimizin qorunması üçün maarifləndirməliyik: ”İnterneti bir tərəfi virtual aləm olsa da, onun arxasında real insanlar və qruplar durur”.

Psixoıoq qeyd edib ki, valideyn övladının zövq və maraqlarına hörmətlə və səbrlə yanaşması məqsədəuyğundur: ”İstənilən qadağa emosiyaların kəskin şəkildə ”boğulmasıdır”. Bu da onların psixoloji inkişafına təsir edə bilər. Virtual asılılıq daha çox vaxtın düzgün təşkili və zövqlü olmaması ilə bağlıdır. Daha məqsədəuyğun olar ki, uşaqları telefon və ya kompüter tələb etməyən əyləncəli oyunlara cəlb etmək”.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Sevgi əslində bütövləşməkdir

**Hərdən öz-özümə düşünürəm. Görəsən insanın, lap elə mənim özümün var olmağım, həyatda hansısa bir yeri tutmağım başqalarına nə verir. Onlara hansı təsir göstərir və yaxud onları sıxıb incitmir ki?**

İlk baxışda bu çox pessimist, hətta adamın içini ağrıdan, əhvalını pozan suallardı. Amma hər bir sualın mütləq mənada cavabı olmalıdı və təbii ki, var. Ona görə də heç vax sualdan qaçmıram, bilmədiyimi öyrənməyə çalışıram, bildiyimi cavablandırıram. Bax, bu qaydada dilimə, içimə gələn sualların da cavabını tapmağa çalışıram. Təbii ki, mən o sualları daşa, divara, ağaca, göyə, yerə vermirəm, ünvanlamıram. Həmin suallar gördüyüm, tanıdığım, sevdiyim, yəni yanımda və ürəyimdə olan adamlara ünvanlanır. Amma etiraf edim ki, hərdən sualı ünvanladığım adamlar da susurlar, ya da etinasızlıq göstərirlər və yaxud özlərini eşitməməzliyə vururlar. Bir sözlə, sual elə içimdə, dilimdə sual olaraq da qalır. Mən də bir az tərs, israrlı adamam. İstəyimə çatmaq üçün inad göstərirəm. Ona görə də hərdən ağına, bozuna baxmadan və yaxud da bu sualın cavabının acı olacağını düşünmədən gedirəm o adamların üstünə, döyürəm qapılarını, zəng vururam telefonlarına. Məqsədim də sualıma cavab almaqdı. Ən çox da səni rahatsız edirəm. Səni o sualların cavablarını mənə deməyə inandırmaq, razı salmaq istəyimdən əl çəkmirəm. Sən isə

Bəli, sən də susursan. Üz cizgilərindən, baxışlarından bilirəm ki, o suallar və onun cavabları sənin mənə demək istəmədiklərindi. Amma nə olsun ki, onsuz da bir gün özün də bilmədən, özün də hiss etmədən hansısa bir məqama, hansısa bir hadisəyə, olaya, reallığa münasibət bildirəndə o cavablar da gəlib keçəcək mövzunun içindən. Bax, mən onda yerimi də, yaşam haqqımı da bir Allah bəndəsi olaraq sənin dəyərində görəcəm, sənin sözündə tapacam. İnan buna. Mən ümidsiz adam deyiləm, heç inamsız da, inancsız da deyiləm. Bax, ona görə də həmin o suallara gedən yolda, yəni bu baş sındırdığım anda içimdən gəlib keçən bir istəyi misralamışam. Və yazmışam ki:

*Hər çöhrədə nur, işıq var,*
*Görə bilsən, görə bilsən.*
*Hər işığa bir aşiq var -*
*Görə bilsən, görə bilsən.*

*Əkiz taydı daş və divar,*
*Həmnaxışdı, su və cuvar.*
*Kirpikləri bir-bir suvar -*
*Görə bilsən, görə bilsən.*

*Pərvanəsi o dərdin, mən,*
*Pöhrənəndi o, dərdim mən!*
*Bu dərdimi o dərdimdən -*
*Görə bilsən, görə bilsən.*

*Qoyma sınam, yaralanam,*
*Bil ki, sənin yar adanam!*
*Eşq dünyası yaradaram -*
*Bir az ümid verə bilsən!*

Hə, gördünmü, yaşamaq üçün, öz yerində olduğunu, dayandığını bilmək üçün mütləq ümid lazımdı. O ümid də Allahdan və səndən gəlib keçir. Yaradan O, çatdıran isə Sənsən. Burada bir asilik, burada bir dinə, Tanrıya qarşı çıxmaq yoxdu. Ona görə ki, mən sevginin Haqdan gəldiyinə, Allah payı olduğuna gün işığı kimi inanıram. Və dəməli, birmənalı olaraq, bütün varlığıma hopan budur ki, duyğular, hisslər, sevgi ilə cilalanandа həyat tamam başqa cür olur.

Söhbət burda təkcə intim aləmdən getmir, kiminləsə qol-qola gəzməkdən, diz-dizə oturmaqdan bəhs olunmur. Söhbət burda iki ürəyin bir sinədə, iki bəndənin bir canda özünü tapmasından, özünü tamamlamasından gedir. Bu cütlük əslində bir böyük TƏKLİKDİR!!! Onları da tək edən sevgidi. Alınan nəfəs, döyünən ürək, görən göz, düşünən ağıl...

Bunlar elə bir vasitədir, elə bir qeyri-adi məcundur ki, cütlüyü sevgi vasitəsilə bütövləşdirir. Onların həyatı da, yaşamı da, demək olar ki, hər anları dünyanın harasında olmağından asılı olmayaraq həmişə güvəndə, həmişə bir bütövlüyün daxilində özünü təqdim edir.

Görən də, anlayan da onları bir-birindən uzaqda təsvir edə bilmir. Bir az sadə dildə desəm, sanki yarı bölünmüş alma sanki insanın özü və kölgəsi sanki güzgüyə baxan adam. Bax, bu cür qoşalaşma, bütövləşmə hakim olur sevgidə hər kəsə - Sevənə!

Mən pafoslu görünən, amma əslində içimdəki sualın (özüm üçün müəyyənləşdirdiyim sualın - Ə.M.) cavabı olan bu fikirlərin arxasında sona qədər duracağıma əminəm. Ona görə ki, (təkrara görə üzr istəyirəm - Ə.M.) sevgim haqdan gəlib və o da mənə bir əminlik gətirib. O əminlik də mənim ürək çırpıntılarımı sənə ünvanlayıb, sənin cavabını gözləyə-gözləyə mən də sözün işığında özümözümdən soruşmuşam ki, bu hər kəsin bildiyi, amma hər kəsin yaşamadığı sevgidən güclü hansısa doğma bir hiss varmı?

Zatən mən düşünürəm ki, insanın iki ən böyük duyğusu, yəni gizlədə bilmədiyi ali hissi var, onun biri sevgidi, ikincisi nifrət. Sevginin pik nöqtəsi sənsizliyi yaşaya bilməməkdi. Nifrətin pik nöqtəsi intihar və yaxud qətldir

Görürsənmi, bir varlıq olaraq sevgi və nifrət bizi haralara aparır. Elə ona görə də hərdən özüm-özümlə danışıram və sonra da danışdıqlarımı sənə söyləyirəm, səndən cavab gözləyirəm. Və o cavab gələnə kimi isə dözməyib, səbirsizlik edib bu misraları kağıza köçürürəm:

***Niyə incidirsən məni bu qədər,***
***Hansı günahımın cəzasıdı bu?!***
***Namazım SEVGİDİ! - həmin o gündən***
***Bəs onda de nəyin qəzasıdı bu?!***

***Ürəyin ürəklə kəsmət kəsməsi,***
***Sayılır mənimçün ruhun vəsməsi.***
***Baxış pıçıltısı, dodaq əsməsi,***
***Sevginin ən incə əzasıdı bu?!***

***Fikirdi yoğuran, diləkdi yapan,***
***Atını dörd nala fələkdi çapan.***
***Tanrı dərgahında özünü tapan,***
***Bilir ki, məhəbbət fəzasıdı bu!***

İnsan ömrünün demək olar ki, ən böyük payını, hissəsini yerdə, torpağın üzərində keçirir, yaşayır. Müəyyən qrup var ki, onların işi, fəaliyyəti daha çox fəza ilə, hündürlük ilə, yəni yerdən yüksəklikdə reallaşır. Gah işıq dirəyinin üstündə, gah neft buruğunun qülləsində, gah təyyarədə, bir sözlə, torpaqdan hansısa bir məsafədə keçən bu ömür sonda yenə torpağa söykənməli olur. Obrazlı desəm, yer həmin adamlara bir trampilin kimi təkan verir, onların start nöqtəsi olur, ordan başlayır uçuş da, qülləyə qalxmaq da. Lap uşaqlıq illərimizdə olduğumuz kimi, hansısa bir uca yerdən üzü aşağı tullanmaq da... Bütün bunları xatırlamaqda məqsədim göy üzündən gələn Allah payı olan sevginin torpaqla bağlı hərdən orta məktəb illərində şagird dostlarımla etdiyim bir mübahisə yadıma düşür.

Hər kəsə məlumdur ki, yer öz oxu ətrafında fırlanır. Mən də onda şeirə, poeziyaya elə vurulmuşdum ki, hər şeyi obrazlı görürdüm. Hər şeydə bir bağlılıq axtarırdım və inadla sübut etməyə çalışırdım ki, yer göyə vurulub, onun aşiqidir. Ona görə də aşağıdan yuxarıya baxmaqla yanaşı, həm də ona can atır. Şairanə desəm, yer göyü, göy də yeri sevir. Vurulublar bir-birilərinə.

Siz, yəni oxucularım, mənim bu "şairanə fəlsəfə"mə necə qiymət verməyinizdən asılı olmayaraq, israrlı şəkildə mən öz mövqeyimdə qalıram. Ona görə ki, bu cahana sığmayan insan başqa bir cahanı ona görə rahatlıqla arayır ki, o, həmin cahanın var olduğuna əmindir.

Bu, ilk anlamda "bu dünya - o dünya" deyimini, fikrini yada salsa da, mənim üçün elə bu dünya da, o dünya da Allahın var olduğu hər yerin içindədi, özündədi. Yəni yer göyün, göy yerin sevgisinin, bütövlüyünün içində yaşayır və bu da həm o israrla yaddaşlara yazılan bu dünya, o dünya deyiləni mənə görə bir-birinin içində olan göylə yerin özündə görür və bu, iç-içə olmaq, bir-birində tamamlanmaq, yazımın əvvəlində dediyim kimi, iki ürəyin bir sinədə birləşməsinin obrazlı görüntüsüdü.

Siz əmin ola bilərsiniz ki, hər şeyə qadir olan sevgi aşiqlə məşuqu, sevənlə sevilənі necə qovuşdura bilirsə, bir-birinə can atanları da, bir-birinin içərisində var olanları da bu cür bütövləşdirir. Və bir də istənilən bucaq altında, istənilən nöqtədən baxanda ürəyin, ağlın, nəyi görmək istəyirsə, necə görmək istəyirsə, daha çox o cür görür, o cür hiss edirsən.

Yəni mən səni yer üzündə heç kimin görmədiyi, hiss etmədiyi, yalnız Allahın görüb dəyərləndirdiyi bir mələk simasında görürəm. Nəfəsini də, saç düzümünü də, hətta barmaqlarının yazı yazarkən və yaxud hansısa bir işi görərkən etdiyi "rəqsi" də mən məhz özümün görmək istədiyim kimi görürəm.

Bütün bunlar ömrü birtəhər yola vermək deyil və yaxud ömrü birtəhər öz istəyimə uyğunlaşdırmaq cəhdidi. Bütün bunlar mənim üçün gerçəklikdi - sənin özün kimi! Bax, o gerçəkliyi də mən yerin, göyün, sənin və mənim xəyallarımızın, varlığımızın içində yaşayıb, həm də yaşadığımı sözə çevirməyin şirin əzabını o andan yaşamaqdayam:

***Kirpiklərim görüşmədi, əritdim,***
***Bir gecəni, bir səhərin içində.***
***Can atsam da qovuşdura bilmədim,***
***Bir həsrəti bir səhərin içində!***

***Baş qatsam da hər ölçüdə, biçidə,***
***Boş səhradı allərimin içi də!***
***Vüsal, həsrət, bir də umud -üçü də -***
***Çabalayır, bir qəhərin içində!***

***Batan günəş, axan ulduz və bir də,***
***Güc qalmayıb dişim sıxan səbirdə.***
***Bilə-bilə yaşadığım cəbir də -***
***Bal daddırır, bal zəhərin içində!***

***Çöhrəndəki təbəssümdən çən ağır,***
***Nə dilədim tərsi ilə tən, yağır!***
***Söz önündə açıq-aşkar mən fağır***
***Gül sayıram "bir təhərin" içində!***

**Bu yazını başlayandan sonuna qədər mən bütövlükdən və sevgidən, əslində isə bütövlüyü yaradan sevgidən danışdım. Daha doğrusu, danışdıqlarımı bilgisayarın yaddaşına köçürtdüm. Amma bununla yanaşı, mən sözə çevirdiklərimi o çevrilmə anının özündə də bir gerçəklik kimi yaşayırdım və yaşadım da. Çünki səninlə üzüzə idim, səninlə danışırdım, səninlə bölüşürdüm, Sənə səndən yazırdım.**

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı inkişaf etdirilir

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin rəisi general-polkovnik Yaşar Kadıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Müdafiə Nazirliyindən (MN) Adalet.az-a bildirilib ki, müdafiə naziri qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. İki qardaş ölkə arasında bütün sahələrdə olduğu kimi hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayıb. General-polkovnik Z.Həsənov Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyətini xüsusi qeyd edib.

Türkiyə nümayəndə heyətinə 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan qələbədən sonra ordu quruculuğu istiqamətində aparılan uğurlu islahatlar barədə məlumat verilib.

General-polkovnik Y.Kadıoğlu isə öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Keçirilən birgə təlimlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyətə malik olduğu vurğulanıb.

Görüşdə, həmçinin hərbi əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da genişləndirilməsində bu cür görüşlərin zəruriliyi diqqətə çatdırılıb. Hər iki qardaş ölkənin hərbi qulluqçularının peşəkarlığının daha da artırılması məqsədilə birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi qeyd olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Rusiya ilə Azərbaycanı birləşdirən yol 4 zolaqlı olacaq

**Rusiya ilə Azərbaycanı birləşdirən "Qafqaz" yolu 2030-cu ildə dörd zolağa qədər genişləndiriləcək.**

Adalet.az xəbər verir ki, bu barədə Qafqaz Federal Yolları Agentliyinin idarə rəisi Aleksandr Lukaşuk TASS Qafqaz informasiya mərkəzində çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, "Qafqaz" magistral yol Krasnodar ərazisindəki Pavlovskaya stansiyasından Azərbaycan Respublikasının sərhədinə qədər uzanır.

"Bu gün prioritetimiz Rusiyanın subyektlərini xarici dövlətlərlə birləşdirən Şimal-Cənub "beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi olan R - 217" Qafqaz" yoludur. Bu yolda ən böyük trafik- turist, malların daşınması gedir. Ona görə də, bu istiqamətə xüsusi diqqət yetirilir. 2030-cu ilə qədər bütün R -217 magistral yolu dörd zolaqlı olacaq"deyə Rusiya rəsmisi vurğulayıb.

# Ruhun sevindiyi gün

**Dünən, yəni dekabrın 4-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda narahat bir ruhun dinclik tapdığının şahidi oldum. Belə ki, Sovet rejiminin günahlandırıb 8 il azadlıqdan məhrum etdiyi dəyərli bir yazıçımızın sözünün işığına yığışanlar, yəni bizlər bu klubda onun barəsində söylənilən fikirlərin, adıçəkilən yetmiş kitabının və bir də ədəbiyyatımıza, xalqımıza özünün və ailəsinin xidmətlərinin miqyasını ifadə etməyə çalışırdılar. Amma bütün bu deyilənlərin içərisində mənim üçün yaqin ki, elə mərhum yazıçımız İsmayıl Qarayevin doğmalarının da daha çox önəm verdiyi bir məqam vardı. O da yazıçının Anım və kitablarının təqdimat gününü məhz burada - yəni Natəvan klubunda keçirilməsi idi.**

Bunu ona görə xüsusi vurğulayıram ki, bu yaddaqalan tədbirdə AYB-nin rəhbərliyi başda hörmətli xalq yazıçımız Çingiz Abdullayev olmaqla çox yüksək səviyyədə təmsil olunurdu. Tədbiri söz adamlarının, ədəbiyyatsevərlərin yaxşı tanıdığı, gənc yaşından artıq istedadının və sözə yanaşmasının mükəmməl tutumunu təsdiq etmiş ədəbiyyatşünas, tənqidçi, eyni zamanda bir çox şeir və publisist yazıların müəllifi Əsəd Cahangir idarə edirdi. Onun giriş nitqi İsmayıl Qarayevi həm onu tanıyanlara, həm də tanımayanlara sözün böyük mənasında yaxşı tanıtdı. Demək olar ki, bu çıxış bütün tədbir boyu elə bir aura yaratmışdı ki, hər kəs mütləq Əsəd bəyin fikrinə istinad edirdi və vurğulayırdı ki, Əsəd Cahangir İsmayıl Qarayevi bizə bildiyimizdən də yüksək səviyyədə tanıtdı və sevdirdi. Xüsusi olaraq xalq şairi Nəriman Həsənzadə, eləcə də AYB-nin katibləri Elçin Hüseynbəyli və Səlim Babullaoğlu, həmçinin dəyərli şairimiz Vaqif Bəhmənli İsmayıl Qarayevlə bağlı ürək sözlərini dilə gətirərkən mənim toxunduğum məqamı xüsusi vurğu ilə nəzərə çatdırdılar.

Təkcə ədəbiyyat adamlarının deyil, eləcə də elm, mədəniyyət xadimlərinin, xüsusilə adi oxucuların da qatıldığı bu tədbirdə mənim üçün yaddaqalan məqamlardan biri bu oldu ki, hər kəs çıxışında Sovet rejiminin İsmayıl Qarayevə etdiyi haqsızlığı, ədalətsizliyi dilə gətirirdi və bir də hər kəs İsmayıl Qarayevin övladlarının, xüsusilə indi cənnətdə olan oğlanları Qoşqar və Savalan Qarayevlərin təkcə öz ataları üçün deyil, həm də Azərbaycan ədəbiyyatı üçün göstərdikləri xidmətləri böyük sayqı və sevgi ilə vurğulayırdılar. Məhz bu oğulların sayəsində İsmayıl Qarayevin (sovet dönəmində doqquz kitabı çap olunmuşdu- Ə.M.) həbsdən sonrakı yaşadığı ömür kəsiyində 70-dən artıq kitabın da işıq üzü görməsi reallığa çevrilmişdi.

Xatirələrini söyləyən şair, yazıçı, tərcüməçi, çox dəyərli ziyalımız və dostum Kamran Nəzirli vurğuladı ki, İsmayıl Qarayevi həbsxanada ziyarət edən unudulmaz şairimiz, əsl dost, qayğıkeş insan və böyük ürək sahibi olan Şahmar Əkbərzadə mərhum yazıçımızın həbsxanada ona verdiyi "qara dəftər"ləri bu gün haqq dünyasında olan unudulmaz yazıçımız Şamil Xurşuda çatdırdı. Həmin hadisənin canlı şahidi kimi "mən gördüm ki, Şamil müəllim o qara dəftərləri necə böyük qayğı ilə qəbul etdi və üzünü mənə tutub dedi ki, "Kamran, bunları dolabın gözünə qoy, işdi İsmayıl həbsdən çıxana qədər mən dünyadan köçsəm onda özünə qaytararsan. Əks halda övladları ilə əlaqə saxlayıb onlara verərsən" dedi. Bu kövrək xatirə bizi duyğulandırdığı kimi həm də bir gerçəyi bizə açmış oldu. Yəni Kamran Nəzirli vurğuladı ki, bax, həmin qara dəftərlər indi qarşımızda olan roman, povest və hekayələr idi.



Anım və təqdimat mərasimində çıxış edən yazıçı-dramaturq Firuz Mustafa şəxsən tanıdığı və unudulmaz yazıçımız Nahid Hacızadənin sayəsində, hətta çörək kəsdiyi İsmayıl Qarayevin "bütöv bir kişi" obrazını bizə təqdim etdi. Onunla söhbətlərini dilə gətirdi. Ümumiyyətlə, bu tədbirdə yazıçı-publisist Xeyrəddin Qocanın, şair Zahid Xəlilin, dəyərli elm adamımız professor Vaqif Abbasovun, nəğməkar şairəmiz Kəmalə Abıyevanın və digərlərinin bir-birindən maraqlı və yaddaqalan fikirləri şəxsən mənim üçün İsmayıl Qarayevin ruhu qarşısında bir etirafın, bir unudulmazlığın ifadəsi idi.



Mən bu tədbirdə özüm üçün bir nüansı da dəqiqləşdirdim. Yəni düşündüm və inandım ki, İsmayıl Qarayevin anım gününü və kitabların təqdimatı AYB tərəfindən Natəvan klubunda keçirilməsi həm də müəyyən mənada İsmayıl Qarayevdən edilən bir üzrxahlıqdır. Yəni, bu addımla zamanında haqqını, hüququnu qoruya bilmədikləri bir yazıçının qarşısında üzvü olduğu təşkilat yumşaq desək öz "günahını" yumuş oldu. Bəlkə də düşünə bilərsiniz ki, sovet rejimi kimdənsə çəkinən və yaxud üzr istəyən rejim deyildi.



Amma bütün hallarda yeddi kitab müəllifini və sayılan yazıçını həbs etmək, yazıçılar təşkilatının üzvlüyündən çıxartmaq, kitablarının nəşrinə icazə verməmək Bax, bunların özünə qarşı tam sükuta dalmaq da məncə həmin illərdə yazıçılar təşkilatına rəhbərlik edənlərin və rəhbərlikdə təmsil olunanların aşkar yaxalarını kənara çəkmələri idi. Xalq şairlərindən birinin dediyi kimi, "Məndən ötdü "

Dekabrın 4-də AYB-nin Natəvan klubunda yaddaqalan Anım və təqdimat keçirildi. Bu Anım və təqdimat İsmayıl Qarayevin layiqli varislərindən olan qızı Vəsimə İsmayılqızının yaxından iştirakı ilə gerçəkləşdi. Məhz Vəsimə xanım AYB-nin təşkilatçılığına ürəkdən qoşularaq atasının və dünyasını dəyişən doğmalarının ruhunu sevindirdi.

Elə bu yerdəcə xatırladım ki, İsmayıl Qarayev həbsdən azad edildən sonra müəyyən müddət yaşasa da onu görməməzliyə vuranlar yalnız 1993-cü ildə o haqq dünyasına qovuşandan xeyli sonra övladlarını, xüsusilə Qoşqar İsmayıloğlunu xatırlatmaları ilə AYB-nin üzvlüyünə qaytarıldı. Onun Yazıçılar Birliyində təmsil olunmaq haqqı təsdiqləndi.

**Bax, bütün bunların, yəni baş verənlərin fonunda İsmayıl Qarayevin ruhu doğum günü ərəfəsində (o, dekabr ayının 5-də dünyaya gəlib - Ə.M.) AYB-nin binasında, Natəvan klubunda dərindən nəfəs alıb rahatlandı. Ruhun şad olsun, İsmayıl Qarayev!**

**Əbülfət Mədətoğlu**

---

*Məzahir ƏHMƏDOĞLU*

# GÖZƏLLİYİ UYDURMAQ



**Qəzetimizin ötən sayında Aqil Abbasın " Sosializm olmayanda yarış olmur?! " başlıqlı replikasını, ya bəlkə də olduqca xoş niyyətli nostalji düşüncələrini çox yüksək qiymətləndirir və bölüşürəm. Bəli, bir zamanlar əsasən pambıq, sonralar isə üzüm tədarükünü də əks etdirən yarış cədvəlləri qəzetlərdə ən çox maraq doğuran guşələr idi. Futbolu da üstələyirdi.**

**... Və bu həmin pambıq, həmin üzüm məhsulları idi ki , ulu öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə Azərbaycan kəndlərini miskin bir görkəmdən çıxararaq , rahat, işıqlı həyata qovuşdurmuşdu.Daş hasarlar, daş binalar, dəmir qapılar, minik avtomobilləri, kəndlinin də öz uşaqlarını ali məktəblərdə oxuda bilməsi , pullanması ... Tarlalardan , plantasiyalardan əldə olunan qazanc və gəlirlərdən hamıya pay düşürdü: istər əməkgünü şəklində, istərsə də o dövrün özünəməxsus digər üsulları ilə. Neftimizi adi sudan da ucuz qiymətə daşıyıb aparanlar mənim bu cümləmin ikinci hissəsinin mənasını heç vaxt başa düşməzlər. Başa düşsələr də, daha gecdi...**

**... Zəhmətsevərlik, vətənin bu günü, sabahı üçün çalışmaq, bolluq yaratmaq, yarışmaq, bir-birindən öyrənmək, cədvəlləri lap elə primitiv sevinclə , həyəcanla izləmək... Bütün bunların nəyi pisdir ki? Özü də müstəqil və hər şey özümüzün ola-ola.**

**15 il əvvəl mən qərib nostalji ilə seyr etdiyim mənzərədən eləcə təsirlənib bu yazını qələmə almışdım. Aqil Abbas mənə təkcə söylədiklərimi deyil, keçmişin yaxşı mənada başqa bir çox məsələlərini də xatırlatdı.Bu səbəbdən də həmin yazını oxuculara yenidən təqdim etmək istədim.**

***

**... Xeyirxahlıq və mərhəmət, hər yerdə hər zaman xoş niyyətlilik, qəhrəmanlıq, cəfakeşlik, vətən, valideyn sevgisi və aşiqlik...Bütün bunların da nüvəsində elə gözəllik bərq vurur, başqa cür mümkün deyil.**

**Mən noyabrın əvvəllərində bir neçə gün Ağcabədi və Ağdam tərəfdə oldum.Çoxdan tanıdığım insanlarla yenidən görüşməyimdən, Milli Məclis üzvlüyünə seçkilərdə iştirak edən dostumun parlaq və halal qələbəsindən danışmayacayam. Ancaq etiraf edirəm ki , mövzu həmin günlərdə formalaşdı və qələmə alınacağı vaxtı gözlədi.**

**Düşüncələrimin, hisslərimin hamısını bölüşmək istəmirəm. Heç bu söhbət də uzun deyil, ovqat məsələsidir. Ancaq bir məqamı ayrıca danışmaq zərurəti var.**

**Kim deyir ki pambıq əkib becərmək qul əməyidir? Siz məhsulu yetişəndə ulduz-ulduz işıq saçan pambıq tarlasını görmüsünüzmü? Bu gözəlliyə əllərinizlə toxunmusunuzmu? Ağcabədi keçmişlərdə respublikamızın ən iri pambıqçılıq rayonlarından biri olub.Necə ki , Ağdam üzümçülük, Cəlilabad taxılçılıq, Şəki maldarlıq və ipəkçilik, Lənkəran tərəvəzçilik və çayçılıq... Hərdən yol kənarlarındakı pambıq tarlalarında ağaran qozaları görəndə özümü güclə saxlayırdım. Ancaq bir dəfə sürücüyə işarə elədim ki dayansın, baxmayaraq, işimiz tələsik idi.Maşından düşüb girdim tarlaya. Başladım kollardakı pardaqlanmış qozaları "soyundurmağa". 5-6 dəqiqəyə topladığım pambığı sahənin kənarındakı çəmənliyə qoyub tez maşına qayıtdım. Sürücü gəncdir, mənim bu hərəkətimə maddım-maddım baxıb bir şey anlamadı. Mənsə əməllicə rahatlanmışdım. Nə olsun ki, işim, peşəm başqadı. İndi mənim əllərim bir vaxtlar "ağ qızıl" adlandırdığımız pambıq kollarına, qozalarına toxunmuşdu. Əllərim qızıldan da qiymətli bərəkətli vətən torpağının bəhrəsini bütün varlığına çəkmişdi...**

**Nə olaydı, bütün kəndlərimiz əkilib becəriləydi; hər yan tarla, hər yan plantasiya, hər yan zəmi, hər yan bağ-bahat...**

**Bir vaxtlar əməksevərliyi,vətənsevərliyi, xeyirxahlığı sosialist realizmi üslubunda təbliğ edən kitabları, bədii filmləri digər sənət əsərlərini artıq bəyənməməyə, qəbul etməməyə başlamışdıq. Təbii idi. Çünki uydurma qəhrəmanlar, uydurma ideologiya prinsipləri bir yana, həm də bu tip sənət nümunələri bədii cəhətdən də zəif olub daha bizi qane etmirdi. Zövqlərimiz tamam başqa cür formalaşırdı, fərqli istiqamətlər götürürdü.Ancaq indi bəzi anlaşılmazlıqlarla rastlaşdıqda baxıb görürsən ki, bütün bunların bir müsbət tərəfi də olurmuş.Mən telekanallardakı düşük şoulara, ucuz seriallara, meyxana yarışmalarına baxmaqdansa , "Mosfilm" in köhnə zavod-fabrik , istehsalat, müharibə mövzulu hətta ən zəif filmlərinə də tamaşa etməyi üstün tutardım.Özümüzün " Böyük dayaq " tipli primitiv kino lentlərinə də. Çünki bütün bu köhnə və zəif ekran əsərlərinin , eləcə də sovet ədəbiyyatının həm də çox gərəkli bir prinsipi vardı. Vətənə məhəbbət, əxlaq və mənəviyyat məsələləri hansı ideologiya üzərində olur-olsun müsbət istəklərə köklənirdi.**

**Belə düşünürəm ki,indinin özündə də həyatın içindən qaynaqlanan , ancaq nisbətən müasir forma və məzmun daşıyan maarifçiliyə çox ciddi ehtiyacımız var. Mətbuat, televiziya, kino sənəti, musiqi və ədəbiyyat vətəni, xalqı, dostluğu, mənəviyyatı tərənnüm edən " qızıl orta" nı müəyyənləşdirməlidir. Ritorikadan da qorxmamalıyıq. Kənddə torpaqları boş qoyub şəhərlərdə veyillənməkdənsə , kənddə yaşayıb adicə tərəvəz məhsulları üçün şəhərə üz tutmaqdansa , gözəlliyin uydurulması daha az ziyan verər, hələ ki.Çünki bir çox mühüm məsələlərdə bəyənmədiyimiz keçmişimizə uduzuruq. Özü də ciddi fərqlə.**

**... Məni də bu söhbətə görə "keçmişə həsrət" qınağına çəkməyə səbəblər axtarmayın. Bir müddət komsomol işində çalışsam da , kolxoz sədri olmamışam...**

**Noyabr, 2010**

# Rafiq Yusifoğlunun 20 cildliyinə göz aydınlığı

**Filologiya elmləri doktoru, professor, şair-publisist, "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğlunun imzası Azərbaycanda, elə onun hüdudlarından kənarda da çoxlarına bəllidi. Belə ki, Rafiq Yusifoğlu bütün yaradıcılığını Vətənə, onun təbiətinə, coğrafiyasına, tarixinə, insanlarına və bir də hər kəs üçün bir işıq, hava, su qədər əziz olan, ehtiyac duyulan sevgiyə həsr edibdir.**



Bax, belə bir mövzu bolluğu içərisində yazıb-yaradan Rafiq Yusifoğlu 1950-ci ilin yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində dünyaya gəlib. Elə bu kənddə də ilk addımlarını atıb, orta məktəbə gedib, sonra Qubadlı qəsəbə tam orta məktəbində orta təhsilini başa vurubdur. Onun ədəbiyyata gəlişində görkəmli şair, ədəbiyyatşünas Qasım Qasımzadənin xeyir-duası da əsas səbəblərdən biri olubdur. Belə ki, bu böyük ziyalı onu istedadlı şair kimi qəbul edib və elə bu cür də Azərbaycan oxucusuna təqdim edibdir. Ali təhsilini Pedaqoji Universitetdə alan filoloq Rafiq Yusifoğlu 1970-ci ildə Sumqayıt şəhərində müəllim kimi fəaliyyətə başlayıb və beləcə sinif otağında özünü ədəbiyyat müəllimi hiss edən Rafiq Yusifoğlu, əslində bir şair, bir publisist kimi də hər gün püxtələşir, hər gün bir-birindən maraqlı, oxunaqlı yazıları ilə oxucu qəlbinə işıq salıbdı.

Onun barəsində zamanımızın sayılıb-seçilən şair və yazıçıları, tənqidçiləri, elm adamları bir-birindən maraqlı fikirlər söyləmib, əsərləri, şeirləri barəsində yazılarla çıxış etmişdilər.

Onların arasında xalq şairi Məmməd Arazın, xalq yazıçısı Hüseyn Abbaszadənin, xalq yazıçısı Anarın, elm adamları olan Yəhya Seyidovun, Əkbər Ağayevin, Yaşar Qarayevin, Təhsin Mütəllimovun, Vaqif Arzumanlının, Vaqif Yusiflinin, Kamran Əliyevin və başqalarının yüksək fikirləri Rafiq Yusifoğlunun böyük və maraqlı yaradıcılığının qiymətləndirilməsində zənnimcə çox önəmli bir meyardır.

Bu gün imzası təkcə çap olunan kitablarında, dövrü mətbuatda deyil, həm də orta məktəb dərsliklərində yer alan Rafiq Yusifoğlu yaradıcılığına özəl bir baxış nümayiş etdirib. Belə ki, ilk qələm təcrübəsindən bu günə qədər bizlərə təqdim etdiyi bütün əsərlərini 20 cildlik halında toplayaraq onların çapına rəvac verib. Artıq həmin 20 cildliyin 19 cildi və hər biri də 512 səhifə olmaqla oxucuların ixtiyarındadı.. Mən dəyərli ziyalımız, şəxsiyyətinə və özünə böyük sayqım olan, sözünü çox urvatlı gördüyüm həmkarım, qələm dostum, həm də mənimlə birlikdə yurd nisgili yaşamış əzizim Rafiq Yusifoğlunun bu uğurunu öz uğurum kimi görür və sevinirəm.

Düşünürəm ki, Rafiq Yusifoğlu həm şair, həm publisist, həm alim, həm mətbuat təmsilçisi kimi öz yerini, öz dəyərini və ləyaqətini bilən, hər zaman uca tutan əsl Azərbaycan ziyalısıdı.




Heç bir şübhə etmədən onunla könül bölüşmək, onunla fikir mübadiləsi etmək və onunla söz dünyasında olduğu kimi, həyatda da çiyin-çiyinə məqsədə doğru getmək mümkündür. Bax, elə bu önəmli məqamda, yəni Rafiq müəllimin 20 cildliyinin 19-nun ortada olduğu bu günlərdə mətbuatda maraqlı məqamların şahidi oldum. Gördüm ki, istər sosial şəbəkələr, istər yazılı mətbuatımız Rafiq müəllimin uğurlarını, sevincini öz oxucuları ilə necə səxavət və sayqı ilə bölüşürlər. Mən də onlara qoşuluram və ürəkdən gələn sevinc hiss ilə deyirəm:

**- Rafiq müəllim, sevincinə şərikəm, sevincini alqışlayıram və uğurlarının davamlı olmasını Allahdan diləyirəm. Siz xoşbəxtsiniz ki, doğma və azad Qubadlıda 20 cildliyin təntənəsini, sevincini yaşamağı Allah sizə nəsib edib. İnşallah, bu cildlərin hər biri ayrı-ayrılıqda sizin söz abidəniz kimi bütün zamanlarda göz önündə olacaqdır.**

**Əbülfət Mədətoğlu**

# Payızla qışın qarşılaşması...

**İndi təbiətin bar-bərəkət fəsli olan payızdı. Necə deyərlər, əkdiyimizi, becərdiyimizi, yəni barı-bərəkəti toplayıb qışın qapısına gəldiyimiz məqamdı. Saylı günlərdən sonra qış qapısını açacaq üzümüzə. Elə ona görə də payızla qışın bir-biri ilə dartışması, bir-biri ilə anlaşması, necə deyərlər, dil tapmaq istəyi indi özünü daha çox büruzə verir. Payız onu əvəz edəcək qışa canında olan odu, qış isə ona qarı, çovğunu, şaxtanı ərməğan edir.**

Bu son dərəcə qəribə, həm də təzadlı "paylaşma" adamda qəribə nostalji duyğular yaradır. Ömrün payızı ilə qışını düşünürsən. Ağlından, içindən bir bahar sevdası şüa kimi süzüb keçir. Elə o sevdanın xatirinə özünü, necə deyərlər payızın, qışın acığına bir də toparlayırsan. İstəyirsən tökülən yarpaqların və onun üzərinə iz salacaq quşbaşı qarın oyatdığı mənzərəni özün üçün rəsmə çevirəsən, yazıya köçürəsən və sonra da o rəsmin, o yazının həmsöhbəti olasan.

Bax, belə bir məqamda saçlarına artıq əməlli-başlı qar yağmış bir qələm dostum gəlib durur gözümün qarşısında. Onun bəyaz saçlarının ifadə etdiyi və mənim ruhuma hopan həmin o nostalji sonda şeirə çevrilir. Özü də qələm dostumun şeirinə. Həmin qələm dostum, yəni, şair Balayar Sadiq sanki mənim üçün pıçıldayır:

*Adından islanıb*
*bu payız yağışı*

*Bir yarpaq ümid yoxdu*
*yarasını sarıyım*
*bu ürəyin...*

*Əllərim uzaqlarda qalıb,*
*Sənsizliyin*
*Kölgə saldığı yerlərdə...*

*Payızı sərmişəm yollara*
*bəlkə insafın üşüdü*
*bir payız...*

*Ovcumu tutmuşam*
*ürəyimin altına,*
*sən damcılayırsan...*



Bu misraların yaratdığı obrazı özüm üçün bir həyat modelinə bənzədirəm. Çünki bu yağışın islatdığı payız köhnə damın uçuq divarına söykənmiş və xatirələri ilə baş-başa qalmış sevdalı adamın durumunu ifadə edir mənim üçün. Elə bilirəm ki, yağışda islanan payız sanki bu adamın sevdasının üstünə çilənən göz yaşıdı. O göz yaşı ümid ifadə etmir, ümid işartısı yaratmır. Sadəcə yaranı sarıyır.

Amma bir gerçəklik də var ki, ürək yarasını saramaq yox, olsa-olsa onu sevgi ilə yaşatmaq mümkündü. Ömrünə gün, ay, il, bir sözlə zaman əlavə etmək real görünür. Çünki o yaranın dərinliyi bir sağalmazlıq haqqı qazanıbdı. Belə olan halda uzaqlara qədər boylansan da ordan nə əllərini, nə izlərini geri götürmək gücü heç kimdə yoxdu. Ona görə ki, onun yolunu sənsizlik kəsib və o sənsizliyin kölgəsi də o qədər qalındır ki, onun altında qalan ağrının, həsrətin və göz yaşının göyərməsi də yalnız möcüzə ola bilər.

Təəssüf ki, bu gün kimisə, hansısa möcüzə ilə təəccübləndirmək mümkün deyil. Bitib təəccüblənmələrin, möcüzələrin zamanı. Amma mənim qənaətimi qələm dostum bir az cilalayır, bir az ütüləyir və deyir ki, sərmişəm yollara bu payızı. Və ona görə sərmişəm ki, sənin insafını isitsin. Yəni oyatsın və biləsən ki, ürəyimdən ovcuma sən damcılayırsan. .. sənin məhəbbətin damcılayır. Gördünüzmü, Balayar Sadiqin bir damla payızı özündə nələri ehtiva edib? Barışdınızmı bu bir damla payızla? Əgər barışdınızsa, onda açın qapını, açın pəncərəni, açın nəfəsliyi.

Bax, bu içərisində olduğum duyğuların mənim əlimdən tutub yönəltdiyi istiqamət elə açılan qapılara, pəncərələrə tərəfdi. Bildiyimə və inamıma görə, üzlərə açılan qapılar təkcə arzu deyil, həm də ümid verən . yaşam həvəsi gətirən bir reallığın təsdiqidi. Bunu poetik şəkildə oxucuya çatdırmağın özü isə artıq söz xiridarı olmaq deməkdir. Elə sözünün və qələminin mükəmməl bilicisi, saydıranı və sevdirəni olan Balayar Sadiq də "Qapını aç" deyəndə zənnimcə, mənim bir az öncə vurğuladığım məqamı oxucuya şeir dilində deyir:

*Son ümidin göz yaşını,*
*Sən silirsən, ya mən silim?!*
*Dərdlərinə boyum çatmır,*
*Bir az əyil, vətən, silim...*

*Kim yalanı balınc-balınc,*
*Başının altına atıb?!*
*Aç qolundan, bu saatın,*
*Qələbə əqrəbi yatıb.*

*Demədiyim söz kimisən,*
*İçimi yandırır ahın.*
*Kimin gözünə sərmisən? -*
*Yaman nəm çəkib sabahın.*

*Gözləri şəhid köynəklim,*
*Bir güzgüyəm göz yaşına.*
*Götür, bir azca duz çevir,*
*""Lələtəpə"nin başına.*

*Kimin cibində gizlənib,*
*Şəhidlərin qisas günü?!*
*Bayraq elə hər anını,*
*Gözlərimdən gəl, as o günü!*

*Uzaqların çal-çağırlı,*
*Yaxınların ac-yalavac.*
*Həqiqət döyür qapını,*
*Qorxma, vətən, qapını aç!!!*

Mən bu şeirdəki bütün istək və arzuları, şair təqdimatını dünənin, yəni şeirin doğulduğu zamanın bucağı altında oxudum və həqiqətən həmin zamanın çılpaqlığını ovcumun içi kimi gördüm. Bu şeir oxuculara 2020-ci ildə təqdim olunub. Ona görə də nə böyük qələbəmizdən, nə zəfərimizdən, nə bugünkü reallığımızdan orda işartılar yoxdur.

Bu da o deməkdir ki, müəllif məhz qələbənin , bugünkü gerçəkliyin həsrətini çəkib. Onun üçün tələşlanıb. Ürəyinə, ruhuna da o qələbə, onun gətirəcəyi yeni dünya hökm edib və bir söz adamı, bir şair olaraq arzusunu vətəndə görmək istəyini deməkdən, yazmaqdan çəkinməyir.

Hətta həmin zaman üçün Lələtəpəni bir ovuc duz kimi vətənin başına fırlamağa, bununla da daha böyük qələbələrə iddialı və israrlı olubdur. Şükürlər ki, şeirin sonunda şair fəhmi özünün təsdiqini artıq reallıq kimi vurğulayıb, Qeyd edib ki, həqiqət qapını döyür:

- Biz səninləyik, biz səninik Vətən!

Bax, mənim qələm dostumun bu uzaqgörən, hadisələri qabaqlayan yanaşması bir öncə görmədi. Demək istədiyim odur ki, Balayar Sadiq qapını aç deyəndə qələbəyə çağırış edib. Yurda dönüşə çağırış edib və nəhayət, bütövləşən Azərbaycan üçün çağırış edibdi.

**Bəli, hər qələm adamının özünəməxsus dünyası olduğu kimi, bütöv dünyaya, bütöv ətrafa özünəməxsus da yanaşması, baxışı var. Bu mənada Balayar Sadiqin yağışdan islanan payızı özü də qapısı qələbəyə açılan Vətənin bir cizgisidi!.. Bu cizgini isə sözə çevirən, yenə vurğulayıram, şair Balayar Sadiqdi. Sözün, qələmin yorulmasın, şair!**

**Əbülfət Mədətoğlu**

## *"Biz Rusiya ilə müharibə ərəfəsidəyik"...*



**Amerikanlı tanınmış jurnalist Taker Karlson, Rusiyanın xarici işlər naziri Sergey Lavtovdan müsahibə götürmək üçün Moskvaya gəlib. Bu barədə jurnalist Telegram-kanalında məlumat verib.**

Karlsonun sözlərinə görə, artıq 25 ildir Rusiya diplomatiyasına rəhbərlik edən təcrübəli diplomatla müsahibə yaxın günlərdə dərc ediləcək.

Müsahibə zamanı müzakirə olunan məsələlərdən biri də, Rusiya və ABŞ arasında baş verə biləcək nüvə apokalipsisi ilə bağlı olub.

Amerikalı jurnalistin sözlərinə görə, hazırki beynəlxalq siyasət, Karib böhranı səviyyəsini üstələməkdədir.

"Biz Rusiya ilə, ABŞ vətəndaşlarının səs verməditi müharibə ərəfəsindəyik"- deyə Taker Karlson həyəcan təbili çalır.

Amerikalı jurnalist vəziyyətin bu həddə çatmasında Co Bayden başda olmaqla, hazırki ABŞ hakimiyyətinin apardığı siyasəti günahlandırır. Ağ Ev administrasiyasının Ukraynaya Rusiyanın dərinliklərinə raket zərbələri endirilməsinə icazə verməsini tənqid edib. "Amerikan əsgərləri Rusiyaya raket zərbələri endirməklə xeyli sayda rus əsgərini öldürüblər.

Bu isə Rusiya, ABŞ-da daxil olmaqla bütün dünyanı məhv etməyə səbəb olan nüvə müharibəsinin başlamasına gətirib çıxara bilər"- deyə Karlson bildirir.

Jurnalistin sözlərinə görə, Vaşinqtonda vəziyyətin tonunu aşağı salmaq üçün kimsə qalmayıb. Entoni Blinken artıq iki ildir Moskva ilə bütün əlaqələrini kəsib. İki ildən çoxdur Rusiya ilə əlaqə və dialoq yoxdur.

Karlson bildirib ki, daha əvvəl Rusiya prezidenti Vladimir Putinlə apardığı müsahibədən sonra, ABŞ-ın Ukraynadakı səfiri prezident Zelenskinin administrasiyasına bizimlə müsahibə aparmasını qadağan edib...

**Yeni seçilmiş prezident Donald Trampın oğlu Taker Karlsonun Lavrovla müsahibəsini alqışlayaraq qeyd edib ki, jurnalist münaqişənin həlli istiqamətində hazırki Bayden administrasiyasından daha çox işlər görüb.**

**Rüstəm Hacıyev**

# Qala şəhərdir Şuşa!

**Şuşada 2023 dekabr ayında Media İnkişaf Agentliyinin təşkiltçılığı ilə 100 nəfərdən ibarət medir nümayəndəsi, televiziya mənsubları və könüllülərdən ibarət dəstə ilə getmişdik. Bu barədə səfər qeydlərimdə bəhs edəcəyəm...**

Bilmirəm nədən başlayım?

...Şuşaya təqribən gündüz saat 12-yə qalmış çatdıq. Arxadan gələn avtobusu bir qədər gözləməli olduq. Sonra bizi "Xarı bülbül" otel-restoranına nahar yeməyinə dəvət etdilər. Burada elə bil toy üçün yemək tədarükü görmüşdülər. Hər kəs sərbəsr olaraq istənilən yeməkdən, salatdan, meyvə şirəsindən, növbənöv ətdən hazırlanmış təamlardan götürə bilirdi. Xidmətçilər sadəcə nəzarət edirdilər...

Bura hündür bir yer idi, ətraf yaxşı görünürdü. Hər şeyə sonsuz maraqla, acgözlüklə tamaşa edir, hər şeyi bilmək istəyirdik...

Xəyallarım, düşüncələrim, bildiklərim məni ötən illərə, əsrlərə aparırdı. Elə bil Şuşa ilə yenidən tanış olurdum. Burada ermənilər yox olub getsə də qəribə hisslər məni bürüyürdü. Otuz il ərzində Şuşa düşmən tapdağına necə tap gətirmişdi? Pənahəli xanın, Vaqifin, Hacı Hüsünün, Məşədi Əsinin, Ağabəyim Ağanın, Mir Möhsümün, Nəvval Qarabağlının, Mirzə Güllərin, Xarrat Qulunun, Keçəçi oğlu Məhəmmədin, Sadıqcanın, Bülbülcanın, Cabbar Qaryağdıoğlunun, Seyid Şuşalının, dahi Üzeyirbəyin, Bülbülün, Xan Şuşalının, Qasım bəy Zakirin, Əbdürrəhim bəy Haqverdiyevin ruhu gəzirdi Qarabağın tacı olan Şuşanın göylərində... Güllələnmiş heykəllərin acı təbəssümü, cəlladların nankor arzusu təzadlı görünürdü. Neçə-neçə əsgərin, zabitin qanı ilə bu torpağın təşnəsi rahatlıq tapmışdı, Şuşa onlara halallıq vermişdi. İgidlərimiz Şuşanı elə cəsarətlə, həmlə ilə, cədlimlə ölümdən bir an belə qorxmadan geri almışdılar ki, indi də düşmən bilmir ki, bu necə oldu...

Düşmənin bilmədiyi çox çey var idi. Ən əsası isə, düşmən, halal torpağa sahib dursa da, daim məğənun və məğlub, qorxu və xof içində idi. Azərbaycan əsgəri isə döyüşmək, qisas almaq üçün Ali Baş Komandanın əmrini gözləyirdi. Belə məqam sentyabrın 27-də, sübh şəfəqləri söküləndə gəlib hamıya çatdı...

### *Şuşa şüşə kimi şəffaf idi*

Şuşadan söz düşdükcə ilk öncə dağların zirvəsində qala-şəhər, Tanrının qüdrətində yaranmış yeraltı sərvətlərlə zəngin, yetüstü sərvətləri zəngin təbiət muzeyi yada düşür. Havası təmiz və sərindir, Allah Qarabağdan heç nə əsirgəmədiyi kimi Şuşaya da dünya şöhrətli dahilər bəxş edib. Çayları, bulaqları şəfa qaynağı, can dərmanıdır.

Şuşanın ən yüksək zirvəsi Böyük Kirs dağıdır ki, hündürlüyü 2725 metrdir.

Bənzərsiz qədim şəhər olan Şuşanın havası, suyu, təbiəti, dağı, meşəsi, bitki örtüyü bənzərsizdir. Harada olsan da Şuşaya can atırsan: könül rahatlığı tapmaq, ruhu dincəltmək üçün. Deyirlər, şuşalıların hamısı ilhamla köklənmiş istedad sahibi, söz adamı, nadir sənətkardır. Burada olanda elə bil qəlbində ilham kükrəyir, sanki Tanrı imtahanına tələsirsən. Kirs, Şırlan, Armudlu, Əylis, Sınıqlı, Quşçular, Malıbəyli meşələri, İdrisli və Xəlfəli, Qarqar çaylaşrı boyu uzanıb gedən, bağların ətəklərini əhatə edən ormanlar bir təbiət xalısıdır. Havasının saflığı, təmizliyi, təbiətin bənzərsiz gözəlliyi Şuşanı kurort şəhəri kimi dünyada tanıdıb.

Əfsanəvi Cıdır düzü ənzərsiz bir yerdir, yarışma meydanı, toy bayram məkanıdır. "Xarıbülbül" beynəlxalq festivalı 80-ci illərdən başlayaraq keçirilib, 2020-ci ilin noyabrında qəhrəman Azərbaycan əsgəri rəşadətlə vuruşaraq Şuşa Zəfərinin təməlini qoyublar. Nakam sevginin rəmzi olan "Xarıbülbül" çiçəyi Cıdır düzündə, Topxana meşəsində, Uçmix zirvəsində, dağ yamaclarında bitir. Bu gözəl çiçək Zəfərin rəmzinə çevrilib.

### *Şuşa döyüşləri ən uğurlu döyüş əməliyyatı idi*

Jurnalist həmkarım Salman Alıoğlunun "Respublika" qəzetində (8 noyabr 2024) dərc etdirdiyi "Şuşa əyilmədi, sınmadı, bizi gözləyirdi və müzəffər xalq kimi gəldik" adlı oçerkini Şuşaya həsr edilmiş ən yaxşı yazılardan biri hesab etmək olar. Bu yazı vətəndaş yanğısı, əsl jurnalist qələmi ilə ərsəyə gəlib. "Şuşa döyüşləri" bölümündə yazılan bu qeydləri oxucuların diqqətinə çatdırıram: "Şuşa döyüşləri ikinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən ən uğurlu döyüş əməliyyatlarından biridir. Döyüşlər zamanı Azərbaycan Ordusunun bölmələri sıx meşələri, qayalıqları, keçilməz yarğanları və çətin dağ keçidlərini aşaraq Şuşaya istiqamət götürüb. Belə ki, noyabrın 7-cə ordumuz şəhərin yerləşdiyi sıldırım qayalara dırmaşaraq yüngül silah-sursat ilə düşmənin gözləmədiyi istiqamətdən Şuşaya daxil olub.




Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri səhərə bir çox istiqamətdən yaxınlaşmaq üçün yüz nəfərlik qruplara bölünüb...

Döyüşlər zamanı Şuşaya Ermənistan tərəfindən "İsgəndər" ballistik raketləti atıldı. Raketin hədəfi isə azərbaycanlı hərbçilər oldu. Hayların məğlub ordusunun salamat qalan əsgərləri deyirdilər ki, 1500 erməni əsgəri 5-6 Azərbaycan əsgərinin qarşısından qaçdı. Bəli, qaçırıq. Çünki qaçmasaydıq ölümümüz mütləq idi. Şuşa döyüşləri daha dəhşətliydi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq canavar sürüyə görən kimi içimizə giriblər, həm də yalın əllə çox dəhşətli bir döyüş idi. Şuşaya ilk daxil olan xüsusi təyinatlıların döyüşçülərini danışırlar ki, qədim qalanın azad edilməsində təbiət də, qala divarları da, göy üzündəki topa buludlar da bizi düşmən gülləsindən qoruyurdu, bizimlə birgə təbiətdə döyüşürdü. Hər döyüşçü Şuşanın azad edilməsində iştirak etməyi arzulayırdı.

Daşaltıdan Şuşaya bir döyüşlük yol var idi. Bu döyüşün ağır döyüş olacağını bilirdik. Bu döyüşü də qələbə ilə başa çatdıracağımıza əmin idik. Mövqe qələbələri, Daşaltınınm ermənilərdən təmizlənməsi döyüşçülərimizin döyüş əzmini, qələbə ruhunu kükrətmişdi. Şuşa bütün əzəmətiylə görünürdü. Şuşa uğrunda gedən döyüşlərdən adi emosiya ilə danışmaq mümkün deyil. Bu döyüş dünya müharibələri tarixində heç bir döyüşlə müqayisə oluna bilməz".

Bəli, Şuşanın sərt qayaları, qala divarları da əsgərlərimizi düşməndən qoruyurdu. Dumanlı hava şəraiti də düşmənin gözlərinə pərdə çəkmişdi. Azərbaycan qüvvələri düşmənin Şuşaya gedən yollarını kəsib pusqu yerləri qurdular. Daşaltını əhatəyə almaqla Şuşaya gedən əsas yola çıxışı dərhal təmin etdilər. Çox keçmədi ki, bölgələrimiz şəhərə girməyə başladılar, müdafiə olunan ermənilər yaxın məsafədən ağır küçə döyüşlərinə cəlb etdilər. Şəhər uğrunda döyüşlər şiddətləndikcə düşmən çaş-baş olur və ağır itkilər verməklə qaçmağa məcbur edilirdi.

Şuşa döyüşləri zamanı Azərbaycanın cəsur döyüşçülərinin Vətən sevgisindən yazan rus mətbuatında göstərilirdi: - Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı. Azərbaycan Ordusu. Nə yaralısı, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar...

Əziz Şuşa, sən azadsan!

"Əziz Şuşa, biz qayıtdıq!"

Bu müjdə ilə xalqımızın 28 illik ağrılı həsrətinə son qoyuldu, düşmən diz çökdürürdü. Müzəffər Ali Baş Komandan, İlham Əliyev noyabrın 8-də gündüz saatlarında Qarabağın tacı olan məharətlə gerçəkləşdirilmiş Şuşa əməliyyatının uğurlu sonluğu barədə sevincli xəbəri xalqımıza çatdırdı. Azərbaycan Ordusunun xüsusi təyinatlıları erməni qoşunlarını məhv edərək noyabrın 8-də Şuşa şəhərini düşməndən azad etdilər, Şuşada Azərbaycanın bayrağı qaldırıldı. Şuşa Zəfəri, öz hərbi-siyasi önəmi ilə müharibənin taleyini həll edi. BMT-nin qətnamələrini Azərbaycanın yenilməz əsgərləri döyüş meydanında icra etdilər. Düşmən danışıqsız kapitulyasiya aktını imzalamağa məcbur edildi. Dünya Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərkərdəlik məharəti, qətiyyəti, ordunun və xalqın gücünə arxalanmağı nəticəsində modern, peşəkar, cəsur, qəhrəman Azərbayca Ordusu qısa bir zamanda düşmənin işğalına, torpaqlarımızın yaşı 200 ildən çox olan separatizm yuvasına, ermənilərin əsassız torpaq iddialarına son qoyuldu. Qalib xalqın qalib Ali Baş Komandanı İlham Əliyevin dəmir iradəsi, fədakarlığı, qəti mövqeyi, siyasət meydanında cəsarətli savaşı, ordumuzun hünəri işğala birdəfəlik son qoydu, ləyaqətimiz və şərəfimiz, qürurumuz, nüfuzumuz bərpa edildi...

Şuşa yarası sağaldı, çoxillik həsrətə son qoyuldu.

Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəfli bayrağımızı ucaltdıqdan sonra hərbçilərlə görüşdə çıxış edərkən demişdir: "Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, dərələdən keçərək, Onlarla kilometr məsafəni qət edərək qəhrəman hərbçilərimiz yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlayıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib.

### *Şuşa açıq səma altında muzeydir*

Şuşa qədim tariximizin, mədəniyyətimizin yadigarı, ana təbiətin zümrüd tacıdır, tarixi abidədir, milli memarlıq nümunəsidir. Bu qədim qala-şəhər XIX əsrin sonlarından "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası" adlandırılıb. Ermənilərin vəhşiliyindən yaralar alan Şuşa öz milli koloritini saxlaya bilib, onusilməyə düşmənin gücü çatmayıb. Qədim mədəniyyət ocağı olan Şuşa Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Şuşa şəhəri işğal edildi. Şuşa yaradanın yer üzünə bir ərməğanıdır, Azərbaycan musiqisinin, adət-ənənəsinin, tariximizin, mədəniyyətimizin paytaxtıdır, füsunkar gözəlliyi ilə hər kəsi heyran edir. 2022-ci il ölkəmizdə "Şuşa ili" elan edildi. Bu münasibətlə Şuşada bir çox mədəni tədbirlər həyata keçirilib. Şuşada qədim tariximizin, mədəniyyətimizin yadigarları çoxdur. Burada aparılan tikinti-quruculuq işləri şəhərin tarixi-memarlıq xüsusiyyətlərinə uyğun aparılır, Şuşaya yeni ruh, yeni nəfəs gəlir, buranın torpağı, daşı, gülü-çiçəyi sevinir, minarələrdən azan səsi ucalır...

### *Mədəniyyətləri qovuşduran məkan*

Şuşa haqlı olaraq dünyada mədəniyyətləri qovuşduran bir məkana çevrilmişdir. Burada keçirilən beynəlxalq tədbirlər buna misaldır.

Şuşada tarixi, mədəni, dini abidələr milli memarlıq üslubunda bərpa olunur. Bərpa işlərinin böyük bir qismi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Şirin su hamamı, Azərbaycan tarını təkmilləşdirən tarzən Sadıqcanın evi, Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidləri, Mehmandarovların malikanəsi, digər abidələr Heydər Əliyev Fondu tərəfindən bərpa edilir şəhərin görkəmi dəyişir, müasir görkəm alır.

Dünyanı heyran qoyan Şuşanın 270 yaşı var. Şuşanı vaxtilə iqamətgah olaraq seçən Pənahəli xan Cavanşir 1752-ci ildən bui şəhərin quruculuğuna başlayır və buranı təkcə inzibati mərkəz deyil, həm də mədəniyyət mərkəzinə çevirmişdi.

O vaxtlar Qarabağdan və Azərbaycanın müxtəlif gişələrindən ən yaxşı ustaları, ən yaxşı musiqiçilər, ən yaxşı ustaları, ən yaxşı musiqiçilər, ən yaxşı qələm ustalarını, xalçaçıları buraya toplamağa başlamış, Şuşa tezliklə Qafqazda, Yaxın və Orta Şərqdə mədəniyyətlərin qovuşduğu məkana çevrilmişdir.

Dövlət qeydiyyatına alınmış tarix və mədəniyyət abidələrinin siyahısına Şuşa rayonu üzrə 210 nümunə var. Bu abidələrin 1-i dünya əhəmiyyətli memarlıq, 44-ü ölkə əhəmiyyətli memarlıq, 5-i ölkə əhəmiyyətli arxeoloji, 155-i yerli əhəmiyyətli memarlıq, 5-i yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abiələridir. Şuşa Tarix-Memarlıq qoruğu 2001-ci ildə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan maddi-mədəni irsin siyahısına daxil edilmişdir. Erməni quldurları Şuşa şəhərindən külli miqdarda tarixi eksponatlar və muzey əşyaları aparıblar və onların bir çoxu xarici ölkələrdə satılıb, bir qismi isə erməni maddi-mədəniyyət nümunəsi kimi nümayiş etdirilir. Bu isə onlara şərəf gətirmir.

### *Şuşaya Zəfər yolu ilə*

Şuşa bizi duz-çörəklə qarşıladı. Şəhərin görməli tarixi-memarlıq, təbiət abidələri ilə, küçə və döngələri ilə lap elə Cıdır meydanı ilə acgözlüklə tanış olduq, İsa bulağının dupduru suyu ürəyimizə sərinlik gətirdi, yaşıl hörüklü meşələr bizə "gəl-gəl" deyirdi. Qala divarını keçib Xankəndini, Xocalını seyr etdik. Qanlı döyüşlər, qaçqınların dalğası, dığaların qaçması, qəhrəman əsgərlərimizin yenilməzliyi, Zəfəri xəyalən də olsa xatırladım. Çox təəssüf ki, vaxtımız az oldu, Şuşanı qarış-qarış gəzə bilmədik. Vətən qibləsinə olduğumuz müddət hər bir cığırına qələbə hopmuş Şuşa bizi çörəklə qarşılayıb, çörəklə də yola saldı.

Zəfər yolu ilə Şuşaya gəlmişdik, eləcə də qayıtdıq, ağaclar, uca dağlar bizə əl edirdi.

Bakıya dönərkən Şuşanın azadlığının qüruruna, vüqarına köklənmişdik.

Qədim qala divarlarına sonuncu dəfə baxdığım anlar kino lenti kimi gözlərimin önünə gəldi.

İstər-istəməz tarixin dərin qatlarına enirsən: cərgə ilə sıralanmış binalar, əl-ələ verib yallı gedən hər şeyə şahid ağaclar, Şuşanın ruhu bütün incəliyilə bizi gələcəyə səsləyir, yönləndirirdi.

**-Əlvida, Şuşa, sənə qalibiyyət, Zəfər yaraşır!**

**İdris Şükürlü**



*Allahverdi Eminov*

# İnsanın rəngi

Esse

İnsanın rəngi necə olur? - Sualına bioloqlar və antropoloqlar, rəssamlar və yazıçılar cavab axtarmamışlar, hər bir fərd (individ) güzgüyə baxanda xatırlamış ki, mən ağ, qara və sarı irqə məxsusam, bu rəngdə doğulmuşam. Qara (zənci) öyünür: seçilirəm, fəxrlə düşünürəm ki, super idmançıyam, neçə-neçə ağ rənglisinə qalib gəlmişəm. Ağ cinsli adamlar qürurlanır ki, qaraları qul kimi işlədirəm, onların yaşadıqları ölkələri zəbt etmişəm, qazandıqları cibimə axır. Sarı payız yarpağına bənzər adam yalnız ölümünü fikirləşir: "bu gün - sabahlığam". Sarı qismətini belə an-layır. Bu "üç"lük bilməlidir İnsanları enerji qatı - aura əhatə edir. "Aura" isə kosmik enerjinin əks olunmuş bir formasıdır və hər insan mühitinin öz şəkli, sıxlığı, rəngi var. Maraqlıdır, kompüter dövründə auranın şəklini çəkməklə insan xüsusiyyətlərini (xarakterini) öyrənmək də mümkündür.

Deyə bilərik ki, dilimizdə elə ifadələr işlədirik: "dərddən qanım qaraldı", "qorxudan ağladım", "həyəcandan saraldım", deməli, bu gileylər insanın aurasına işarədir ("aura" sözü yunanca "külək", "meh" deməkdir). Unutmayaq ki, insanın fərqli psixi - emosional vəziyyətlərində auranın rəngi dəyişir.

Haşiyə çıxaq ki, ekstrasenslər insan aurasını gözlə görə bilirlər. Bir ekstrasens xatırlayır ki, auranı ilk dəfə 33 yaşında ikən görmüşdür və belə təsvir edir: bu zaman qadın dənizin üstündə uçuşan qağayıları müşahidə edirmiş. Birdən quşu əhatə edən parlaq yaşıl rəng görür...

Belə yozmaq olar ki, insanın fikirləri onun aurasının rənginə təsir göstərir. Belə pəjmürdə insanda paxıllıq, intiqam almaq hissi, cinayətə əl atmaq və sair fəsadlar törətmək auranı tünd rənglərə boyayır.

Mütəxəssislərin şəhadətinə görə aura insanın ilk nəfəsilə yaranır, son nəfəsilə bitir, yəni aura orqanizmin kosmik enerjisilə qarşılıqlı əlaqəsidir. İnsanın mövcud halını müşayət edir. İnsanların durumu, xasiyyəti nəzərə alınarsa, aurasının rəngi və ölçüsü elə də fərqlənmir. O fikir də söylənilir ki, mənəviyyatı güclü insanların aurasının həcmi, sıxlığı daha çoxdur, rəngi tamdır, yumrudur, üçküncdür. Məsələn, yumru aura mükəmməl, tam xarakterli adamlara xasdır. Üçkünc aura o insanlarda olur - adamları ən çətin vəziyyətlərdə müdafiə edir. Bəs ekstrasenslərin aurası necədir? Onlar etiraflarında bildirirlər ki, "ulduzşəkilli" auraya malikdilər. Belə ki, aurada oxlar görünsə, deməli, insan gərginliyini yaşayır, stress halını keçirir.

Bu xatırlatdığımız nəzəri mülahizələr və müşahidələr auranı özündə əks etdirdiyi İnsan rəngləri müəyyənləşdirilmişdir. Oxucular üçün maraqlı olmaya bilməz: Mavisi sağlamlığa, narıncı ünsiyyətə və səmimiliyə işarədir. Təmiz qırmızı rəng fiziki fəallığı göstərir. Qırmızının - tünd qırmızı çaları eqoizmdən xəbər verir. Açıq sarı və tünd sarı - ağıllı, zalım adamları əhatə edir. Parlaq yaşıl - həyatvericilik, bulanıq yaşıl - xəbislik əlamətidir. Tünd göy mənəviyyata mesajdır.

İnsan rənginin "pis adam" olmasına bəraət qazandıranı yox deyil və yalnız təəssüf doğurur. Bu fikri xatırlatmaq istmədik, lakin düşündük ki, bir ibrət olar, barı, o adamlar özlərini tanısınlar. Açıq - qırmızı rəng əsəbilik, tünd - narıncı kinlilik, qara bədbinlilk, qapalılıq, tünd - qəhvəyi xəstəlik əlamətlərini özündə ehtiva edir.

Lüğət fondumuzda "boz" rəng adlanan bir nəsnə də var. Yazıçılar, şairlər, rəssamlar bu rəngin yaxşı tərəfini daha qabarıq verirlər, təsvirlərində Təbiətin dərkində vasitə olur, boz dağ öz sərvətlərini əsirgəmir isanlardan. Amma bu rəng və onun "törəmələri" heç də məmnunluq oyatmır: dəyərsiz, ağıldan kasad, həyat enerjisindən məhrum insanları xatırladır, amma boz rəngə birmənalı yanaşmada yanlışlığa da yol verirlər: "boz adam"! Elə düşünməzdik. Sözü üzə deyən, həqiqəti birbaşa çatdıran, cəzasından belə çəkinməyən boz adamların qıtlığı yaranmışdır. Layiq ol-madığı titulları simasızlığı, əlini yuxarı qaldırmaqla əldə edən boz soydaslarımıza, yəni ləyaqətlilərə necə də ehtiyaclıyıq! Millətimizin "seçdiyi" tünd qırmızı, açıq sarı, qara rəngli vəkillərimiz kaş boz rəngdə doğulaydılar. Onlar ekstrasens cildinə girməyəydilər.

Mən ekstrasens deyiləm, pedaqoq - yazaram və on illərlə gözümü bağlamayıb, dilimi qıfıllamayıb, ağlımı korşaltmayıb yaxşı aura axtarışında olmuşam, qələmimdə səmimi, halal, humanist insanları təsvir etmişəm. Sevgililərin pak məhəbbətini, zəngin iradəsini, parlaq arzularını duymuşam. Sevgililərin işıqlı rəngi məni sevindirmişdir. Sevgililərin rəngi dəyişmir, çünki kosmik enerjilə isinirlər.

Amma rəngin dərin fəlsəfəsinə varanda heç də nəzəri mülahizələrə tam üstünlük verməк nikbinliyindən xeyli uzaqlaşırsan. Paradoks deyilmi?! Bu məsələdə necə deyərlər: nə atanı, nə ananı məhşər ayağına çəkməyə ehtiyac qalmır, qaralara, ağlara və sarılara cinsləri ayırmaq, dinlərində əqidəsinə qeyri - məqbuldur, bəşər övladları Allah - Təalanın xəlq etdiyi bəndələrdir. İnsan məxluqatını təfəkkür deyilən fenomenal bir möcüzə ilə "silahlandırıb" ki, özünü qoru, tələbatını ödə, törəyib art, ancaq qəbahətlərə əl atma! Qəlbinin səsini eşit, çünki o hissiyyatın, duyğuların mərkəzidir. Təfəkkür təkbaşına dəyər ifadə etməkdə acizdir, ona ən doğru istiqamət verəcək qəlbdir. Mənəviyyatın məhəg daşı (meyarı) olan insan ruhu və qəlbi çirkaba bulaşmış fəsadlara yaxın durmamalıdır. Başa düşməyə borcludur ki, xeyirxahlıqda "orta hədd" götürməlisən. Qəlbin pıçıltısını eşitməlisən və mövcud mühitin sosiallığına əməl etməlisən. Sual olunur:

"Qəlb" nəyə deyilir? İnsan duyğularını və qavrayışını özündə yaşadan (ehtiva edən) fəaliyyətin mənbəyidir. İnsan məqsədyönlü davranışında (hərəkətlərində) qəlbinin qüdrətini təcəssüm etdirir. Bununla insan ruhunun (canının) təkamülünə nail olur, onun (fərdin) həssaslığı, diqqəti simasında, sifətində izini qoyur, təbəssümü işıqlanır, işraq (parlatma, nurlandırma) cizgiləri oxunur, bədən canlanır, insaniyyət dirilir. Qəlbi canlı, oyaq və ayıqlaşır, bir sözlə, fiziki və mexaniki hərəkətlər ahəng yaradır. O, özünü qara, ağ və sarı kateqoriyada axtarmır, bu şərti bölgünü qəbul etmir, özünə sığışdırmır. Maddi tələbatlarını hisslərinə, nəfsinə qurban vermir. Qəlbi - ruhu - canı rahatlanır, duyğusu, qavrayışı diqqətinin ixtiyarına keçir. Belə vəziyyət insanda, deyək ki, bir fərddə özünü tapırsa sosial mühiti qiymətləndirir: Vətəninin siyasi qalmaqallarda durumunu, xalqının düşdüyü müvəqqəti vəziyyəti, hətta qonşusunun durumunu vəzifəsi, səlahiyyəti daxilində qiymətləndirməkdə vicdanın səsini eşidir. Sevgisində də aldatmır nə özünü, nə kimsəni.

Maraqlı odur (yazılanlara inansaq): "Azərbaycanımızın qırx səkkiz milyard halal pulunu çırpışdırıb haram ofşar banklarda" xaricilərin girovuna qoyurlar. Belə vəzifə etibar olunan korrupsionerlər, maqnatlar, dovşan cildində canavara hücum çəkənlər... sözün həqiqi və məcazi mənalarında cinayətkar olsalar da sərbəst və cəzasız kef - damaqda ömürlərini yaşayırlar: Eh, Nə gözəl zəmanədir!

Bu günün bu cür qəlbsiz, könülsüz, mərhəmətsiz insanları bir amala bağlı deyillər (halbuki, insan heç vaxt qəlbini, ruhunu iki sevgiyə verə bilməz), beləlləri üçün yaltaqlıq, mənən əyilmək, "sual" işarəsi olmaq və külli miqdarda sərvət əldə etmək! Belə "kişilər", başı "papaqlılar", əlvan "qalstuklular" xalqı talayır, fövqəl həyat sürürlər. Bu cür sərvət onları düşmənlə həmfikir edir, gizlin siyasi və maddi alış - verişə bağlayır. Və təntənə ilə zildən səslənirlər: Eh, nə gözəl zəmanədir!

Tarixi müşahidələr də təsdiq edir ki, o nəfsi qılınc nakeslər var dünyanı sevirlər, maddi - şəhvani və heyvani ləzzətləri arzulayırlar - onlar xalqını, Vətənini, Basçısını sevməzlər, insaniyyəti (adamlığı), səmimiyyəti, qonşuluğu yaxına buraxmazlar: həm həqiqi, həm də məcazi mənada. Sevdiyi məhz bunlardır! Sapıntılar, azğınlıqlar, özbaşınalıqlar ondan törəyir ki, mənəvi - ruhi, maddi pozuntular, nəfslər yaşamaqdadır, qanunlar tərəfindən öldürülməmişdir! Buna ehtiyac görünmür qəhqəhələr içində: Eh, nə gözəl zəmanədir!

İnsanın rəngi yalnız fiziki səciyyə ilə şərtlənmir və coğrafi, iqtisadi, siyasi vəziyyəti və s. faktorlarla ölçülmür. Bu sadalananlar öz yerində: insanların fikirləri, əməlləri, istəkləri onun təbiətini müəyyənləşdirir, əxlaqını reallaşdırır, hərçənd, qütb və tropik zonalarda yaşayanlar qalın, isti paltar geyinməyə məcburdurlar, onlar ağ, qara, sarı rəng alırlar, lakin bu amil heç də xalqların xarakterini dəyişdirmir: ya yaxşılığa, ya da pisliyə aparmır, mütləqləşdirmir! Yəni hər iki halın təbii kökü yoxdur, yalnız formal coğrafi yaşayış mühitinin məhsuludur. İnsanların (xalqların) ge-yim tərzi, zahiri görkəmi, adət - ənənələrindəki fərq onların xarakterindəki bəşəri humanizmini aradan götürmür. Əksinə, öz mənbəyini insan varlığından (təbiətindən) götürən, xarici səbəblərlə (amillərlə) müəyyən olunmayan hər cür fikirlər, atılan addımlar (əməllər) insana məxsusdur, hisslərinin diqtəsidir. Beləliklə, bu cür islər insanda "fitri", heyvanda "təbii"adlanır. Bəzi mütəxəssislər ikinci (təbii) xislətdə fərdin özünü günahlandırırlar, xüsusilə, genetiklər: bu fikirdə həqiqəti inkar etməzdik, lakin bəlanın, qəbahətin, fəsadın formalaşmasında xarici mühitin, təmsil olunduğu ölkənin (dövlətin) çıxardığı qanunların işləməməsi: qanunun "şah" yox, məmurların "şah" olması ucbatından cəmiyyətdə tarazlıq pozulur, tərəzinin gözü əyilir! Hətta necə deyərlər: bal arısının güllərin, çiçəklərin şirəsindən məhrumluğu yaranır, torpaqlar pullular tərəfindən monopoliyaya alınır, alt üstünə çevrilir mal - qaranın, qoyun - davarın ayaqları altında inləyir, cinsi məlum olmayan bitkilər əkilir, bazarlarda satılır, ağaclar qırılır. Bakımızın ətrafı və içi əyani sübutdur. Bakımız qəşəng səsli quşların kəskin qıtlığındandır, alaqarğaların ixtiyarındadır, bu vəh-şilər isə zəif və zərif qumruları yeyirlər! Böyük təbiətşünas alim "Həyəcan təbili" kitabının müəllifi, mərhum akademik Həsən Əliyev mənə danışmışdı ki, Bakıya qumru quşlarını (heyif ki, sayını unutmuşam) o gətizdirmişdi (Halbuki, artıb - çoxalmaq əvəzinə azalmaqdadır). Belə xeyirxahlıq ilahilikdir!

***P.S.** Əlbəttə, nəfsi tox vəzifəlilər, canıyanan biznesmenlər, pedaqoq -müəllimlər haqqa, ədalətə şüurlu hisslərlə yanaşırlar, bu addımı qəlb - könül hissiyyatı ilə atırlar, vətəndaşları qapı arxasında saatlarla intizarda qoymurlar, imkansızlara əl tuturlar. Candan - ruhdan qidalanan fitri əməllər dünyəvidir. Onlara sual etsən ki, İnsanın rəngi varmı? Yalnız ironiya ilə sualı qarşılayacaqlar...*

# Oğru hayların gözü yaşlı: Qarabağ kimi təndir çörəyi də Azərbaycanın imiş

**Haylar Çar Rusiyasının murdar siyasəti sayəsində Qafqaza yerləşdikdən sonra özlərinə dövlət qurmaq eşi ilə yaşadılar. Dövləti qurmağın isə əvvəlcə onun dövlət olmasını təmin edən bir sıra şərtləri olmalıdır. Köçəri və qaraçı hind tayfalarından olan hayların belə bir bazası yox idi.**

Hay ideya müəllifləri Qafqaza gəldikləri ilk gündən - 1813-1828-ci ildən başlayaraq yerli xalqlara məxsus dövlətçilik ənənələrini yerli xalqların milli atributlarından oğurlamaqla yaratmağa başladılar. Əvvəlcə torpaqlarımızı, şəhər və kəndlərimizi, tarixi abidə və məbədlərimizi, musiqi , rəqs və mahnılarımızı, tikmə, toxuma sənət nümunələrimizi, ümumiyyətlə , gözlərinə görünən hər adda milli irsimizi həyasızcasına oğurlamağa başladılar. Oğurladıqlarının içərisində isə xalqımızın kulinariyasına məxsus şirniyyatlar, yeməklər, çörəklər əsas yer tutdu.

Məsələn, mətbəximizin bəzəyi olan dolmanı "tolma" adlandırıb öz adlarına çıxmaq istəyən haylara 2017-ci ilin 4-9 dekabr tarixində layiqli cavab verildi.

Cənubi Koreya Respublikasının Jeju adasında keçirilən UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 12-ci sessiyasında Azərbaycanın təqdim etdiyi "Mədəni kimliyinin hissəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi" UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edildi . Yəni , Dolma Azərbaycan xörəyi kimi qeydə alındı.

Buna bənzər hadisə Lavaşımızın da başına gəldi.

Şükür ki, 2016-cı ilin 28 noyabr - 2 dekabr tarixində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyanda Azərbaycanın təşəbbüsü ilə Azərbaycan, Türkiyə, İran, Qazaxıstan və Qırğızıstan tərəfindən UNESCO-ya birgə təqdim edilən "Lavaş, katırma, jupka, yufka - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti" UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildi.

Qafqazda məskunlaşan hindli qaraçılar uzun illərdir ki, təndir çörəyi ilə bağlı iddialar edir ki, guya yaşadıqları ərazi "böyük Ermənistan" ərazisi olduğu üçün bu ərazilərdə bişirilən və ləzzətinə, qoxusuna doyum olmayan təndir çörəyi bunların ulu babalarından, ulu nənələrində qalıb. Təndir çörəyini gah Tatev, gahda Razdan adı qoymuş haylar adıgedən şəhərlərdə təndir çörəyinin qədim tarixə malik olduğunu da deməyi unutmayıblar.

Bir ağlı başında olan hay da çıxıb demir ki, 1959-cu ilədək Axta rayonu adlandırılan həmin o Razdanda 1897-ci ilə qədər ancaq azərbaycanlılar yaşayıb.

Tatev də (tat-evi) haylar Qafqaza gələnə qədər Gorusun tərkibində olan bir kənd imiş...

Uzun sözün qısası, burda qədim zamanlarda biri təndir qalayıb, çörək bişiribsə, bu əlbəttəki rusların 1828-ci ildə Qafqaza sürdükləri qaraçı taburlarının ulu babası deyil, tam türk əlləridir.

Sosial şəbəkələrdə hay və türk(azərbaycanlılar)arasında qarşıdurmaların böyük əksəriyyəti hayların bizdən oğurladığı mədəni irsimizlə bağlı olub.

Adalet.az xəbər verir ki, nəhayət uzun illərin dartışması həqiqətin təsdiqlənməsi ilə başa çatıb.

Beləki, 2 dekabrda başlayan və 7 dekabra qədər Paraqvayın paytaxtı Asunsion şəhərində UNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 19-cu sessiyası işinə başlayıb. Budəfəki sessiyada "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı milli nominasiya faylının UNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi qərara alınıb.

UNESKO-nun Qiymətləndirici Orqanı tərəfindən müvafiq meyarlar üzrə müsbət rəy alan nominasiya faylına dair qərar 3 dekabrda elan edilib. Ümid edirik ki, bir gün ermənilərin özəlləşdirərək "cinqalov xats" dedikləri Qarabağ mətbəxinə məxsus göy kətəsi (göy qutabı) də əsl sahiblərinin malı kimi dünyaya tanıdılacaq.

**Zatən Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru olmuş Tahir Əmiraslanov da deyirdi ki, erməni kulinar Boqos Piranyanın 1914-cü ildə erməni dilində nəşr olunmuş "Gənc aşpaz" kitabında 243 yemək resepti göstərilsə də, aralarında erməni yeməklərinə aid heç nə yoxdur. Onun sözlərinə görə, peşəkar aşpazın erməni tələbələr üçün yemək kitabı yazaraq erməni mətbəxindən bir dənə də olsun yemək reseptini təqdim etməməsi ümumiyyətlə Ermənistan mətbəxinin saxtakarlıq üzərində qurulmasını göstərir.**

**Əntiqə Rəşid**

## Antalyanı Santa Klausun izi ilə kəşf edin

**Antalya Türkiyənin turizm paytaxtı, yay tətili üçün turistlərin vazkeçilməz məkanıdır. Amma Antalya qış mövsümündə də turistlərin sevimli istirahət yeridir. Rəvayətə görə Antalya Santa Klausun doğulduğu, böyüdüyü və əfsanəyə çevrildiyi ərazidir. Santa Klausun doğulduğu Antalyanın Demre bölgəsinin turistlərə nələr vəd etdiyinin şahidi olaq.**

### *Xeyirxahlığa həsr olunmuş bir ürək*

IV əsrdə doğulan Müqəddəs Nikola (Santa Klaus), Patara adlı məşhur Likya şəhərində zəngin bir tacirinin oğlu idi. Nikolaos kimi tanınan bu şəxs, illər boyu Likya dövlətinin paytaxtı Myranın yepiskopu kimi xidmət göstərmiş və həyatını xeyirxah işlərə, yoxsullarla hər şeyini bölüşməyə həsr etmişdir.



O, bir çox insana kömək etmiş, pəncərələrə və bacalara hədiyyələr buraxaraq, uşaqların, tacirlərin və dənizçilərin himayəçisi kimi tanınmışdır.

### *Möhtəşəm paytaxt*

Müasir Antalya sərhədlərində yerləşən Demre bölgəsindəki Myra Antik Şəhəri, o dövrdə Anadolunun ən böyük ikinci yepiskop mərkəzi sayılırdı.

"Möcüzələr Müqəddəsi" olaraq tanınan Müqəddəs Nikola, xeyirxah əməlləri ilə Myra xalqının sevgisini qazanmışdır. O, 6 dekabr 365-ci ildə xidmət etdiyi kilsədə dünyasını dəyişəndə bütün bölgə onu dərin kədər içində yad etmişdir.

Bu dəyərli insanın xatirəsinə antik şəhərdə məqbərə və bazilika tikilmişdir. Müqəddəs Nikola ilə əlaqəli möcüzələrin təsvir edildiyi bu bazilika, zəlzələlər və hücumlar nəticəsində ciddi zərər görmüş, IX əsrdə isə günbəzli kilsə kimi yenidən tikilmişdir.

### *Yeni görkəmli Müqəddəs Nikola Kilsəsi*

Arxitektura üslubu və dizaynına görə Orta Şərq Roma dövrü abidələrinin ən görkəmli nümunələrindən biri sayılan bu kilsə, Orta əsrlərdə Aralıq dənizi marşrutu ilə Yerusəlimə səfər edən xristianlar üçün mühüm ziyarətgah olmuşdur.

2000-ci ildən etibarən UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilmişdir.

Keçən il Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən aparılan bərpa və abadlıq işləri sayəsində Müqəddəs Nikola Kilsəsi indi ziyarətçilərini yenilənmiş görkəmdə qarşılayır.

Kilsədə balıq pulcuqları və akantus yarpaqları ilə bəzədilmiş Roma dövrünə aid sarkofaq yerləşir. Bu sarkofaqın Müqəddəs Nikola ilə bağlı olduğu düşünülür. Nikolaya aid bəzi sümüklər isə Antalya Muzeyində nümayiş olunur.

Demre səfəri zamanı Aralıq dənizinin mülayim və günəşli qış havasından zövq alaraq Myra Antik Şəhərinin bir çox xəzinələrini də ziyarət edə bilərsiniz. Antik şəhərə çatanda qayalarda oyulmuş məzarları və qədim Roma teatrını görərək şəhərin tarixi zənginliyini hiss edəcəksiniz.

**Myra Antik Şəhərindən Andriake adlı qədim limana doğru gedə bilərsiniz. Andriake, hər küncündə sarkofaqlar, məzarlar və şəhər divarı qalıqları ilə özünəməxsus bir məkan olaraq tanınır. Andriake artefaktlarının çoxu Likya Sivilizasiyaları Muzeyində nümayiş etdirilir.**

---

**VAQİF YUSİFLİ**

# KÖNÜL DƏRGAHINA YOL



**Sufi təliminə görə yaranmışların ən dəyərlisi olan insan (əşrəfül-əşya) əbədi həqiqət aləminə qovuşmaq üçün müəyyən sınaqlardan keçməlidir. Yəni insan, öz kökünə, əslinə qayıtmalıdır, cüzvlər küllə, damlalar dəryaya qovuşmalıdır.İnsandan Allaha yol bax, bu yol insanı kamillik mərhələsinə aparıb çıxarır. Sufilərə görə bu yolu başa vurmaq üçün insan Şəriət, Təriqət, Mərifət və Həqiqət mərhələlərini keçməlidir. Təsəvvüfün orta əsrlərdə ən qüvvətli bir dinifəlsəfi cərəyan olduğunu təsdiqləməyə ehtiyac yoxdur. Görkəmli tənqidçi Yaşar Qarayev yazırdı ki: "Təsəvvüf-həm din, həm də fəlsəfədir, yaxud, ayrılıqda nə din, nə də fəlsəfədir. Dindən fərqi: insanı və təbiəti o, xaliqin yaratdığı, yoxdan var etdiyi xilqət hesab edəmir, xaliqin özü, onun zərrələri, görüntüləri hesab edir. Dindar ibadətlə, sufi-eşqlə, kamala yetməklə haqqa yetmək yolunu tutur".**

Ümumiyyətlə, islam təsəvvüfü ilə bağlı çox mətləblər bizdə hələ tam açılmayıb. Xüsusilə,təsəvvüfün poeziyada və incəsənətin digər sahələrində inikası məsələsi də öz geniş, konseptual həllini gözləyir. Belə məsələlərdən biri də İRFANdır. Nədir irfan? Əgər belə demək mümkünsə, lap qısaca bir cavab: İrfan təsəvvüfün poeziyasıdır, Allahın özünü, onun yaratdığı gözəllikləri, insan kamilliyini Eşqin gözüylə oxumaqdır.

Allaha doğru yol Allahı sevməkdən başlanır və bu, ilahi eşq ilə mümkündür.İlahi eşq irfan poeziyasının başlıca atributudur.İnsan öz Allahını dərk etməyə və ona qovuşmaq üçün, yəni Həqiqətə çatmaq üçün bütün ömrü boyu yol getməlidir. İndi müasir poeziyamızda irfan düşüncəli şair kimi tanıdığımız Fəridə Hacıyevanın şeirlərində də Tanrı dərgahına gedən yolu izləyirik.

Bu xanımın 60 illiyi ilə əlaqədar yazdığım bir məqalədə qeyd etmişdim ki, onun Tanrı ilə mənəvi, ruhi bağlılığı da məhz irfan düşüncəsindən gəlir.

*Əvvəl də sən, axır da sən,*
*Uzaq da sən, yaxın da sən.*
*İman da sən, qorxum da sən*
*Ya Rəbb, sənə sığınıram.*

Fəridə xanımın fikrincə, ruhən Allaha ən yaxın insanlardan biri- böyük ürfan şairi Mövlana Rumidir . Fəridə xanım da öz şeirlərində Mövlana Rumiyə pərəstiş etdiytini dönə-dönə etiraf edir.

Və yazır ki: "Həzrəti Mövlana elə bir varlıq, elə bir parlaq Günəşdir ki, onun yaylığı qızılı tellər min-min könüllərə sevgi adlı gözəllik bəxş edir. Onun əsərlərinin sehri insanların həyat məktəbinə çevrilir".Əlbəttə, Rumi dünyasına, onun Eşq fəlsəfəsinə vaqif olmaq o qədər də asan deyil, amma Mövlanaya sevgi varsa, onun yaydığı zərrələri öz dünyanda tapacaqsan.

*Dərgahına gəlmişəm.*
*Könlüm gözəllik arar.*
*Varlığımdı inancım*
*Məni məndən ayırar.*
*Dərgahına baş əyib*
*Tanrıma şükr edirəm.*
*Eh... qəlbimə dəyməyin*
*Dərviş olub gedirəm.*

Fəridə Hacıyevanın yeni şeirlər kitabının adı da "Könül dərgahım" adlanır. Həmin kitaba ön söz yazan Sənan Nağının bu fikiri ilə tam razıyam ki: "O, mərifət sevgisini,həqiqəti axtarır. Bu fani dünyaya həyat verən, onu canlandıran haqq dərgahından gələn, içi boş qupquru bir qamışdan hazırlanmış neyi ruhlandaran nəfəsi axtarır. O nəfəs ki,cənnətin xəbərçisi, insanlığın gövhəridir" Amma onu təkcə bir ürfan şairi kimi yox, daha çox çağdaş dövrun həqiqətlərini öz könül dərgahından müasirlərinə çatdıran şair kimi də izləyirik. Fəridə xanım müasir qadın yazarları arasında özünəməxsus poetik deyim tərzi, SƏS və NƏFƏS bənzərsizliyi ilə seçilir, fərqlənir. Əksər qadın şairlərimiz əsasən şeirlərdə öz könül dünyasını, həyata, gözəlliyə münasibətini, eşq-məhəbbət çırpıntılarını, real həyatla bağlı düşüncələrini bəyan edirlər. Fəridə xanım da həmçinin. Amma seçilən bir Səslə. O, öz könül dərgahına sadiqdir. Yenə rəbbisinə üz tutur, yenə eşq körpüsündən keçir, ilahi səslənəndə sözü coşub-çağlayır. Amma məni maraqlandıran Fəridə xanımın bir şair kimi fərdi dünyasıdır. Şair nədən yazırsayazsın, onun şeirlərində könül duyğuları və bu duyğuların işığı əks olunur. Azərbaycanda elə şair tapılmaz ki, bu könül duyğularından-öz dünyasından böyük dünyaya boylanmasın. O böyük dünrya isə ilk növbədə Vətəndən başlayır.

*Torpağın hər bir dəni,*
*Cücərib min olacaq.*
*Üç rəngli al bayrağım,*
*Şuşada sancılacaq.*

Zamanın və ədəbiyyatın elə bir dövrü gəldi ki, şairlər üçün "Vətən daşı olmayandan Olmaz ölkə vətəndaşı" (M.Araz). Fəridə Hacıyeva da öz könül dərgahından Vətən dərgahına üz tutdu, Zəfərə gedən yolunu Şəhidlər xiyabanından saldı, "Ağlama şəhidj anası" şeirində anaların göz yaşlarına "mürgülü könüllərdə dalğalanan Vətən bayrağını" vəsf etdi, "Qisas vaxtıdır" dedi, Vətənə məhəbbətini "Hazıram haqq vuruşuna" andına çevidi.

*Mənim gücüm-qüdrətim,*
*Yenilməyən sərvətim,*
*Ən uca məhəbbətim,*
*Vətəndir, Vətən!*

*Torpağımın hər dəni,*
*Ruhumdadı, məndədi.*
*Sücaət, hünər nədir?!*
*Vətəndir, Vətən!*

*Qəhrəmanım, Poladım,*
*Yurdda tonqal qaladın*
*Bu gündən sənin adın,*
*Vətəndir, Vətən!*

*Dağlara bax, qürurum,*
*Hər daşını qorudum,*
*Mənim yenilməz ordum,*
*Vətəndir, Vətən!*

Fəridə xanım 44 günlük Qələbəmizi də vəsf edən şeirlər yazdı, "Ucaldı Azərbaycan" dedi.

Mən bir oxucu-tənqidçi kimi müasir şairlərin yaradıcılığından söz açanda daha çox onun təbiətə və onun gözəllltklərinə həsr etdiyi şeirlərə diqqət yetirirəm. Çünki təbiət şeirlərində şairin poetik ustlığı nəzərə çarpa bilər, ya da əksinə, şair deyilmiş sözləri, ifadələri təkrarlayar. Fəridə Hacıyeva təbiəti duyur, yaxşı bilir ki, təbiəti sevmək azdır, bu sevgini poeziyada əks etdirmək lazımdır-yeni mənalarla, yeni bədii təsvir vasitələri ilə... Ən başlıcası isə təbiətin (onun ayrı-ayrı predmetlərinin) obrazını yaratmaqla.Fəridə Hacıyevanı mən "payız şairi" kimi düşünürəm. Doğrudur, o, baharı da vəsf edən gözəl şeirlər yazıb, amma payız, əgər belə demək mümkünsə, onun mənəvi dünyasının bir xasiyyətnaməsinə çevrilib. Payıza olan sevgisi də birmənalı deyil. Deyir ki: "Payızda halım dəyişir", çünki "Ömrümün kövrək çağıdı". Başqa bir şeirində: "Bu payız başqa payızdı, Könlümü yaman oxşayır".

*Saçıma da sığal çəkir,*
*Mehi ruhumun qidası.*
*Bu nə gözəllik, İlahi,*
*Bəlkə, payızın nidası?!*

*Nazənin qız görkəmində,*
*Eləcə süzür bu payız.*
*Qızılı xəzəl göl üstə,*
*Elə hey üzür bu payız.*

"Payızın xəzan vaxtıdl"-bu şeirə şairin öz içindəki payızla təbiətin payızı vəhdət halına gəlir. "Qəlbim yaman pərişandır", çünki "Külək kimi əsirəm, Heç özüm də bilmirəm, Haraya tələsirəm". Və nəhayət, payız haqqında şeirlərə son akkord: "Ruhumun kədəri payız havası".

Fəridə Hacıyeıva güllərə, çiçəklərə də şeirlər yazır və bu şeirlərdə təkcə o güllərin, çiçəklərin görünüşünü deyil, həm də özünün sevgisini izhar edir:

*Bağda yasəmən açıb,*
*Duyğulanıb uçuram.*
*Könlümün qapısını,*
*Gözəlliyə açıram.*

Əksər qadın yazarların şeirlərində Tənhalıq sözü tez-tez işlənir. Bu da təbiidir. Çünki qadınlar kişilərlə müqayisədə tənhalığın acısını daha çox hiss edirlər. Bu hissiyyat sevgidə uğursuzluqdan da doğa bilər, kimsəsizlikdən də. Fəridə Hacıyevanın tənhalıqla bağlı şeirlərində əhval-ruhiyyə-ovqat ön plana keçir.

*"Səssizlik bağrımı yandırıb-yaxır,*
*Könlümün atəşi qəlbimi oyur.*
*Varlığım nə yaman tufana düşüb,*
*Duyğular dünyamı viranə qoyur.*

Bu misralar onun "Tənhalıq" şeirindəndir.

*Tənhalığın soyuğu,*
*Yaman üşüdür məni.*
*Tənhalığın soyuğu,*
*Silkələyir ruhumu.*

Bu isə "Tənhalığın soyuğu" şeirindəndir. Amma bir başqa "Tənhalıq" şeiri də var:

*Tənhalıqdan həzz aldım,*
*Xəyalların ağuşunda.*
*Gecədi, ay da çıxıb,*
*Mübarəkdim təzə ay.*
*Billur boyunbağıdı,*
*Başım üstə süzən ay.*

Təbii ki, tənhalıqla bağlı bu şeirlər bir ürəkdə yaranan duyğuların əks -sədasıdır. Əslində, tənhalıq heç də bədbinliyə qapılmaq, dünyalan üzülüşmək demək deyil.

Məncə, tənhalıq elə ondan həzz almaq deməkdir. Ölməz şair Əli Kərimin bu misralarını xatırlayıram: "Tənhalıq - boşluq deyil-Səni gözləyən varsa. Doludur ümid günəşilə, Həsrət ayparasıyla".

Bəzi pessimist, bədbin ruhda yazılan şeirplərini istisna etsəm, Fəridə Hacıyeva əsasən nikbin ruhlu şairdir. "həyat elə ağır, elə mürəkkəb, Həyatdan baş açman çətindən çətin" desə də, onun elə şeirləri var ki, hər miçrasından işıq süzülür və bədbinliyini unudursan.Məsələn:

*Sevgi qəlbir məlhəmidir,*
*Sevgi dünyanınışığı.*
*Sevgisiz, zülmət qaranlıq*
*Sevgi könül yaraşığı.*
*Hər kəlməmə, hər sözümə,*
*Düzdüm sevgi sarmaşığın.*

Yeni şeirlər kitabında Fəridə Hacıyevanın dördlükləri, bayatıları və hoqquları da yer alıb. Bu kiçik poetik formalarda bir-birini təkrar edən motivlər yox dərəcəsindədir. Ürfani ruhlu şeirlər də var, sırf reallıqları əks etdirən şeirlər də. Bir dördlükdə bir məzmunu verə bilmək, üstəlik onu bədii formada canlandırmaq o qədər də asan deyil. Fəridə xanım bunun öhdəsindən gələ bilib. Baxın:

*İlahilər ruh verir,*
*Qəlbim titrəyir, əsir.*
*Gözəlliyin içində*
*Könlüm necə tələsir.*

*Ürəyimiz üzülür,*
*Ata, əlimiz yetmir.*
*Xəyalın bizimlədi,*
*Nə tükənir, nə bitir.*

Müasir dövrdə bayatı yazmaq da şər hansı şairdən məsuliyyət tələb edir. Çünki bayatı deyəndə xalq bayatıları və Sarı Aşıq yada düşür.

Fəridə xanım bu məsuliyyəti çox bayatılarında duyub:

*Şuşam, xanüzlü Şuşam,*
*Mirvari gözlü Şuşam.*
*Gözəlliyi bir aləm,*
*Şipşirin sözlü Şuşam*

Yapon poeziyasından gələn hoqqular da bizim şairlərdə milliləşməyə başlayıb:

*İnsanlıq*
*Ucalıqdır,*
*Alçaqlıq*
*Cəhənnəm odu.*

Fəridə Hacıyevanın "Könül dərgahım" şeirlər kitabı onun poetik inkişafının yeni, irəlici bir addımıdır.

# VARAĞIN ÜSTÜNDƏ BİR QƏLƏM KİMİ...



*Tərlan Əbilov*

## RƏNGLƏRİN İSTİSİ

Sevgisiylə təzə-təzə şəkilə salmağa başlaşmışdı
ondan əvvəl qaranlıqda keçən günlərimi.
Əlində fırça yuxularımı boyayırdı rənglərin elçisi.
Boş qalmışdı hüznün kürsüsü,
soyumuşdu küləyin hirsi,
unudulmuşdu vaxtın pisi.

Hər gecə varağa çəkdiyi şam rəsmi
işıqlandırırdı hücrəmi,
əridirdi qanımda tromblanmış qəmi,
buxarlandırırdı gözümdəki nəmi.

Nəğmə sözlərinə çevrilirdi gözlərimin zümzümə etdiyi,
əlimin ən uzaqda yetdiyi.

Üstümüzə bağlayırdı bir qapını hər gecə
qollarımızın qucağa döndüyü kağız.

Təzə-təzə
bir cüt ağ əlin yozumu bir dibçək gülə dönürdü,
bir dibçək gülün yozumu bir cüt ağ əl olurdu,
qəhvəyi rəngin arxasından bir cüt göz yumuldu
işıq düşməyən rənglərimə.
Əlimdən düşdü bir çərçivə,
soyudu bədənim, saçlarım qışladı yenə,
yuxularımın şəkilsiz dönəmi başladı yenə...

## TUTMAZ

İndi zaman bir başqadı,
ha tər tök, iş bəhər tutmaz...
Tutar ən yaxşını, di gəl
pisi çor tutmaz, çər tutmaz...

Ha su ver, bəxt çiçəklənə,
Bəyaz kağız lələklənə...
Adam o qədər təklənər,
təkliyini şəhər tutmaz.

Hörüb yoluna bir hasar,
Hərə öz gününü pusar.
Başından yüz nəfər basar,
əlindən bir nəfər tutmaz.

Get, tutub saxlamaz səni,
Qal, öp, quc, ağlamaz səni.
Gecə qucaqlamaz səni,
adını bir səhər tutmaz.

Ya bir göz yaşı selində,
Ya bir cin atı belində,
Düşüb öləsən evində,
heç kim səndən xəbər tutmaz...

## VARAĞIN ÜSTÜNDƏ BİR QƏLƏM KİMİ...

Getməyə yerim yox, ölməyə üzüm,
Bu da bir ağrıdı çəkirəm elə.
Məndə vaxt nə gəzir oturmaq üçün,
Mən fağır ayaqda çökürəm elə.
Bu, təbiətimin yağmur vaxtında,
Sənə romanımın payızı düşüb.
Sən canın, telimi bir az yana çək,
Gör alnımdan sənə nə yazı düşüb?
Gör mənə alnımdan hansı allahın
Soyuğu, şaxtası, ayazı düşüb?

Hayanına keçim, durum hayanda,
Məni bu zülmətdə aydın görəsən?
Məni küreyinə biləsən divar,
Ömrünü, gününü mənə hörəsən...
Görüm sinəm üstə o sarı saçın
Mənə nədən ötrü Arazı düşüb...

Varağın üstündə bir qələm kimi,
Nətəhər susum ki, eşidəsən sən?
Nətəhər çevrilim sağ çiynim üstə,
Pəncənin üstünə qalxıb birtəhər
Bir də sükutumdan öpə biləsən?
Mən də sezim, bilim çiynimdə məndən
O hansı mələkdi narazı düşüb...

Üzü qəribliyə yaşaran gözəm,
Mənə sevgilərin qürbəti düşüb.
Məni dərd özünə varis eyləyib,
Mənə ayrılığın sərvəti düşüb,
Mənə bir cütlüyün ən azı düşüb.

Azmışam içində kiçik ölkəmin,
İçimdə bir kiçik ölkə azıbdı.
Üstümə tanrıdan kölgə biçmişəm,
Yanımda bir yetim kölgə azıbdı...
Mənə ovucunun dayazı düşüb...

Vaxt da qar kimidi, izləri örtür,
Ətəyimdən tutan, qıçımı dartır...
Şeirimdən yapışıb iməkləyənlər,
Mən bəyənməyib ərsəyə çatır...
Əlimin içidi sözün qırışı,
Ta şeir yazmıram, şəkil çəkirəm.
Hamıdan ovcuma çəkilib, indi
Ovcuma rənglərlə sığal çəkirəm,
Könlümə rənglərin avazı düşüb.

Yaxşı ki, sən varsan, payız naxışlım,
Bəxtimə bir sünbül sarısı düşüb...
Yenə öz-özümlə danışdığımdan,
Aytək gecənin də yarısı düşüb.
Məni fikir, səni yuxu aparıb,
Sürüşüb əllərim, üzüm sürüşüb,
Başımın altından dizim sürüşüb,
Ayağım altından izim sürüşüb...

## BİTMƏYƏN HEÇ NƏ YOXDU...

Bitməyən heç nə yoxdu,
vaxt hər şeyi bitirəcək.
Allah bizə nə xərcləyir,
artığıyla götürəcək.

Zaman çözüb izimizi,
Əlimizi, dizimizi,
Qrimləyib üzümüzü,
bizə də əl yetirəcək.

Nə fərqi kim kimdən doyub,
Nə fərqi kimə kim qıyıb...
Kimsə bir gün xatırlayıb,
bizi kökstək ötürəcək.

Ha ol nəfəsimi kəsən,
Olum sənin üçün əsən.
Guya sən məni sevməsən
dünya nəsə itirəcək?

Sətirlərim xeyrim, şərim,
Qəm yemə, ay ləlim, zərim.
Nə vaxt ölsəm, şeirlərim
məni yerdən götürəcək.

## ÜZÜ GÜNDOĞANA

*(Ələkbər Salahzadəyə)*

1
Üzü darıxdığım yerə dayanıb saat,
özümü bir əqrəbdən asmaqdan başqa yolum yox indi.
Ayaqlarını uçurumlara sallayıb
oturub -
bura qədər gəldiyim yol.
İlgəyə dönüb boynuma dolanan qol.

2
Hələ ki,
səhərin yaram kimi açılacağını gözləyirəm,
yerimi özümdən belə gizləyirəm-
insanlara etibar yoxdu, ustad.

3
Uzaqdan şeir səsi gəlir,
kitab şəklində şəhərə dağılışıb cızmaqaraçılar.
Qoltuğunda qovluq,
əlini səkiyə açıb,
hündür binaların qarşısında
rəqs eləyir qaraçılar...
Qıvrım qadın saçlarına avtoqraf yazır külək...

4
Şeirdən bezib kitab rəfləri,
kitabdan bezib kitab evləri.
Harda şeir var, orda şair yoxdu,
harda şair var orda şeir...
Qançır-qançırdı Sözün bədəni...

5
Özgə əlini öz əlim kimi
cibimdə gəzdirməkdən bezmişəm daha.

6
Mənim kimi piyadalar üçün
işıqforda həmişə yaşıldı yanan işıq.
Ömür-yolu bu üzdən
o üzə keçməkdisə,
hanı bəs yol?

7
Ölkə varlı olanda acından ölür əsl şairi...

8
Otağındakı külqabı hələ də dopdoludu,
birini söndürməmiş,
birini yandırdığın siqaretdi
gedib-gəlməyən nəfəsim.

9
Üzümə ağ olan vaxtın arxasında
qara fon kimi durmuşam indi,
üzümdəki acı təbəssüm sənindi.

10
Neçə vaxtdı
başını üfüqün çiyninə qoyub
yamyaşıl gözləriylə
günəşin çıxmadığı yerə boylanıb bir ağac,
bir budağa barmaq silkələyir ölüm ac-ac.

11
Xitabət kürsüsüdü kətil...

## ƏKSİNİ ASDIĞIM DİVARDIR İÇİM

Çölümdə bir divar qalmayıb, ancaq
Əksini asdığım divardır içim...
Uzaqdan gəlirəm, yaman susuzam,
Yaxın gəl, gözündən bir az su içim...

Şeytan yuvasıdır düşdüyüm yataq,
Sən də bir daş tulla, birtəhər yataq,
Zülmətə bürünmüş darısqal otaq
Sənlə işıqlansın, yuxumdan keçim...

Daya gözlərini kürəyimə, keç,
İsinmək istəsən ürəyimə keç.
Görsən ki, sönmüşəm, qurdalama heç,
Qıyma, sağam-deyib, oda and içim...

Son mənzil deyilən elə budu, bu,
Nə işıq tapılır, nə bir içim su...
Bax gör, ölmüşəmsə, günahımı yu,
Təzədən bu ruha bir bədən seçim...

## YOXDUR

Adam var ki, divarı var,
Başı üstdə damı yoxdur.
Yoxdur aşırtmağa ömrü,
Qaldırmağa camı yoxdur.

Oyaqdır, naxışı yatıb,
Ayrılıqla başın qatıb.
Yaşamağın daşın atıb,
Həyatının tamı yoxdur.

Yox səbrinə çıxan yiyə,
Qalıb özün söyə-söyə.
Payız kimi lütdür deyə
Bir nəfər adamı yoxdur.

Çəkə bilmir ah da onu,
Savab da, günah da onu.
Küsdürüb Allah da onu,
Allaha inamı yoxdur...

## DƏLİL

Barsız ağac yoxdur -
kölgəsi,
odu varsa, sevgiyə layiqdir ağaclar.
Ürəyi yananda
bir içim su ver ağaclara,
bacı kimi qulluğunda dur
həyətimizdəki ağacların, qızım.
Ağaclar yaxşılığı unutmurlar,
yıxılanda da adamın qolundan tuturlar.
Bu əlimdəki əsa da
baltalanmış bir ağacın insanlara olan sevgisidir,
mərd olur, mətin olur ağaclar.
İnsanlarla müqayisədə
çox əliaçıq olur ağaclar;
istidə kölgəsini,
soyuqda atəşini əsirgəmir kimsədən ağaclar...

## 4 il əvvəl 350 filin kütləvi ölümü: Ölüm səbəbi bu gün açıqlandı

**Quruda yaşayan ən böyük heyvan hesab edilən Afrika fillərinin kütləvi ölümləri dünyanın diqqət mərkəzindədir.**

Xatırlayırsınızsa, 2020-ci ilin iyul ayında Afrika ölkəsi olan Botsvanada son iki ayda 350-dən çox filin ölüm səbəbi müəyyən edilə bilmədi.

İngiltərədəki Milli Park Xilasetmə qrupundan BBC-yə verilən açıqlamada, fillərin yollarını itirmiş şəkildə irəliləmələri və üz üstə düşərək can verməlÉrinin nevroloji pozğunluq ehtimalını gücləndirdiyiortaya qoysa da, digər mütəxəssislər isə bunu iqlim dəyişkənliyi ilə əlaqələndirsə də əsas səbəb tapılmadı.

Adalet.az xəbər verir ki, fillərin ölümündə müəyyən edilməsi mümkün olmayan xəstəlik 4 ildən sonra tapılıb.

Məlumatı ""Science of the Total Environment" jurnalı yayıb. Nəşr bildirib ki, sirli şəraitdə ölən 350-dən çox fil zəhərli su içib.

Məqalədə qeyd olunub ki, İqlim böhranı zərərli yosun çiçəklərinin yetişməsinin intensivliyini və şiddətini artırır:" 2020-ci ildə həddindən artıq rütubətli il oldu. Bu şərtlər suda çöküntünü artırdı və qida maddələrinin sürətlə çürüməsinə səbəb oldu. Buna görə, misli görünməmiş yosun artımı müşahidə olundu. İqlim dəyişdikcə, dünyanın çox hissəsinin daha quru və isti olacağı, fasilələrlə güclü yağış yağacağı proqnozlaşdırılır.

Bu qədər çox filin ölməsi çox təəssüf doğurur, lakin bu, ani, iqlim səbəbli xəstəliyin qlobal tendensiyasına işarə edir bunun hər hansı bir heyvanda təkrarlana biləcəyinə dair inandırıcı sübutlar var. Tədqiqatçılar ümumilikdə 3000 su çuxurunu araşdırdılar və 2020-ci ildə artan siyanobakteriyaların çiçəklənməsi canlılarda yüksək şəkildə cəmləndiyi üçün ölüm anı qaçılmaz olur. Beləliklə, fillərin mavi-yaşıl yosunların və ya siyanobakteriyaların zəhərli çiçəklərini ehtiva edən sudan zəhərləndiyi təsdiq olundu. Fillərin isə sianid bakteriyalı su çuxurlarından istifadə etməsindən başqa seçimləri yoxdur".

Yeri gəlmişkən, elə həmin ilin sentyabrında Zimbabvedə də 34 filin kütləvi ölümü baş verdi. Bu ölkənin fillərinin də ölüm səbəbi bakterial xəstəlik idi.

Qeyd edək ki, bu hadisədən bir il sonra -2021-ci ildə ABŞ-ın cənub-qərbində minlərlə quşun kütləvi şəkildə tələf oldu. Tədqiqarçılara görə bu, uzun müddətli aclıqdan və daha da pisləşən, ehtimal ki, iqlim böhranı ilə əlaqədardır. Ümumiyyətlə yer kürəsində müxtəlif növ heyvanların kütləvi ölüm hadisələri intensivləşib.

*Əntiqə Rəşid*

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 46 (2420) 6 dekabr 2024-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# AZADLIQ OLAN YERDƏ HƏYAT VAR



**Dünyada insanları ən çox düşündürən və narahat edən onların azadlığıdır. Çünki azadlıq olmayan yerdə sanki günəş yoxdur və insanların içində, qəlbində bir soyuqluq var. Təbii ki, azadlığı da əldə etmək üçün hər bir xalq mübarizə və mücadilə aparmalıdır. Eyni zamanda azadlıq həm də söz, mətbuat, fikir plüralizmi və düşüncə azadlığı deməkdir. Əgər bu elementlər, bu göstərdiyimiz dəyərlər yoxsa heç şübhəsiz, insanlar həmişə əziyyət çəkəcək, narazı olacaq və istədiklərini deyə bilmədiklərinə görə pis duruma düşəcəklər.**

Əlbəttə, biz həmişə ”Azadlıq” deyəndə Avropa ölkələrini yada salmışıq və düşünmüşük ki, kaş elə biz də o azad, demokratik ölkələrdə yaşayaydıq. Çünki Sovet dönəmində insanların dolanışığı, yaşayışı və həyat tərzi yetərli idi. Ancaq çatışmayan bir səbəb var idi ki, onun üçün də insanlar həmişə öz içlərində və ürəklərində mübarizə aparırdılar.

Artıq 1988-ci ildən başlayaraq keçmiş SSRİ-dəki müttəfiq respublikalarda böyük azadlıq hərəkatı başladı. Və bu azadlıq hərəkatı Azərbaycandan da yan keçmədi. Bir milyon insan seli ”Azadlıq meydanı”na toplaşaraq ”Demokratiya!”, ”Müstəqil Azərbaycan!”, ”Söz və mətbuat sərbəstliyi!” deyərək hayqırdılar. Aydındır ki, azadlığı heç kimə asanlıqla vermirlər. O ”şirinquş” deyil ki, gətirib kimsə onu sənə versin. Bayaq dediyimiz kimi, bu dəyərləri əldə etmək üçün insanlar mübarizə aparmalıdırlar. Və o mübarizə də artıq 1988-ci ildən başlamışdı.

SSRİ dağılandan sonra müstəqil Azərbaycan yeni-yeni dirçəlməyə başladı. Əlbəttə, ölkəni həm siyasi, həm iqtisadi, həm də hərbi cəhətdən inkişaf etdirmək üçün dövlətin dayaqları daha möhkəm olmalı idi. Çünki heç kimə sirr deyil ki, Xalq Cəbhəsinin hakimiyyətdə olduğu qısa zaman kəsiyində ölkə iqtisadiyyatı dağılmış, başqa sözlə demiş olsaq, Azərbaycanda xaos və özbaşınalıq hökm sürürdü. Siyasi cəhətdən savadsız və təcrübəsiz adamlar dövləti idarə edə bilmirdilər. Daha doğrusu, onlar öz başlarını itirmişdilər. Öz başını itirən insanlar yəqin ki, dövləti idarə edə bilməzdilər. Elə ona görə də 1993-cü ilin yayında Ulu Öndər Heydər Əliyevi Azərbaycan xalqının xahişi ilə ikinci dəfə hakimiyyətə gətirdilər.



Heydər Əliyev hakimiyyət başına gələnə qədər ölkədə vətəndaş müharibəsi yetişmişdi. Daha doğrusu, bunun ilk qığılcımları özünü göstərdi. Əgər Ulu Öndər bir neçə ay hakimiyyətə gec dəvət olunsaydı ölkəmizdə Vətəndaş müharibəsi başlanacaqdı və bununla da zəif bir dövlətin bütün problemləri daha da ağırlaşacaqdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə çox yox, bir ildə hər şey dəyişməyə başladı. Azərbaycanda dövlət quruculuğu sahəsində ciddi addımlar atıldı. Hüquqi, demokratik və sivil dövlətin qurulması üçün Ulu Öndər çox böyük işlər gördü. İlk növbədə dünyanın inkişaf etmiş ölkələri ilə siyasi-iqtisadi və hərbi əlaqələr quruldu. Bununla yanaşı, ölkəmizdə demokratik prinsiplərə, söz, mətbuat və düşüncə azadlığına əməl edilməsi üçün çox möhtəşəm işlərə start verildi. İlk növbədə senzura ləğv edildi, bundan sonra mətbuatın və digər demokratik vasitələrin sərbəst fəaliyyəti üçün münbit şərait yaradıldı. Heç kimə sirr deyil ki, həmin dövrdə Azərbaycanda ictimai rəyə təsir edən və oxucular tərəfindən sevilən onlarla qəzet maliyyə imkanı olmadığına görə dərc oluna bilmirdi. Həmin qəzetlərin ”Azərbaycan” nəşriyyatına çoxlu borcları vardı. Ulu Öndər ilk növbədə həmin borcları ləğv etdirdi və bununla da xalqın və millətin axtardığı qəzetlərin çapı üçün bir nəfəslik, bir yeni ab-hava və bir yeni mühit yaradıldı. Heydər Əliyev bununla yanaşı, gündəmdə olan həmin qəzetlərə maliyyə vəsaiti ayrılması ilə bağlı lazımi orqanlara göstəriş verdi. Və bu tədbirlərdən sonra demək olar ki, həmin qəzetlər davamlı olaraq çap olundu və oxucular tərəfindən böyük sevgi ilə qarşılandı.

Azərbaycanda tək söz, mətbuat azadlığı deyil, insanların sərbəst surətdə fikirlərini ifadə etmək, hər hansı məsələyə normal münasibət bildirmək hüquqları da bərpa olundu. Başqa sözlə demiş olsaq, hər hansı bir mövcud durumdan narazı olan bir vətəndaş, bir qurum və qeyri-hökumət təşkilatı öz düşüncələrini və fikirlərini cəmiyyətə çox asanlıqla ötürməyə nail oldular. Bununla yanaşı, Azərbaycanda yenidən çoxlu sayda qəzetlər, saytlar və özəl televiziya kanalları fəaliyyətə başladı. Bu gün əgər onları bir-bir saysaq, görərik ki, ölkəmizdə yüzlərlə saytlar, qəzetlər və eləcə də müxtəlif internet televiziya kanalları fəaliyyət göstərir. Onlar qanuna uyğun və dövlətçilik əleyhinə iş aparmırlarsa belələrinin fəaliyyətinə heç bir maneçilik yaradılmır. Amma təəssüflər olsun ki, bəzi internet televiziyaları və saytlar bu şəffaflıq və demokratik prinsipdən istifadə edərək qanunu pozur, hətta dövlətin və dövlətçiliyin əleyhinə işlər də aparırlar. Bu isə birmənalı olaraq qanuna ziddir və ölkəmizin maraqlarına uyğun gəlmir. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev Azərbaycan mətbuatının dostları oldublar. Ən azından ona görə ki, qəzetlərin ən ağır vəziyyətində, can verəndə belə hər iki dahi şəxsiyyət mətbuat işçilərinin yanında olub, qəzetlərə maddi və mənəvi dəstək durublar. Təbii ki, mətbuat işçiləri də bu diqqət və qayğını heç vaxt unutmurlar.

**Prezident İlham Əliyevin çox gözəl bir deyimi var. Prezident deyir ki, mən dostluqda çox sadiqəm. Doğrudan da biz mətbuat işçisi olaraq prezidentin dostluğa necə sadiq olduğunun şahidi olmuşuq. Çünki Azərbaycan mətbuatının , xüsusən də çap mətbuatının ən ağır durumunda prezident İlham Əliyev jurnalistlərin yanında olub və onlara arxa durub. Düşünürük ki, Cənab Prezident bundan sonra ənənəvi mətbuatın yaşaması, dirçəlməsi və inkişaf etməsi üçün lazımi addımlar atacaq. Bu addımları bir daha mətbuatımızın tanınmış simaları, jurnalistlər ordusu, yazarlar çox yüksək qiymətləndirirlər. Məhz buna görə də bu gün Azərbaycanda çap mətbuatı rahat nəfəs alır, istədiyi mövzuda yazılar qələmə alır, dövlətə və dövlətçiliyə şərəflə, namusla xidmət edir.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Naxçıvan teatrında "Ölülər"in diriliş təcəssümü

**Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında "Ölülər" tragikomediyası səhnələşdirilib.**

Böyük qələbəliyin maraqla izləməyə axışdığı tamaşa teatrsevərlərin məmnunluğu ilə müşaiyət olunub. Bunun bir çox səbəbləri var ki, ən əsası əsərin böyük ideya- məzmun dəyəri, yarandığı dövrdə cəmiyyət həyatının ictimai-fəlsəfi modelini inikas etdirməsi, obrazlı desək, görkəmli yazıçının güldürə-güldürə ağladıb anlatdığı həyat gerçəklikləridir. Bu sırada " Ölülər" in Naxçıvan Teatrının səhnəsində müxtəlif vaxtlarda dəfələrlə səhnəyə qoyulması və tamaşanın naxçıvanlılara yaxşı tanış olması da vurğulanası səbəblərdəndir. Yeri gəlmişkən qeyd edək ki, " Ölülər" əsərinin ilk səhnə təcəssümü də məhz Naxçıvan teatrında gerçəkləşib. Hələ ötən əsrdə--1915- ci ildə ustad rejissor



Rza Təhmasibin quruluşu, görkəmli ziyalı, ədib Əliqulu Qəmküsarın rejissorluğu, dahi rəssam Bəhruz Kəngərlinin əvəzsiz səhnə tərtibatında canlandırılan bu tragikomediya böyük əks- səda dogurub. Ümummili liderimiz Heydər Əliyev də bu əsərə ilk dəfə hələ 13 yaşında Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində baxdığını, tamaşanın onun yaddaşında dərin iz buraxdığını, təsirindən çixa bilmədiyini bildirib, Mirzə Cəlilin bu şah əsərini " ...Həddindən artıq bir fəlsəfi əsərdir. İnsan fəlsəfəsinin ən yüksək zirvəsində olan bir əsərdir" , deyə, çox dolğun ifadələrlə səciyyələndirib. " Ölülər" Naxçıvan teatrı səhnəsində sonrakı dövrlərdə də dəfələrlə ayrı- ayrı rejissorların səhnə yozumunda tamasaçılara təqdim olunub və repertuarda ən çox izlənilən tamaşa kimi qalıb.

Belə olan halda teatrın yaradıcı kollekvinin bu ölməz əsərə bir daha müraciət etməsinin özü də böyük cəsarət və özünəguvən məsələsidir desək,yanılmarıq. Çünki, tamaşa müxtəlif illərdə dəfələrlə ayri- ayrı görkəmli sənətkarlar tərəfindən hazırlanıb. Hər rejissor fərqli quruluşda,mizanda, həm də yeni baxışla canlandirıb.Bu halda tamaşanın yenidən hazırlanması daha böyük diqqət və bacarıq tələb edir ki, təkrarçılıq



olmasın, hər kiçik nüans tamaşaçı zövqünu oxşasın, əsərin başlıca qayəsi dolğunluğu ilə çatdırılsın. İnsafən yaradıcı heyətin əməy,i zəhməti bu baxımdan ,öz bəhrəsini verib. Teatrın baş rejissoru Mir Qabil Əkbərovun quruluşunda və rejissor, həmçinin baş rol Şeyx Nəsrullahı canlandıran Səməd Canbaxşıyevin rejissorluğu, aktyorlarla səmərəli iş sayəsində mükəmməl bir tamaşa ərsəyə gətirilib.

Bunun nəticəsidir ki, tamaşada o dövrdə cəmiyyət həyatında hökm sürən dini fanatizm, mənəvi əsarət , cahillik və cəhalətin faciəvi fəsadları mühum çalarlar, dolğun məqamlar, incə strixlərlə tamaşaçıya aşılanır. Xalq artistləri Rza Xudiyevin yaratdığı Hacı Həsən və Yasəmən Ramazanovanin canlandırdığı Kərbəlayi Fatma obrazları isə özunəməxsusluğu, peşəkar, usta oyunçuluğu ilə tamaşaçı yaddaşında iz buraxır.Tamaşaçılar xalq artistlərinin yaratdıqları tipik obrazlarla o vaxtlar din girdabına yuvarlanan adamların cahil, avam simalarını görür, acı gulüşlərlə hallarına yanmaya bilmirlər.Təbii ki, digər aktyorların da istedad və zəhmətləri diqqətəlayiqdir.

Tamaşada onlar da mükəmməl ifaları ilə dahi Mirzə Cəlilin can yanğısıyla əks etdirdiyi düşuncələrinin tamaşaçıya çatmasında mühüm rol oynayırlar. O ki, qaldı əsərin baş qəhrəmanı Kefli İsgəndər sürətinə, aktyor Məmməd Mehdiyev bu obrazı məharətlə yaradib. Dini cəhalətin hökm sürdüyü qaranlıq mühitdə bir işıq tək parlayan, yaşadığı cəmiyyətin ifrat naqislərinə dözməyən, İsfahan lotusu adlandırdığı Şeyx Nəsrullahın çirkin əməllərini, əxlaqsız və mənəviyyatsiz bir fırıldaqçı olduğunu ifşa edən, cahil, avam insanları zülmətdən aydınlığa səsləyən, maarif və mədəniyyətin carçısı olan Kefli İsgəndəri tamaşaçıya sevdirməsi gənc ifaçı aktyorun həm də, istedad və bacarığının ifadəsidir. Butun bunlar, sadaladığımız məziyyətlər, həmçinin, düzgün rol bölümü, aktyor seçimi, onlarla səmərəli iş tamaşanın uğurlu və mükəmməl alınmasını şərtləndirib.

Təbii ki, bu sırada rəssam işi, musiqi tərtibati da önəmli amil kimi qeyd edilməlidir.Əməkdar rəssam Səyyad Bayramovun təxəyyülünün bəhrəsi olan dekorasiyalar, seçilən rəngçalarlığı, eləcə də rəssam işində ən kiçik detallar, ən incə ştrixlər hadisələrin cərəyan etdiyi mühiti əks etdirməklə əsərin ideya məzmun dəyərinin tamaşaçıya çatdırılmasında mühüm rol oynayır. Bu fikirləri tamaşanın musiqi tərtibatçısı Azər Cəfərovun da əməyi, zəhməti barədə deməyimiz yerinə düşər. Bəli, Naxçıvan Dövlət Milli Dram Teatrı həmişə olduğu kimi bu dəfə də yazıçı C.Məmmədquluzadənin ədəbiyyatimizda ilk tragikomediya janrında olan və dramaturgiyamizda ən yüksək zirvədə dayanan " Ölülər" əsəri ilə tamaşaçılarını sevindiribi.



**Nümayiş olunan tamaşaya kütləvi tamaşaçı rəğbəti, məmnunluğu isə deməyə əsas verir ki, " Ölülər" Naxçıvan teatrı səhnəsində diriliş təcəssüm etdirib.Və inanırıq ki, yeni mizan və quruluşda təqdim olunan tamaşa müəllifinin adını daşıyan teatr repertuarında hələ uzun müddət qalacaq. Bu uğura görə doğma Naxçıvan teatrının yaradıcı kollektivini təbrik edirik. Daha böyük nailiyyətlər, daha möhtəsəm uğurlar diləy ilə...**

**Adilə Səfərova,**
**Azərbaycanın əməkdar mədəniyyət işçisi**

# AFFA-dan iki baş məşqçiyə 5 oyunluq cəza

**AFFA-nın İntizam Komitəsinin iclası keçirilib.**

QOL.az xəbər verir ki, iclasda aşağı liqalarda keçirilən oyunlardakı qayda pozuntuları ilə bağlı qərarlar verilib.

AFFA Gənclər Liqasında keçirilən "Sumqayıt" - "Zirə" oyununda meydan sahiblərinin baş məşqçisi Kənan Hacıyev hakimlər otağına daxil olaraq təhqiredici sözlər işlətdiyinə görə 5 oyun cə-



zalandırılıb. U-14 Liqasında keçirilən "Çinar" (Gəncə) - "Azəri" (Gəncə) oyununda meydan sahiblərinin baş məşqçisi Elçin Quziryani texniki zona qaydalarını pozduğuna görə, eyni zamanda hakimlər briqadasını təhqir və fiziki təzyiq etdiyinə görə qırmızı vərəqə ilə cəzalandırılmasına görə 5 oyun cəzalandırılıb.

## ELAN

**Hörmətli AYB üzvləri, əziz poeziyasevərlər!**

**Sizi 7 dekabr saat 12.00- da şair- publisist, Əməkdar jurnalist ƏBÜLFƏT MƏDƏTOĞLU ilə görüşə dəvət edirik.Görüş Sumqayıt Poeziya Evində keçiriləcəkdir.Arzu edən hər kəs dəvətlidir.**

**Təşkilatçılar: AYB Sumqayıt bölməsi Sumqayıt Poeziya Evi**
**Ünvan: Sumqayıt şəhəri, Heydər parkı, Sumqayıt Poeziya evi**




## Aparıcı: "Elə ailələr var ki..."



**Hər zaman fikirləri ilə diqqət çəkən aparıcı Aytən Səfərova bu dəfə də ənənəsinə sadiq qalıb.**

Adalet.az bildirir ki, aparıcı yenə də kütlənin düşündüyünün tam əksinə olan düşüncələrini tamaşacılara sərgiləyib:

"Bəzən ailədə elə yaşca kiçik insanlar olur ki, onların qərarı ən doğru qərar olur. Elə ailələr var ki, orda ağsaqqalların özlərinə psixoloq lazım olur. Yəni böyüklərin hər dedikləri heç də doğru olmur. Bəzən yaşı kiçik bir insan elə fikir söyləyir ki, deyirsən ki, ən doğru düşüncə budur".

## Müğənni: "Biz o dövrümüzü çoxdan keçmişik"

**Son zaman şəxsi həyatı ilə gündəm olan müğənni Zenfira İbrahimova açıqlamasıyla diqqət çəkib.**



Adalet.az bildirir ki, o, həyat yoldaşı Anar Heydərovla münasibətinə aydınlıq gətirib:

"Bizim elə yaş dönəmimizdir ki, artıq cavanlıq arxada qaldı. Evimizdə iki övlad böyüyür. Onları düşünməliyik. Onu güdmək, yersiz qısqanmaq, ümumiyyətlə qısqanclıq etmək uşaqlıq əlamətidir. Biz o dövrümüzü çoxdan keçmişik.

Mənə deyirlər ki, evə gec gələndə nə deyirsən? İnanın ki, dünən evə gəlməyib heç (gülür). Heç nə də deməmişəm. Ağlı başında adamdır. İnanmıram Anar səhv addım atsın".

## İllər sonra "W-trio" bir arada



**İllərdir küsülü olan və bir araya gəlməyən "W-trio" qrupunun üzvləri Natavan Həbibi, Elnarə Xəlilova və Röya Ayxan izləyicilərini təəccübləndirib.**

Adalet.az bildirir ki, məşhur cütlük bir masa ətrafında səmimi davranışlarıyla diqqət çəkiblər. Natavan Həbibi və Elnarə Xəlilova Röya Ayxanın repertuarından "Sənə görə" mahnısını ingilis dilində ifa ediblər. Həmkararının bu addımı Röyanı xeyli güldürüb.

Qeyd edək ki, Röya Ayxan həmkarları ilə səmimi fotoları şəxsi instagram hesabında paylaşıb. Sözügedən fotoları təqdim edirik:

**Əntiqə**

**DDLAR QSC səhmdarlarının iclası 28.11.2024-cü il tarixində keçirilmişdir. 2023-cü ilin yekun maliyyə hesabatı təsdiq edilmişdir.**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 208
Çapa imzalanmışdır: 05.12.2024